DÜŞÜNƏN İNSAN - Mart 2012;
Elmi-kütləvi, mənəvi-psixoloji jurnal
Təsisçi və redaktor: Ziya Kazımov
Kompyuter dizaynı: Mirağa Niftəli
Ünvan: Bakı şəhəri, M.Şərifzadə küçəsi 78/57
Telefon: (050) 4662020; E-mail:admin@dusuneninsan.info
"Düşünən İnsan" jurnalı Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.Qeydiyyat N 3418

# DÜŞÜNƏN İNSAN

## içindəkilər




| | |
|---|---|
| Heydər Əliyev İslam dini haqqında | 3 |
| Elmi-texnoloji xəbərlər | 4 |
| İslam dünyasında keçən ay | 6 |
| CNN aparıcısı Lari Kinqin ölüm qorxusu | 9 |
| İlham Əliyev milli-mənəvi dəyərlər haqqında | 15 |
| Heç kimə və heç nəyə faydası olmayan, boş və mənasız bir hiss: KƏDƏRLƏNMƏK | 16 |
| Bir ayə, Bir açıqlama | 19 |
| Qurani-Kərim asan olana yönəldir | 22 |




















Şərq-Qərb mətbəəsində çap olunmuşdur

# içindəkilər



Hər insan vəhylə hərəkət edir 30

Yer kürəsinin böyüklüyü və daxili quruluşundakı İdeal nisbət 38

Son sözü demək xəstəliyi 42

Hamıda qan eynidir? 60

İnsana acizliyini xatırladan miroskopik varlıqlar: Viruslar 62

Axırzamanın mübarək şəxslərindən Hz. İsa (ə.s) mükəmməl fiziki xüsusiyyətlərinə görə dərhal tanınacaq 64



















Mömin ibarəli danışmağı, zarafatla söz atmağı gözəl və nəcib ruhuna yaraşdırmaz... 80



"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir. Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir".

HEYDƏR ƏLİYEV





# Elmi-Texnoloji xəbərlər




## İNTERNET YENİDƏN QURULACAQ

Elm adamları poladdan da möhkəm, eyni zamanda, elastikliyinə görə müxtəlif formalara düşən hörümçək torunun ən böyük xüsusiyyətini aşkar edib. Bu kəşf internetin gələcəyi üçün ilham mənbəyidir.

"Təbiət" (Nature) jurnalında dərc olunan məqalədə hörümçək torunun təkcə möhkəm deyil, həm də "ağıllı" olduğu bildirilir. Belə ki, gələcəkdə elektrik şəbəkələri və internetin hörümçək torunun əsas götürülərək qurulması nəzərdə tutulur.

Massaçusets Texnologiya İnstitutunun akademiki Markus Buehler və tədqiqat qrupu Avropada yaşayan bağ hörümçəyi (Araneus diadematus) üzərində kompyuter modellərindən istifadə edərək apardıqları tədqiqatda hörümçək torlarının müxtəlif gərilmə səviyyəsinə uyğun fərqli reaksiya göstərdiyini müəyyən etmişdir.

Hörümçəyin ovunu tutmaq üçün qurduğu torundan eyni zamanda yuvası kimi istifadə etdiyinə diqqət çəkən Buehler hörümçək torunun lazım olduqda boşalan, sonra yenidən əvvəlki möhkəmliyinə qayıdan bənzərsiz xüsusiyyətə malik olduğunu vurğulayıb.

Aparılan tədqiqatda hörümçək torunun meh əsdikdə boşaldığını, ancaq ümumi quruluşunun pozulmadığı aşkar edilib. Torun müəyyən hissəsinə daha güclü qüvvə tətbiq etdikdə həmin hissə elastikliyini itirərək gərilir və qırılır.

Ancaq bu halda, torun ümumi quruluşunu və bütövlüyünü daha çox qoruyur. Buehler və qrupu müxtəlif hissələrdəki ipliklər qırıldıqda torun adi halda olduğundan 3-10% artıq ağırlığa tab gətirdiyini üzə çıxarıb. Elm adamları hörümçək torunu poladdan üstün edən bu xüsusiyyətini qeyd edirlər.



## Yuxularımızdakı 13 sirr



**"Scientist" jurnalında dərc olunan xəbərə əsasən yuxularla bağlı 13 önəmli məqam aşkar edilib.**

1. İnsan yuxuda gördüklərinin 90 faizini unudur. Yuxudan ayılandan sonrakı 5 dəqiqədə insan yuxularının 50, 10 dəqiqə sonra isə 90 faizini tamamilə unudur.

2. Korlar da yuxu görürlər. Doğulandan sonra kor olanlar yuxularında dəqiq görüntülər görürlər. Anadangəlmə korlar isə yalnız lamisə hisslərinə istinadən əldə etdikləri informasiyalar əsasında yuxu görürlər.

3. Hamı yuxu görür. Ciddi psixoloji narahatlığı və problemi olanlar istisna olmaqla, hamı yuxu görür. "Mən yuxu görmürəm", - deyənlər isə, sadəcə, yuxularını çox tez unudanlardır.

4. Yalnız tanış insanlar yuxulara girir. İnsan beyni yeni üzlər yaratmır. Bu səbəbdən, insan yuxusunda tanıdığı adamları görür, amma sonradan onları xatırlamır. Hər birimiz yuxuda minlərlə üz görmüşük.

5. Hər kəs rəngli yuxu görmür. İnsanların 12 faizi sadəcə ağ-qara yuxular görür.

6. Yuxular simvolik məna daşıyır. Əgər yuxu konkret bir mövzu, hadisə və ya məsələ ilə bağlıdırsa, o, çözülməli və yozulmalıdır.

7. Yuxular hisslər toplusudur. Yuxularda neqativ hisslər pozitiv duyğulardan daha çoxdur.

8. Yuxular hərdən təkrarlanır. Yuxuların çoxu, sadəcə, bir dəfə görülsə də, təkrarlanan yuxular az deyil. Qadınların 70, kişilərin isə 65 faizi təkrar yuxular görə bilirlər.

9. Heyvanlar da yuxu görür. Müxtəlif heyvanlar üzərində aparılmış sınaqlar insanlar kimi onların da yatdıqları zaman beyinlərindəki neyrofiziki fəaliyyətlərindəki dəyişikliklərin dalğalar yaratdığını sübut edib.

10. Yuxu insan bədənini iflic edir. İnsan yuxuda olanda beyindəki xüsusi sahə bədəni yarıiflic vəziyyətinə salır.

11. Yuxu və reallığın birləşməsi. İnsan yuxuda olanda ətrafdakı səsləri eşidir, onları yuxusunun bir parçasına çevirir.

12. Kişi və qadın yuxuları. Kişilər qadınlarla bağlı yuxular görməyə meyillidir. Kişilərin yuxularındakı obrazların 70 faizi qadınlardır. Qadınların yuxularındakı obrazların isə yarısı kişi, yarısı da qadındır. Üstəlik, kişilər yuxularında daha aqressiv duyğular yaşayırlar.

13. Yuxular gələcəkdən xəbər verir. Aparılmış araşdırmaların nəticələri göstərir ki, insanların 18-38 faizi gələcəkdən xəbər verən yuxular görür. Yuxuların 70 faizi isə dejavyu hissinə əsaslanır.

# İslam Dünyasında





## Oliver Stounun oğlu müsəlman oldu

Oskar mükafatına layiq görülmüş məşhur rejissor, ssenarist və prodüser Oliver Stounun oğlu 27 yaşlı Şön Stoun müsəlman olub. Fransa Mətbuat Agentiliyinin verdiyi xəbərə görə, İranda sənədli film çəkilişləri aparan Şön Stoun bu ölkədə İslamı seçib.

İranın İsfahan şəhərində təşkil olunan bir mərasimlə müsəlman olan Stoun anasının xristian, atasının yəhudi olduğunu bildirərək müsəlman olmasının yəhudi və xristian dəyərlərə daha az hörmət edəcəyi kimi başa düşülməməsini vurğuladı.

Şön Stoun İsfahan şəhərindən telefonla verdiyi açıqlamada İslamı seçməsi ilə xristianlığa və yəhudiliyə arxa çevirmədiyini bildirərək hz. Muhəmmədi (s.ə.v) və digər bütün peyğəmbərləri qəbul etdiyini söylədi.





## Rusiya yenidən din dərslərinə qayıdır

Rusiyanın baş naziri Vladimir Putin SSRİ dövründə məktəblərdə qadağan olunan din mədəniyyətini və dünyəvi əxlaq dərslərini 2012-ci ilin sentyabrından Rusiyanın dövlət məktəblərində yenidən tədris etməyi düşünür.

Putin dini məktəblərin artırılmasına və televiziya kanallarında dini verilişlərin yaradılmasına söz verdi. Rusiyanın baş naziri Pitin önümüzdəki ay keçiriləcək prezident seçkilərində dəstək almaq üçün dövlət tərəfindən tanınan ənənəvi dinlərin nümayəndələri ilə görüşdü.

Danilov monastırında keçirilən görüşdə Putin Rusiya Ortodoksal kilsəsinin patriarxı Kirilə, müsəlman, yəhudi və buddist liderlərə dövlət məktəblərində din dərslərinin keçirilməsinə dair söz verdi. Baş nazir məktəblərdə din mədəniyyəti və dünyəvi əxlaq dərslərinin keçirilməsi istiqamətində hazırlıqların aparıldığını da bildirdi.

O: "Dövlət televiziya kanallarındakı dini verilişlərdə dinlərin səsi daha gur çıxmalıdır", - deyə vurğuladı.

4 dinin nümayəndəsi martın 4-də keçiriləcək prezident seçkilərində Putini dəstəkləyəcəklərini bildirdilər. Putin də öz növbəsində dini təşkilatlara daha çox maddi dəstək verəcəyəni bildirdi. Putin dünyəvi dövlətin mövcudluğunun zəruri olduğunu, amma din təşkilatları ilə dövlət arasında partnyorluq rejimi yaradılaraq əməkdaşlığın inkişaf etdirilməsinin vacib olduğunu ifadə etdi.

# Keçən Ay

## Məşhur futbolçu imamlıq edir

Bütün dünyada tanınan müsəlman futbolçu Tieri Anri Fransadakı futbol məktəbində təhsil alan uşaqlara namaz qıldırarkən lentə alındı.

Dünya futbol tarixinin ən böyük ulduzlarından olan və yenidən 2 aylıq İngiltərənin Arsenal futbol klubuna geri qayıdan Tieri Anrinin namazda imamlıq etdiyi iddia edilən fotoşəkil dünyanın bütün sosial şəbəkə və forumlarında yayımlanıb.

Fransız ulduz Anrinin yoxsul ailələrə və uşaqlara kömək etdiyi məlumdur.



## T.A.T.U. qrupunun solisti Yulya müsəlman oldu

"Eurovision" musiqi müsabiqəsində 3-cü yer tutan rus pop qrupu T.A.T.U.-nun tanınmış müğənnisi Yulya Volkova İslamı qəbul edib. Rus KİV-lərində çıxan xəbərlərdə məşhur qadın pop qrupu T.A.T.U.-nun üzvü Yulya Volkovanın ailə quraraq müsəlman olduğu açıqlanıb. Xristianlıqda axtardığını tapmadığını və mənəvi sıxıntı keçirdiyini bildirən Volkova "The Things she said" adlı mahnıları ilə tanınmışdı.



## Liam Nison müsəlman olmağı düşünür

Oskar mükafatına layiq görülmüş məşhur aktyor Liam Nison "Taken 2" filminin çəkilişlərinin aparıldığı İstanbulda istirahət edən zaman azandan çox təsirləndiyini bildirərək müsəlman olmağı düşündüyünü açıqladı.

İngilis "The Sun" qəzeti 59 yaşlı Hollivud ulduzunun katolik inancını tərk edərək müsəlman olmaq istədiyini yazır. Qəzetdəki xəbərə əsasən, şimali irlandiyalı aktyor azandan çox təsirləndiyini etiraf edərək: "Azan səsi birinci həftə məni dəli edirdi, ancaq sonra özümü tapmağıma kömək etdi. Bu, ən gözəl şeydir", - dedi.

İstanbuldakı məscidlərdən çox təsirləndiyini qeyd edən Nison bəzi məscidlərin ehtişamı qarşısında heyrətə düşdüyünü və məscidlərin ona müsəlman olmağı düşündürdüyünü bildirdi. Allah və Allahın yoxluğu haqqında kitablar oxuduğunu da söyləyən Liam Nison katolik kimi böyüdüldüyünü, ancaq insanların şüursuzca hər gün "bu dünyada nə edirik?" "bütün bunların nə mənası var?" kimi suallar verdiyini söylədi.





# XOCALI SOYQIRIMININ 20-Cİ İLDÖNÜMÜ

Fevralın 26-da Bakıda Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar ümumxalq yürüşü keçirilib. Prezident İlham Əliyev yürüşdə iştirak edib.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış Xocalı abidəsinə yürüşə 60 mindən çox insan qatılıb. Yürüşün keçdiyi prospekt və küçələr boyu əllərində qanlı qırğının qurbanlarının portretləri, dəhşətli səhnələri əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarını cəzalandırmaq çağırışları, bu soyqırıma beynəlxalq səviyyədə obyektiv siyasi-hüquqi qiymət vermək barədə çağırışlar yazılmış transparantlar, "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın", "Rədd olsun erməni faşizmi!" yazılmış plakatlar tutan gənclər düzülüb.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub. Mərasimdə baş nazir Artur Rəsizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları da iştirak ediblər. İstanbulda Xocalı soyqırımına etiraz edənlər izdihamlı aksiya keçirib



**İstanbulun Taksim Meydanında Xocalı soyqırımının 20-ci ildönümü münasibətilə izdihamlı aksiya başlayıb.**

Aksiyada iştirak edənlər əllərində Azərbaycan və Türkiyə bayraqlarını, Xocalıda qətliam törədənləri və onları dəstəkləyənləri, indiyədək Xocalı soyqırımına lazımi hüquqi qiymət verməyən beynəlxalq təşkilatları və dünyanın nüfüzlu ölkələrini qınayan ifadələrin yer aldığı plakatlar tutur, habelə "Hepimiz azeriyiz, hepimiz xocalıyız" və digər müxtəlif şüarlar səsləndiriblər. Etiraz mitinqində Türkiyədə təhsil alan bütün azərbaycanlı tələbələr, güney azərbaycanlı fəallar, o cümlədən türkiyəli gənclər də iştirak ediblər.

Qeyd edək ki, anım mərasimi haqqında əvvəlcədən Xocalı Qətliamını Anma Könüllüləri Komitəsi tərəfindən "Ermənilərin yalanına səssiz qalma!" şüarı altında elanlar verilib, son bir həftə ərzində Xocalı faciəsi ilə əlaqədar bir çox anım tədbirləri keçirilib.



# CNN APARICISI LARİ KİNQİN ÖLÜM QORXUSU





CNN kanalında yayımlanan "Larry King Live" adlı verilişin aparıcısı Lari Kinq son verilişlərinin birində ölümdən çox qorxduğunu ifadə edib. Məşhur aparıcı öldükdən sonra hər hansı bir yerə gedəcəyini düşünmədiyini (Allahı tənzih edirik), məhz buna görə ölümdən qorxduğunu bildirmiş, səbəbini isə inancının olmaması ilə əlaqələndirmişdir.

Bu sözlərindən də məlum olur ki, bəzi insanlar kimi, Lari Kinqin problemi axirətin varlığına inanmamasıdır. Öldükdə yox olacağını düşünmək onu qorxuya salır.

Bəzi insanların axirətin varlığına şübhə etməsinin mühüm səbəbi maddənin əsl mahiyyətini anlamamasıdır. Maddəni mütləq varlıq zənn edən və maddədən başqa varlıqların olduğunu qəbul etməyən bu insanlar, əslində, çox yanılırlar. İnsanın ancaq maddədən, yəni ətdən-sümükdən ibarət olduğunu düşündükləri üçün çürüyüb sümüyə çevrilmiş insanın yenidən diriləcəyinə inanmırlar. Halbuki, heç bir şübhə yoxdur ki, nə ət, nə də sümüklər deyil, insanı insan edən ruhudur. Sevinən, şəfqət hiss edən, düşünən, qərar verən, musiqidən, mənzərədən zövq alan, gözəl yemək-içməkdən xoşlanan insanın əti-sümüyü deyil, ruhudur. Hər şüurlu insan özünün ruh sahibi olduğunu anlayar, əsl yurdunun dünya deyil, axirət olduğunu qavrayar. Belə ki, ruhun aid olduğu əsl yurd dünya deyil, axirətdir.

Burada ağlı və vicdanı ilə düşünən ruh sahibi olan insan dünyanın ancaq axirətə hazırlıq olduğunu, bu hazırlıq müddəti boyunca hər an imtahan edildiyini və bu imtahandan keçmək üçün daima yaxşı davranmalı olduğunu bilir. Bu dünyanı yaradanın Allah olduğunu və Allahın ona şah damarından daha yaxın olduğunu əsla unutmur. Allahı özünə dost tutur və həyatını Onun rizası üçün yaşayır. Allahın razılığını qazanmağı qarşısına məqsəd qoyaraq yaşayan insan ölümlə qarşılaşdıqda mələklər tərəfindən gözəl qarşılanacaq, Allah tərəfindən əbədi Cənnət həyatı ilə mükafatlandırılacaq.

**Bu dünya həyatı oyun-oyuncaqdan, əyləncədən başqa bir şey deyildir. Axirət yurdu isə, şübhəsiz ki, əbədi həyatdır. Kaş biləydilər! (Ənkəbut surəsi, 64)**

# QƏRARLI DUA QƏDƏRİN AÇARIDIR

Həyatınızda demək olar ki, hər gün qarşılaşdığınız, yaxşı bildiyinizi və yaxşı qavradığınızı düşündüyünüz bəzi mövzular var. Sizə elə gəlir ki, o mövzunu bundan yaxşı qavramaq mümkün deyil. Amma bəzən elə bir söz eşidirsiniz və elə bir hadisəyə şahid olursunuz ki, yaxşı bildiyinizi sandığınız mövzuda sizin üçün əvvəllər heç düşünmədiyiniz yeni qapı, yeni bir üfüq açılır. Bu zaman bütün baxışınız kökündən dəyişir. Çox yaxşı bildiyiniz mövzunu sanki həyatınızda ilk dəfə eşidirmiş kimi yenidən qavrayırsınız.

İnsanın həyatının müxtəlif mərhələlərində daim yeni və daha dərin bir qavrayış qazanacağı mövzulardan biri də duadır. İman gətirən hər insan Allahın bütün dualara cavab verəcəyini bilir və bu həqiqətə bütün mənliyi ilə qəlbən iman gətirir. Ancaq insanın Allaha olan yaxınlığı, imani dərinliyi, qədəri qavraması artdıqca, dua mövzusundakı dünyagörüşü də getdikcə dərinləşir və mükəmməl olur. Quran ayələrini yaxşı bilməsinə baxmayaraq, eyni ayələri təkrar oxuduğunda, Allahın o ayələrlə qəlbinə yerləşdirdiyi məna gücü də daim artır. İmanda qərarlı olan hər insan üçün bu vəziyyət həyatının sonuna qədər davam edir.

Məhz dua mövzusunda insanın ürəyinin açılmasına səbəb olan məlumatlardan biri də duanın qədərin açarı olmasıdır. Bu, Allahın adətullahının bir hissəsidir. Müsəlmanlar eşqlə, şövqlə Allahdan istədikləri zaman bu dua Allahın izni ilə gerçək olur.

Bu, dünyada bir çox insanın bilmədiyi bir sistemdir və Allahın sirridir. Dua edildikdə Allahın qədəri hərəkətə keçir. Xüsusilə də kütləvi şəkildə edilən duanın xüsusi gücü var. Müsəlmanlar kütləvi şəkildə və israrla dua etdikdə, insanların reallaşmayacağını zənn etdikləri şey də

Allahın izni ilə olar. Allah dünyanı bu adətullah ilə yaratmışdır.

Allah insanların qədərin sirrini qavramaları üçün Quranda bir çox nümunə vermişdir: Hz. Yunus (ə.s) balığın qarnında ikən Allahı çox təqdis edərək dua etmiş və Allah onu bu vəziyyətdən qurtarmışdır. Hz. Musa (ə.s) və qövmü dənizlə fironun əsgərləri arasında qaldıqda hz. Musa (ə.s) Allaha tam təslimiyyətlə güvənərək dua etmiş, Allah ona və qövmünə möcüzəvi bir çıxış yolu yaratmışdır. Rəsulullah (s.ə.v) da dostu ilə birlikdə mağarada olarkən Allahın sonsuz gücünə təslim olmuş, Allah onu inkar edənlərin tələsindən qorumuşdur. Eyni şəkildə, hz. Yusuf (ə.s) bir quyuya atıldıqda da, Allah ona sonsuz mərhəməti ilə kömək etmişdir. Hz. İbrahim (ə.s) oda atılmaq üzrə ikən Allah sonsuz lütfünü təcəlli etmiş və odu onun üçün təhlükəsiz etmişdir. Hz. Zəkəriyya (ə.s) isə Allaha dua etmiş və yoldaşı ilə yaşlı olmasına baxmayaraq, Allahın lütfü ilə hz. Yəhyanın (ə.s) doğumu ilə müjdələnmişlər.

Bu ayələrdən bəziləri belədir:

**Yunus da, həqiqətən, göndərilmiş elçilərdəndir. Bir zaman o, yüklü bir gəmiyə tərəf qaçdı. Başqaları ilə birlikdə püşk atdı və uduzanlardan oldu. O, qınanmağa layiq olduqda balıq onu uddu. Əgər o, (Allahı) çox təqdis edənlərdən olmasaydı, balığın qarnında Qiyamət gününə qədər qalardı. Nəhayət, o, xəstə olduğu halda, onu boş bir yerə (sahilə) atdıq. Onun başı üstündə balqabaq tağı bitirdik. Biz onu yüz mindən də daha çox adama (peyğəmbər) göndərdik. Nəhayət, onlar ona iman gətirdilər və Biz də onlara müəyyən vaxtadək gün-güzəran verdik. (Saffat surəsi, 139-148)**

**İki dəstə bir-birini görüncə Musanın səhabələri: "Artıq yaxalandıq!"– dedilər. (Musa) dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mənə doğru yol göstərəcəkdir!" Biz Musaya: "Əsanla dənizə vur!"(– deyə) vəhy etdik. (Dəniz) dərhal yarıldı və hər biri nəhəng bir dağ kimi oldu. O birilərini də ora yaxınlaşdırdıq. Musa və onunla birlikdə olanların hamısını xilas etdik. O birilərini isə suya qərq etdik. Şübhəsiz ki, bu (hekayətdə) bir ibrət vardır. Lakin onların çoxu iman gətirmədi. (Şuəra surəsi, 61-67)**

**Əgər siz ona (Peyğəmbərə) kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu (Məkkədən) iki nəfərdən biri olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna: "Qəm yemə, Allah bizimlədir!" –dediyi zaman (göstərmişdi). O vaxt Allah ona bir arxayınlıq nazil etmiş, onu sizin görmədiyiniz (mələklərdən ibarət) əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir! (Tövbə surəsi, 40)**

**Bir vaxt (onun qardaşları)**

dedilər: "Biz bütöv bir dəstə olmağımıza baxmayaraq, Yusuf və qardaşı atamıza bizdən daha sevimlidir. Aydın görünür ki, atamız aşkar bir yanlışlıq içindədir.
Yusufu ya öldürün, ya da onu (uzaq) bir yerə aparıb atın ki, atanız ancaq sizə məhəbbət bəsləsin və bundan sonra siz əməlisalehlərdən olarsınız". (Yusuf surəsi, 8-9)

(Qardaşları) onu aparıb quyuya atmaq qərarına gəldikdə biz ona belə vəhy etdik: "Sən onlara bu əməlləri barəsində gözləmədikləri bir halda xəbər verəcəksən". (Yusuf surəsi, 15)

(Quyunun yaxınlığına) bir karvan gəldi və suçularını (su dalınca) göndərdilər. O, su qabını (quyuya) saldı və: "Şad xəbər! Burada bir oğlan uşağı vardır!"– dedi. (Karvan əhli) onu satılacaq bir əşya kimi özləri ilə apardılar. Allah isə onların nə etdiklərini bilirdi. Onu dəyərsiz bir qiymətə – bir neçə dirhəmə satdılar. Onlar onu çox qiymətləndirmədilər. (Yusuf surəsi, 19-20)

Onu alan misirli öz arvadına: "Ona yaxşı bax. Ola bilsin ki, bizə fayda versin və ya onu oğulluğa götürək"– dedi. Beləliklə, Yusufu yer üzündə yerləşdirdik və ona yuxuları yozmağı öyrətdik. Allah Öz işini qələbə ilə başa çatdırandır. Lakin insanların çoxu (bunu) bilmir. (Yusuf) yetkin çağına çatdıqda Biz ona hikmət və elm verdik. Biz yaxşı iş görənləri belə mükafatlandırırıq. (Yusuf surəsi, 21-22)

Onlar dedilər: "Tanrılarımızı kim bu kökə salıb? Şübhəsiz ki, o, zalımlardandır!" (Bəziləri:) "İbrahim deyilən bir gəncin onları pislədiyini eşitmişik"– dedilər. (Digərləri də:) "Onu camaatın gözü qabağına gətirin ki, (ona necə cəza verəcəyimizə) şahidlik etsinlər"– dedilər. (Ənbiya surəsi, 59-61)

Belə dedilər: "Əgər bir iş görəcəksinizsə, onu (İbrahimi) yandırın və tanrılarınıza kömək edin!"
Biz də: "Ey atəş! İbrahimə qarşı sərin və zərərsiz ol!" – deyə buyurduq. Onlar (İbrahimə) hiylə qurmaq istədilər, lakin Biz onları daha çox ziyana uğratdıq. (Ənbiya surəsi, 68-70)

Zəkəriyyanı da (yada sal!) Bir zaman o yalvarıb demişdi: "Ey Rəbbim! Məni tənha buraxma. Sən varislərin ən yaxşısısan!" Biz onun duasını qəbul etdik, ona Yəhyanı bəxş etdik və zövcəsini ona (uşaq doğmağa) qadir etdik. Həqiqətən, onlar yaxşı işlər görməyə tələsər, ümid və qorxu ilə Bizə yalvarardılar. Onlar Bizə müti (qullar) idilər. (Ənbiya surəsi, 89-90)

Elə oradaca Zəkəriyya Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Öz tərəfindən mənə pak bir nəsil bəxş et! Şübhəsiz ki, Sən duaları Eşidənsən". O, mehrabda durub namaz



**qılarkən mələklər onu çağırdılar: "Allah səni, Allah tərəfindən olan Kəlməni təsdiq edən, (qövmünün) ağası, nəfsinə hakim və əməlisalehlərdən bir peyğəmbər olacaq Yəhya ilə müjdələyir". O dedi: "Ey Rəbbim! Qocalıq məni haqladığı vaxt, zövcəm də sonsuz ikən mənim necə oğlum ola bilər?" (Allah) dedi: "Allah beləcə istədiyini edər". (Ali-İmran surəsi, 38-40)**

Quranda verilən bu nümunələrə bənzər hadisələrlə qarşılaşan insanlar o ankı şərtlərin dəyişməsinin mümkün olmadığını düşünərək yanılırlar. Ümidsiz və inancsız olduqları üçün Allahın gücünü lazımi kimi təqdir edə bilmir, Allaha səmimiyyət və təslimiyyətlə güvənərək dua edə bilmirlər. Bu, insanların qərarlı duanın sirrini bilməmələrindən və duanın qədərin açarı olduğundan xəbərsiz olmalarından qaynaqlanır.

Halbuki Allah diləsə, insanların qeyri-mümkün dedikləri şeylər dərhal reallaşar. Keçmişdə Allah elçilərinə, saleh möminlərə köməyini necə çatdırırdısa, qeyri-mümkün sanılan vəziyyətlər gerçək olurdusa, bu vəziyyət hal-hazırda da bütün insanlar üçün etibarlıdır.

Hər insanın həyatında Allahdan çox istədiyi, amma reallaşması çox çətin görünən vəziyyətlər ola bilər. Çətin vəziyyətlər insanı əsla yanıltmamalıdır. Duanın qədərin açarı olduğunu və dua edildiyində Allahın qədərinin hərəkət etməyə başladığını əsla unutmamaq və Allahdan tam inanaraq istəmək çox əhəmiyyətlidir. Belə ki, Rəbbimiz hz. Musanı (ə.s) xilas etdisə, Peyğəmbərimizə (s.ə.v), hz. Yunusa (ə.s), hz. İbrahimə (ə.s), hz. Zəkəriyyaya (ə.s), hz. İbrahimə (ə.s) kömək etdisə, onlar kimi bütün səmimi müsəlmanların da dualarına da mütləq rəhməti ilə qarşılıq verəcək.

Ancaq, əlbəttə ki, bir şeyin reallaşmasını çox istəyən mömin də eynilə hz. Yunus (ə.s) kimi Allahı çox zikr edər, Peyğəmbərimiz hz. Muhəmməd (s.ə.v) kimi, hz. Musa (ə.s) kimi ən çətin şəraitdə də ümidsizliyə qapılmayaraq: "Əlbəttə, Allah bizimlədir",- deyər və heç şübhə etmədən Allahın gücünə dərin imanla iman gətirib güvənər. Məhz o zaman Allahın duadakı sirri reallaşar və Allahın izni ilə qədər bu istiqamətdə hərəkət etməyə başlayar.

Böyük İslam alimi İmam Rəbbani bir sözündə möminlərə əhəmiyyətli və qəti həqiqəti belə xatırladır:

"Bir şeyi istəmək, ona nail olmaq deməkdir; çünki Allah-Təala qəbul etməyəcəyi duanı quluna etdirməz". (İmam Rəbbani)





# KOSMOSDAKI



## KİÇİK FƏRQLƏR BÖYÜK DƏYİŞİKLİKLƏR

Bir ulduz nə qədər böyükdürsə, o qədər sürətlə də yanır. Planetimizi istiliklə təmin edən, bizə isə qida və həyat verən Günəş hal-hazırki kütləsindən on qat daha böyük olsaydı, meydana gəlməsindən on milyard il sonra deyil, on milyon il sonra sönərdi və biz indi burada ola bilməzdik. Əgər Günəşə yaxın olan orbitdə olsaydıq, Yer kürəsindəki hər şey buxarlanardı. Daha uzaq orbitdə olsaydıq, hər yer buzla örtülərdi.

Günəş Yer kürəsini həyatla təmin etmək üçün ən uyğun böyüklükdə və ən uyğun uzaqlıqdadır.

Dünya Günəşdən indikindən yalnız 1 % uzaq və ya ona 5 % yaxın olsaydı, bu planetdə həyat olmazdı. Kainatdakı böyük rəqəmlər nəzərə alınsa, bu faizlər, əslində, olduqca kiçik məsafə vahidləridir. Bunu anlamaq üçün Veneranı nümunə göstərə bilərik. Veneraya Günəşin istiliyi bizdən iki dəqiqə tez çatır. Böyüklük və quruluş etibarilə Venera Yerə bənzəyir, lakin orbit üzrə məsafədəki kiçik fərq bu iki planet arasındakı həyat fərqini meydana gətirir. Bu iki dəqiqəlik fərqin nəticəsində Veneranın səthində temperatur 470°C-yə çatır. Bu temperatur gülləni belə əridəcək qədər yüksəkdir. Səthindəki atmosfer təzyiqi isə Yerin atmosfer təzyiqinin 90 qatıdır. Belə təzyiq altında insan yaşaya bilməz. (Hemen Her Şeyin Kısa Tarihi, Bill Bryson, Boyner Yayınları, 2003, səh. 216-217)

Əlbəttə ki, Allah bütün planetlərdə həyat yarada bilərdi. Ancaq həyatı yalnız Dünyada var etmişdir. Bunun üçün saysız faktoru həssas tarazlıqlardan asılı etmişdir. Bunlardan yalnız birinin tarazlığının pozulması Dünyadakı həyatın sona çatması üçün kifayətdir. Dünya üzərindəki həyat, onun sahib olduğu qüsursuz tarazlıq və bunların asılı olduğu səbəblər Allahın idarəsi altındadır. Yaradılan hər şey kimi üzərində yaşadığımız Dünya da Allahın qüsursuz sənətidir.

**Dan yerini də O sökür. O, gecəni dinclik, günəşi və ayı isə (vaxt üçün) hesablama (ölçüsü) etdi. Bu, Qüdrətli və Bilən Allahın müəyyən etdiyi hökmdür. (Ənam surəsi, 96)**





## İlham Əliyev:

"Azərbaycan İslam dünyasının tərkib hissəsi olmaqdan hər zaman qürur duymuşdur. İslam sivilizasiyası əsrlər boyu sülh və tolerantlığı, bəşəri ideyaları, humanizm və mərhəməti təşviq etmiş və milyonlarla insanı bu ali dəyərlər ətrafında birləşdirmişdir. Uzun illərdir ki, Azərbaycanda İslam mədəniyyəti və İslam dini ilə yanaşı bütün başqa dinlərə dərin hörmət, dözümlülük, müxtəlif dinlərə mənsub olan insanların əməkdaşlıq və sülh şəraitində yaşayışı əsas həyat tərzinə çevrilib".

1 mart 2012-ci il



# HEÇ KİMƏ VƏ HEÇ NƏYƏ FAYDASI OLMAYAN, BOŞ VƏ MƏNASIZ BİR HİSS:

# KƏDƏRLƏNMƏK



Kədər Allahın Quran ayələri ilə qadağan etdiyi rəftardır. Allaha iman gətirən, Allahın sonsuz gözəl əxlaqını, sonsuz gücünü bilən bir insan üçün kədərlənəcək heç nə yoxdur. Allah o insanın qədərində nə yaradırsa yaratsın, bu, o insan üçün ən dəyərli, ən hikmətli, ən gözəl və ən xeyirli hadisələrdir.

Allah sonsuz ədalətlidir. Allah qullarını çox sevəndir. Allah mömin qulları üçün hər şeyi xeyirlə yaradandır. Allah ağrını-acını, çətinliyi də yaradar, ancaq bunları mömin qullarının daha gözəl əxlaqlı olmalarına və axirətdə daha gözəl qarşılıq görmələrinə səbəb olmaq üçün yaradar. Bu səbəbdən, mömin yoxsul olsa, əzab çəksə, xəstə olsa, tək qalsa, hər şeydən məhrum olsa belə (Allahı tənzih edirik, Allah sonsuz ədalət sahibidir), bunların heç birini kədər vasitəsi kimi görməz. İnsan maddi-mənəvi baxımdan, həqiqətən, çox çətin vəziyyətlərlə qarşılaşa bilər. Ancaq bu şərtlərdə də insan Allahın sevgisindən əmin olmalı, Allahın rəhmətini ümid etmənin rahatlığını, sevincini yaşamalıdır. Çətinliklər qarşısında ümidsizliyə qapılmamalı (Allahı tənzih edirik), əzabı və çətin hadisələri dünya həyatının kədəri kimi görməməlidir.

İnsanlara kiçik yaşlarından etibarən öyrədilən bəzi inanclar var. Bunlar cəmiyyətdə hakim olan anlayışın bir hissəsidir. Bir insanın nədən qorxması, nəyə sevinməsi, nədən küsməsi, nəyə kədərlənməsi kimi bütün məlumatlar bu yaşlarda insanlara aşılanır. İnsanlar xoşlarına gəlməyən vəziyyətlə qarşılaşdıqlarında dərhal kədərlənirlər. Bu da onlara illər boyu verilən təlqinlərin nəticəsidir.

Nəfs insanı ümidsiz və çarəsiz olduğuna inandırır. Buna bir də cəmiyyətdən alınan təlqinlər əlavə olunduqda, iradə, ağıl və vicdanından istifadə etməyən bir çox insan asanlıqla kədərə təslim olur. Kədərə tam təslim olan insana kənardan müdaxilə etmək çox çətindir. Belə insanlar kədəri bir həyat forması kimi mənimsəyirlər. Allahın gücünü, ədalətini, mərhəmətini, sevgisini, dualara cavab verən və hər şeyi xeyirlə yaradan olduğunu düşünmək istəmirlər. Bunun yerinə daim (Allahı tənzih edirik) nə qədər zərər çəkdiklərini düşünüb, özlərini daha da kədərləndirirlər.



İnsan, həqiqətən, çox əzab çəkə bilər. Bunu kənardan baxan insanlar tam olaraq anlamaya bilərlər. Bu vəziyyətin verdiyi fiziki və ya mənəvi narahatlığın ölçülərini təxmin etməyə bilərlər. Amma nə olursa olsun, heç bir mövzuda kədərlənmək çıxış yolu deyil. Kədərlənmək, hər şeydən əvvəl, Allahın haram etdiyi bir davranışdır. Mömininin yalnız bu məlumatı bilməsi bu rəftardan dərhal uzaqlaşıb çəkinməsi üçün kifayətdir.

Bununla bərabər, insan öz-özünə bu sualları mütləq verməlidir:

- Kədərlənmək mənim vəziyyətimi dəyişirmi?

- Kədərləndikdə mövzular həll olurmu?

- Kədər mənə hər hansı bir fayda verirmi?

- Kədərim həyatıma müsbət təsir edirmi?



Bu sualların heç birinin cavabında kədəri məqbul göstərən dəlil yoxdur. Kədərin insana heç bir faydası yoxdur. Kədərlənmək insanın vəziyyətinin dəyişməsinə heç bir şəkildə təsir etmir. Kədərləndikdə çətinliklərindən xilas olmaq da mümkün deyil. Kədərin rahatlıq verən bir tərəfi yoxdur və kədər heç vaxt insana müsbət təsir etmir.

## Kədər insana nə edir?

- Kədər insana fiziki və mənəvi cəhətdən zərər verir.

- İnsanın doğru düşünməsinə, hadisələrə düzgün yanaşmasına, çıxış yollarını görə bilməsinə tamamilə mane olur.

- İnsanın bütün gücünü alır. Belə bir insan fiziki və mənəvi baxımdan zəifləyir. Mübarizə aparmağa, səy göstərməyə gücü qalmır.

- Kədər insanı sürətlə yaşlandırır.

- İnsanı xəstə edir. Belə bir şəxs ard-arda yeni xəstəliklərlə qarşılaşır. Bədən müqavimətini itirir, hər cür narahatlığa açıq hala gəlir.

- Daim bədbəxtdir. Gözəlliklər, yaxşılıqlar onu xoşbəxt edə bilmir.

- Ətrafındakı nemətləri görə bilmir.

- Kədəri sevməyə başlayır. Daim əzablarını, çətinliklərini düşünüb daha da kədərlənmək istəyir.

- Kədərdən xilas olma, kədərlə mübarizə aparma əzmini itirir. Hər fürsətdə özünü kədərə təslim etməyi həyat formasına çevirir.

- Təkliyi sevməyə başlayır. Tək qalıb kədərlərini düşünmək, başında qurduğu ssenarilərə kədərlənmək, ağlamaq ona ətrafındakı bir çox nemətdən daha cazibədar gəlir.

- Həyat sevincini və həyat əzmini itirir.

Burada qısaca yekunlaşdırılan bir neçə şey belə kədərin insana heç bir fayda vermədiyini, əksinə olaraq, həm fiziki, həm də mənəvi baxımdan insana böyük zərər verdiyini açıq şəkildə ortaya qoyur. Kədər çox böyük vaxt itkisidir. Faydalı bir tərəfi yoxdur. Bu səbəbdən, insanın özünü kədərə təslim etməsi çox böyük ağılsızlıqdır. İnsan çətinliklərdən xilas olmağı hədəfləməlidir. Kədər isə xilas olmaq bir tərəfə, insana yeni çətinliklər yaradan başqa bir çətinlik formasıdır.

Hər insanın kədər mövzusundakı bu həqiqəti bilməsi çox əhəmiyyətlidir. Ağılla düşünən bir insanın özünə heç bir faydası olmayan, yalnız zərər verən, çətinliyə salan bir sistemi gözəl görüb qəbul etməsi mümkün deyil. Ənənələr, köhnə vərdişlər, cəmiyyətdəki ümumi reaksiyalar kədərlənməyi nə qədər məqbul göstərirsə göstərsin, ağıllı insan bu təlqinlərin təsirindən çıxmalıdır.

Bir insana bədənini zəhərləyən bir maddə verilsə və: “Götür, bunu iç”, - deyilsə, o da: “Niyə içim, bu çox təhlükəlidir, içmirəm”, - deyər və bu maddədən uzaqlaşar. Əksini etməyin böyük bir ağılsızlıq olduğunu görər. Kədərin də bundan heç bir fərqi yoxdur. Belə ki, insan zəhərli maddənin bədəninə, ağlına, həyatına verəcəyi zərəri görüb bundan çəkinirsə, eyni şəkildə, kədərin də təsirlərini görüb, ondan zəhərdən çəkinən kimi çəkinməlidir.



Allah kədərin zərərlərini insanlara xüsusi olaraq göstərir. Hər insan başqasının izahına ehtiyac olmadan öz həyatında kədərin zərərli təsirlərini açıq şəkildə görür. Bu da Allahın rəhmətinin bir təcəllisidir. Allah kədəri haram etdiyini Quran ayələri ilə insanlara bildirmiş, insanların ağıl və vicdanla bu əxlaq pozuntusunun fərqinə varıb çəkinmələri üçün onlara bir yol göstərmişdir.

İnsanın sevinəcəyi, xoşbəxt olacağı o qədər çox şey var ki, dünyada bunları görməməzlikdən gəlmək mömin üçün mümkün deyil. Qullarını çox sevən, onların bütün dualarına cavab verən, sonsuz mərhəmət sahibi, sonsuz ədalətli, sonsuz ağıllı, sonsuz yaratma gücünə sahib və sonsuz qüdrətli bir Rəbbimiz olduğunu bilmək və Allaha qəlbən iman gətirmək dünyadakı ən böyük nemətlərdən biridir. Allah qulları üçün saysız nemətlər yaratmışdır. Allah gözəl xasiyyətli, səmimi qullarını Öz razılığı ilə sonsuz Cənnət həyatı və sonsuz nemətlərlə müjdələmişdir.



İnsan dünyanın ən çətin şəraitində olsa belə, (bu çətinliklər də Allahın rəhmətinin bir təcəllisi və xeyirlə yaradılan imtahan səbəbləridir) bu nemətlərin sevinci insanın kədərlənməyib xoşbəxt olması və ümidvar olması üçün kifayətdir.

**Səba (tayfasının) yurdunda (qüdrətimizə dəlalət edən) bir nişanə var idi. (Orada) sağdan və soldan (dağla əhatə olunmuş) iki bağça var idi. (Səba əhlinə belə buyurulmuşdu:) “Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. (Yurdunuz) gözəl bir diyar, (Rəbbiniz də) bağışlayan bir Rəbbdir!” (Səba surəsi, 15)**



**Həqiqətən, (insanı) yoxdan var edən və (öldükdən sonra) təkrar diriltdən Odur! Bağışlayan da, Sevən də Odur! Ərşin sahibidir, Şan-şöhrətlidir! İstədiyini edəndir. (Buruc surəsi, 13-16)**



# Bir ayə, Bir açıqlama

**Onlar hələ də cahiliyyə (dövrünün) hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər? (Maidə surəsi, 50)**

Ayədə yeganə hakimin Allah olduğu xəbər verilir. İman gətirənlər üçün yeganə yol göstərici Allahın elçiləri və Allahın sözü olan Qurandır. Quranda inananların: **"O, hər şeyin Rəbbi ikən, mən Allahdan başqa bir Rəbmi axtarım? (Ənam surəsi, 164)"** - dedikləri bildirilir.

İman gətirənlər həmişə Allahın əmrlərinə uyğun hərəkət edir, Quranda qadağan edilmiş hər düşüncə və rəftardan çəkinirlər. Hər hansı bir işi görərkən və ya bir qərar verərkən o mövzu haqqında Allahın nə əmr etdiyini düşünür, dərhal Quran ayələrinə və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə müraciət edirlər. Öz həvəs və istəklərinə, yaşadıqları cəmiyyətin və ya atalarının adət-ənənəsinə görə deyil, yalnız Allahın əmrlərinə görə hərəkət edərlər.

Allahı yeganə hakim kimi qəbul etməyən, Allahın hökmlərinə qarşı çıxan və ya Onun əmrlərindən başqa hökmlər qoyan insanlar doğru yoldan azmışdır (Allahı tənzih edirik). Bu insanlar cəmiyyət tərəfindən qəbul edilən batil qaydaları (Allahı tənzih edirik) Allahın hökmlərindən üstün hesab edirlər. Vicdanları qəbul etsə də, qürurlarından ən gözəl və ən doğru olan hökmü qəbul etmirlər. Bəzi insanların səhv dünyagörüşləri Allahın dinini qəbul etmələrinə və iman gətirmələrinə mane olur. Halbuki Quran əxlaqına uyğun olmayan hər düşüncə və hər rəftar yanlışdır. İnsanların axirətdə Allahın hökmləri ilə sorğuya çəkiləcəkləri Quranda bildirilmişdir.

İman gətirən bir insan üçün bütün insanların hansı inanca sahib olduqları, dinlərini necə tətbiq etdikləri qətiyyən əhəmiyyətli deyil. Əhəmiyyətli olan Allahın Quranda insanlara bildirdiyi əmrlər və Peyğəmbərimizin (s.ə.v) tətbiqidir. Quran endirildiyi dövrdə Allah insanların bir çoxunun batil inanclarını ortadan qaldırmışdır. İnsanların o dövrdə söylədikləri sözlər, atdıqları böhtanlar və düşmən rəftarları Peyğəmbərimizin (s.ə.v) din əxlaqını yaşamasına mane olmamışdır. Hal-hazırda da iman gətirənlər Allaha, Quran əxlaqına və Peyğəmbərimizin (s.ə.v) sünnəsinə bağlanmalı, Allahın Quranda bildirdiklərindən başqa yol axtarmamalıdırlar.



# Onsuzda gözəl əxlaqlı ola bilərsiniz, amma gücünüz çatırsa, ikiqat gözəl əxlaqlı olun

Bəzi insanlar fitrət olaraq, ya da uşaqlıqdan aldığı tərbiyəyə görə daha müsbət əxlaqa sahib olurlar. Bəzi insanlar da onların əksinə, daha sərt xasiyyətə malik olurlar.

Daha mülayim əxlaqa sahib olan şəxslərə nisbətən digərlərinin özlərini yetişdirməsi daha çox səy, daha çox səmimiyyət və iradə tələb edir. Ancaq nəticədə bir insanın ürəyində kifayət qədər Allah eşqi, iman coşğusu və iradə varsa, bu şəxslər də digərləri qədər gözəl əxlaqa sahib ola bilərlər. Əlbəttə ki, fitrət olaraq daha həlim xasiyyətli, daha mülayim olan insanlara nisbətən daha sərt və ya mənfi xüsusiyyətlərə sahib olan insanlar göstərdikləri səmimi səy nəticəsində Allah qatında daha çox əcr qazana bilərlər (doğrusunu Allah bilir).

Belə ki, insan daha çox səy göstərib özünü çox gözəl yetişdirə bilirsə, eyni şəkildə, çox gözəl əxlaqlı bir insanın sahib olduğundan daha çox, daha dərin əxlaqa sahib olmaq imkanı var. İnsanın qarşısında bu mövzuda bir maneə yoxdur. Allah bir ayədə insanlara: **"Allahdan bacardığınız qədər qorxun... (Təğabun surəsi, 16)"**- buyurmuşdur. Bu səbəbdən, insan gücünün çatdığının ən çoxunu etməklə və ən yaxşısını əldə etməyə çalışmaqla məsuldur. Dərin Allah qorxusunu, Allah eşqini, Allah sevgisini, iman həyəcanını ürəyində hiss edən bir insan imanından aldığı güclə (Allahın izni ilə) əxlaqını daha mükəmməl səviyyəyə çatdıra bilər.

Allahın Quranda insana gücünün çatdığının ən çoxunu etməyi əmr etməsi mömin üçün çox əhəmiyyətlidir. İman gətirən bir insan Allahın bu əmrini bilərək: "Onsuz da ürəyimdə heç bir pislik yoxdur, həmişə, hər mövzuda, hamıya qarşı gözəl davranıram. Hər cür yaxşılığı və gözəlliyi tətbiq edirəm. Vicdanımın səsinə qulaq asıram. Quran əxlaqına müxalif



davranmıram”,- deyərək, əxlaqını müəyyən bir səviyyədə məhdudlaşdırmamalıdır. Mütləq yaxşının daha yaxşısı, gözəlin daha gözəli, müsbət rəftarın daha müsbəti olduğunu unutmamalıdır. Sevginin, hörmətin, şəfqətin, xoş münasibətin, mülayimliyin daha üst səviyyələrinin ola biləcəyini düşünərək, daha yaxşısını tapıb tətbiq etmək üçün özünü məcbur etməlidir. Allahın Quranda bildirdiyi kimi, əgər insan Allahdan bacardığı qədər qorxsa, Allah o insana daha gözəl əxlaqa necə yiyələnə biləcəyini ilham edəcəkdir.

İnsan bu səyinin nəticəsində mövcud olandan daha üstün bir əxlaq anlayışı əldə etdiyində də yenə də bunu kafi görməməlidir. Bundan daha üstün xüsusiyyətlərə yiyələnə biləcəyinə inanaraq, Allahdan çox qorxaraq əxlaqını daha da mükəmməlləşdirmək üçün var gücü ilə səy göstərməlidir.

Səmimi iman gətirən bir insan üçün bu səy həyatının sonuna qədər davam edər. Mömin Allahın ona lütf etdiyi ömrünün hər gününü, hər saatını və hər anını daim: “Necə daha yaxşı ola bilərəm?”- deyə düşünərək, Allaha sığınıb daha yaxşısını əldə etməyə çalışaraq keçirməlidir. Allaha olan sevgisini, səmimiyyətini, Allaha qulluq etmə eşqini, şövqünü, iradəsini daim daha da artırmaq üçün yollar axtarmalı, ən mükəmmələ çatdığına inansa belə, əsla özünü kafi görməməlidir.



# QURANİ-KƏRİM ASAN OLANA YÖNLƏNDİRİR

Allah bütün insanlara doğru olanı tapmaq, dəqiq məlumata və gözəl əxlaqa yiyələnmək üçün müqəddəs kitabları və onları çatdıran və açıqlayan peyğəmbərlər göndərmişdir. Allahın insanlara yol göstərici olaraq endirdiyi son kitab isə Qurandır.

## Quran qiyamətə qədər qüvvədədir

Quranın qiyamətə qədər qüvvədə olduğunu və qorunacağını bilən möminlər bunun rahatlığını və etibarını yaşayırlar. Quran insanın hər hökmündən, hər əmrindən qəti əmin olduğu, vicdanının isə azad və rahat şəkildə tabe olduğu kitabdır. İnsanların bu cür yol göstəricisinin olması Allah qatından verilmiş böyük nemət və rəhmətdir. Allah Quranın möminlər üçün əhəmiyyətini bir ayəsində belə xəbər verir:

**...Biz Kitabı sənə hər şey üçün bir izah, müsəlmanlara da doğru yolu göstərən rəhbər, mərhəmət və müjdə olaraq nazil etdik. (Nəhl surəsi, 89)**

Quranı özünə rəhbər edən bir insan yaradılış məqsədini və sirlərini, Allahın razılığını, rəhmətini və Cənnətini qazanmağın yolunu, Cənnət və Cəhənnəmdə həyatın necə olacağını, ən gözəl əxlaqı və bir çox məlumatı ən doğru və ətraflı şəkildə öyrənir. Quranda hər şey açıqlanmışdır.

Bir insanın din haqqında soruşa biləcəyi hər sual Quranda cavablandırılmışdır. Allah bir ayəsində belə buyurur:

**Onlar sənin yanına gəlib elə bir məsəl çəkməzlər ki, (ona cavab olaraq) Biz sənə haqqı və ən yaxşı izahını verməyək. (Furqan surəsi, 33)**

Quran ayələri ilə din haqqında hər şeyin məlumatı verilmişdir. Bununla bərabər, Allah Quranın endirilmə səbəblərindən birinin də insanların ixtilafa düşdükləri mövzuların açıqlanması olduğunu bildirmişdir. Ayədə belə buyurulur:

**Biz Kitabı sənə yalnız ona görə nazil etdik ki, onlara ixtilafda olduqları şeyləri bəyan edəsən və (bu) mömin camaat üçün doğru yol göstərən rəhbər və mərhəmət olsun. (Nəhl surəsi, 64)**

Ayədən göründüyü kimi, Quran Allaha iman gətirən saleh qullar üçün böyük rəhmət və hər mövzuda yol göstəricidir. Allah Quran vasitəsilə bizə bilmədiyimiz, yaradılış sirri olan mövzuları bildirir və bütün insanları bu məlumatlarla xəbərdar edir.

Məsələn, Quranda şeytanın varlığı, xüsusiyyətləri, məqsədi, insanlara hansı istiqamətlərdən yaxınlaşa biləcəyi, hansı üsullardan istifadə edə biləcəyi, şeytanın hiyləgər xarakteri və bir çox məlumat verilir. Bununla yanaşı, insanın şeytanın təsirindən necə xilas ola biləcəyinin yolu da göstərilir. Quranda şeytan haqqında izah edilənlər möminlər üçün böyük asanlıqdır. Çünki bunun sayəsində şeytan kimi hiyləgər və onlara müxtəlif gizli yollarla yaxınlaşan düşmənə qarşı insanlar daim ayıq olurlar.



## Quran hər kəsin anlaya biləcəyi dildədir

Allah insanların daha asan qavrayıb başa düşmələri üçün Quranda ayələri müfəssəl izah etmişdir. Allah Quranın bu üslubunu ayələrində belə bildirir:

**Həqiqətən, Biz onlara elmlə müfəssəl izah etdiyimiz, inanan bir qövm üçün hidayət və mərhəmət olan bir Kitab gətirdik. (Əraf surəsi, 52)**

**...Bax gör! Biz ayələri belə izah edirik ki, bəlkə başa düşsünlər. (Ənam surəsi, 65)**

Allahın bu hökmlərinə baxmayaraq, insanların böyük səhvlərindən biri Quranın hər insan tərəfindən aydın olmadığını düşünmələridir. Bir çox insan düşünür ki, Quranı oxumaq, başa düşmək və ayələrin hökmünə uymaq üçün uzun illər sürən təhsilə ehtiyac var. Bu mühakiməni yürüdənlərin böyük hissəsi Quranı oxumamışdır. Oxusa belə, anlamağı sınamamış, əvvəlcədən ayələri anlamayacağına özünü inandırmışdır. Halbuki Quran Allahın ayələrində bildirdiyi kimi, müfəssəldir. Buna görə də, səmimi olaraq Quranı oxuyan hər insan onu asanlıqla anlaya bilər. Quranın dilinin çox aydın olması insanlar üçün böyük nemətdir. Allah insanların Quranı oxuyub rahat anlamaları üçün asanlaşdırdığını bir ayəsində belə bildirir:

**Biz onu (Quranı) sənin dilinlə asanlaşdırdıq ki, onunla müttəqilərə müjdə verəsən və inadkarlara xəbərdarlıq edəsən. (Məryəm surəsi, 97)**

Allah rəhmətinin və mərhəmətinin nəticəsi olaraq insanların anlaması üçün dinini bu qədər asanlaşdırmışkən, insan da Allahın bildirdikləri üzərində düşünməli və onları tətbiq etməlidir. Bir çox insan belə asan bir yol varkən, çətin olanı seçir. Özlərinə səhv yol axtarır, həyatlarının məqsədini öyrənə biləcəkləri, əbədi qurtuluşlarına səbəb olan Qurandan uzaq yaşayırlar.

## Quran yeganə hidayət rəhbəridir

Qəlbən Allaha bağlanan möminlər Quranın hökm və hikmət sahibi olan Rəbbimizdən göndərilmiş bir hidayət rəhbəri olduğunu bilirlər. Allah Quranın **"möminlər üçün şəfa və mərhəmət (İsra surəsi, 82)"** olduğunu bildirmişdir.

Quran ayələri ilə insanda meydana gələn sual və şübhələr tamamilə ortadan qalxır və insan özü üçün ən uyğun olan əxlaqı və həyat formasını öyrənmiş olur. Bu səbəblə, Quran ona uyanlara mənəvi şəfa verir.

Bu çox əhəmiyyətlidir: Allah insanları İslam fitrətini yaşadıqları zaman xoşbəxt, dinc, şüurlu və fiziki cəhətdən sağlam olacaqları şəkildə yaratmışdır. Allahın ayəsində bildirdiyi kimi, Quran insanları qaranlıqdan nura çıxaran yeganə haqq kitabdır.

**(Bu,) insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura – Qüdrətli, Tərifəlayiq (Allahın) yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır. (İbrahim surəsi, 1)**

Allahın kitabının nuruna uyanlar, yoluna tabe olanlar (Allahın diləməsilə) dünya və axirətdə daim asanlıqla qarşılaşar və gözəl həyat yaşayarlar.

# Azad olmaq düşüncəsiz olmaq demək deyil...

İnsanlar həyatlarının hər anında azad və rahat olmaq istəyirlər. Heç bir nizam-intizama, məcburiyyətə və ya məhdudiyyətə tabe olmadan istədiyi zaman istədiyi şeyi etmək istəyirlər. Ürəyi istəyəndə yatmaq, ürəyi istəyəndə durmaq, istəyəndə işlərini görüb, istəməyəndə təxirə salmaq, danışmaq istəməyəndə danışmamaq, düşünmək istəməyəndə düşünməmək, iradə göstərmək istəməyəndə göstərməmək və s. bunun kimi mövzularda istədiyi hərəkəti edə bilmək...

Halbuki azadlıq da müəyyən məhdudiyyətlər daxilində gözəldir. Azadlıq düşüncəsiz, məsuliyyətsiz, laqeyd olmaq demək deyil. Eyni zamanda, birlikdə yaşadığı insanlar üçün fədakarlıq etməsi, başqalarını düşünərək hərəkət etməsi, üstünlüyü ehtiyac olan mövzulara verməsi bu insanın azadlığının məhdudlaşdırılması demək deyil. İnsanın gözəl əxlaq göstərməsi onu məhdudlaşdıran deyil, onu gözəlləşdirən, ucaldan xüsusiyyətdir.

Yanında biri yatarkən: "Azadlığımı məhdudlaşdıra bilmərəm, əsas mənim istəyimdir, mənim rahatlığımdır", - deyərək, qışqırıb-bağıraraq danışan, musiqinin, ya da televizorun səsini sonuna qədər açan birini düşünün. Ya da aşağı mərtəbədəki qonşularını heç düşünmədən gecə yarısında evdə səs-küy salan bəzilərini...

Heç kim bu cür düşüncəsiz insanlarla söhbət etmək, onların ətrafındakılara verdiyi narahatlıqlarla qarşılaşmaq istəməz. İnsanlardakı bu davranış pozuntusunu aradan qaldırmağın bir yolu var, o da Quran əxlaqına tabe olmaqdır. Quran həm insanlara axtardıqları azadlığı mükəmməl şəkildə yaşadır, həm də bu azadlıq heç kimi narahat etmir. Bu səbəbdən, mömin Allahın təyin etdiyi əxlaq sərhədləri daxilində azad yaşaya bilmə rahatlığına malikdir.

Müsəlman olmaq vicdanlı olmaq deməkdir. İradəli olmaq, ağıllı olmaq, nəfsi



məcbur etmək, nəfsə qalib gəlmək deməkdir. Mömin dünyanın ən azad, ən rahat insanı olar, həyatı boyu, yaşadığı hər an seçimlərini vicdanına görə təyin edər. Ürəyi istəyəndə yatıb, ürəyi istəyəndə yemək yeyib, ürəyi istəyəndə istirahət edib, ürəyi istəyəndə işləmək kimi bir əxlaq tərzi yoxdur. Məqsədi Allahın razılığının ən çoxunu qazanmaqdır. Hər an ağlı və vicdanı ilə ətrafında olan hadisələri dəyərləndirər və ən xeyirli, ən hikmətli, ən faydalı və ən vacib mövzuya yönələr.

Bu səbəbdən, lazım olsa, başqasının ehtiyacını özününkündən üstün tutmaqla bəlkə öz azadlığından məhrum olar, amma insanı xoşbəxt edən azadlıq forması da məhz budur. Yoxsa başqasını narahat etdiyini bilərək, öz istəklərini əldə etdiyi zaman xoşbəxt ola bilməz. Ancaq vicdanına uyğun hərəkət etsə, həqiqətən, azad olar və ancaq bu onu xoşbəxt edər.

Çünki azadlıq, zənn edildiyi kimi, insanın yalnız fiziki olaraq azad olması demək deyil. Əsas mənəvi mənada azad olmaqdır. Əsl azadlıq Allahın insanın ruhuna və ürəyinə hiss etdirdiyi genişlik, rahatlıq, güvən və dinclik duyğularının hamısıdır. Bu da insanın imanı, təqvası, təvəkkülü və təslimiyyəti ilə birbaşa əlaqəlidir.

Bu səbəbdən, əsl azadlıq və xoşbəxtlik insanın nə istəsə, onu etməsində deyil, Allahın razılığına uyğun olan əxlaqı yaşamasındadır. Bu əxlaqın qazandıracağı mənəvi azadlıq insanın düşünmədən yaşadığı sərhədsiz fiziki azadlıq ilə əsla müqayisə edilməyəcək dərəcədə böyükdür. Allah bu neməti yalnız möminlərə lütf etmişdir.

Allah Quranda əsl xoşbəxtliyin yolunu belə bildirmişdir:

**... Bilin ki, qəlblər ancaq Allahı zikr etməklə rahatlıq tapır. (Rəd surəsi, 28)**



# TEXNOLOGİYAYA İLHAM MƏNBƏYİ OLAN KƏRTƏNKƏLƏ AYAQLARI

**Kərtənkələlərin yerin cazibə qüvvəsinə baxmayaraq, tavanda və divarda yeriməsi texnologiyaya necə ilham vermişdir?**

**Kərtənkələlərin suda yeriməsini təmin edən fiziki qanun nədir və necə fəaliyyət göstərir?**

Allahın yaratdığı mükəmməl sistemlərdən biri də canlı ayaqlarının qeyri-adi quruluşudur. Hər canlı növünün məhz ehtiyacına uyğun ayaqları var. Qartalın güclü pəncəli, ördəyin pərdəli, insanın bədəninin bütün ağırlığını daşıyan mükəmməl ayaqları var. Fərqli xüsusiyyətlərə malik ayaqlardan biri də kərtənkələnin ayaqlarıdır. Çünki kərtənkələ



ayaqları qızğın qumların və ya suyun üzərində yerimək üçün əlverişli olduğu kimi, şüşənin üstündə və ya tavanda yeriməyə də uyğundur. Kərtənkələlərin elm adamlarına ilham verən ayaqlarının qüsursuz quruluşu bizə onları mükəmməl xüsusiyyətləri ilə birlikdə yaradan Rəbbimizin üstün yaratma sənətini göstərir. Ayədə belə buyurulur:

**Allah hər canlını sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir! (Nur surəsi, 45)**

## Yerin cazibə qüvvəsinə qarşı divarda və tavanda yeriyən kərtənkələ

Kərtənkələlərin divarlara və tavanlara dırmanarkən yerin cazibə qüvvəsinə qarşı müqavimət göstərən milyonlarla mikroskopik tükcükdən təşkil edilmiş ayaqları bu canlıların tavana yapışmasına kömək edir. Elm adamları kərtənkələnin bu xüsusiyyətlərini təqlid edərək müxtəlif sahələrdə istifadə etmək üçün plasterlər istehsal ediblər.

Kərtənkələnin divara və tavana dırmanmasını təmin edən dabanlarının altındakı tükcüklərdən ilham alan tədqiqatçılar icad etdikləri materialla çox güclü yapışqan istehsal edə biliblər. ABŞ-da 1 qallonluq (4.5 litr) süd şüşələrində istifadə edilən plastmasla eyni polipropilen liflərdən istifadə edərək istehsal edilən bu yapışqan maddənin 1 sm2-ində 40 milyon mikroskopik plastik lif var. Çox güclü yapışqan olan və kiçik poçt markası böyüklüyündəki bu materialın liflərinin heç biri səthə toxunmur, ancaq təqribən yarım kilo yük daşıyır. Amerikalı tədqiqatçılar təcrübələr zamanı günlərlə ağırlıq daşıyan bu yeni yapışqan maddənin istifadə edildikcə daha da gücləndiyini bildirirlər.

Kərtənkələ ayağının altında heyvanın divarlara və tavanlara yapışmasını təmin edən nano ölçüdə təpə və çökəkliklər var. Kərtənkələ ayağının bu xüsusiyyətindən faydalanaraq

zədələnmiş toxumaya yapışıb müalicə edən, əriyərkən zəhərli maddəyə çevrilməyən plaster istehsal edilmişdir. Eynilə kərtənkələ ayağı kimi təpə və çökəklikləri olan, bunların üzərini örtən incə yapışqan təbəqəsi olan plaster ürək, sidik kisəsi və ağciyər toxuması kimi nəm hissələrə də yapışır və müdaxiləyə ehtiyac qalmadan üzvi yolla öz-özünə əriyir. Bundan əlavə, bu sistem mədə əməliyyatlarında əmələ gələn sızmaların qarşısının alınması və laparoskopik əməliyyatlarda yara tikişlərinin dəyişdirilməsi kimi bir çox tibbi prosesdə istifadə ediləbiləcəkdir. Yeni nanotexnoloji plasterin digər yara bağlayıcı plasterlərlə müqayisədə daha güclü olduğu və elastikliyinə görə, müxtəlif tibbi müalicələrdə daha sürətli sağalmaya təkan verdiyi müəyyən edilmişdir.



## Sıçrayan kərtənkələ

Qumlu səth daha yumşaq olduğuna görə, onun üzərində yerimək daha çətindir. Ancaq zebraquyruqlu kərtənkələlər bu çətin şəraitdə belə çox sürətlə hərəkət edə bilirlər. Çünki bu canlılar bir saniyədə 1.5 metr qət edəcək hərəkət qabiliyyətinə malikdirlər. Bundan əlavə, qumda yeridiyi kimi, palçıq, çınqıl kimi səthlərdə də yeriyə bilir. Bəs bu kiçik canlı hər cür səthin üstündə necə yeriyir? Bunun sirri Allahın üstün yaratma nümunəsi olan kərtənkələnin ayaq barmaqlarıdır. Zebraquyruqlu kərtənkələnin qumda yeriyərkən yayılan, ayağını qaldırdıqda qıvrılıb yığılan uzun ayaq barmaqları var. Bu barmaqlar kərtənkələyə hər cür səthdə yeriməyə imkan verir. Əgər kərtənkələnin bu xüsusiyyəti texnologiyaya tətbiq edilə bilsə, NASA və digər robotşünaslıq qrupları Ayda və Marsın kanyonlarında təhlükəsiz şəkildə yeriyən robotlar istehsal edə bilər, robotlar ordu üçün daha təhlükəsiz kəşfiyyatçılığa imkan verər və baş verən təbii fəlakətlərdə bəlkə də kərtənkələnin bu yerimə xüsusiyyətinə malik xilasedici robotlardan istifadə edilə bilər.



## Suda yeriyən kərtənkələ

Suda yeriyən kərtənkələ saniyədə 20 addım ataraq suyun üzərində çox sürətlə qaçır. Ayaqları suya dəydiyi anda hər barmaq gərilərək ayağın səth sahəsinin artmasını və suyu asanlıqla itələməsini təmin edir. Beləliklə, ayaqlar bədənin ağırlığını tarazlayır. Kərtənkələnin ayaqları suyu itələdikdə hava qovuqcuğu əmələ gətirərək əlavə dəstək qazanır və digər ayağın qayıdışını tamamlayıb suya dəyməsi üçün zaman qazandırır. Ağırlığı ikinci ayağa ötürülərkən kərtənkələ hava qovuqcuğu partlamadan əvvəlcə birinci ayağını sudan çəkir. Hava qovuqcuğu çox vacibdir, çünki ayağı birbaşa suya toxundursa, kərtənkələ suya batar. Bundan əlavə, kərtənkələnin hərəkəti insanla müqayisə edilərsə, insan bu hərəkəti həyata keçirməsi üçün saniyədə 30 m qaçmalı və böyük ayaq əzələsi kərtənkələnin ayaq əzələsindən 15 dəfə artıq gərilməlidir ki, bu da qeyri-mümkündür.

## Şüşə tavanda yeriyən qekkonlar

Qekkon adlı bir kərtənkələ növü tək barmağı ilə bir səthdən asılı qalır və ya şüşə tavanda başıaşağı yeriyir. Qekkonun barmaq ucları setae adlanan xüsusi toxuma ilə



örtülüdür. Bu toxumada tükcüyə bənzər çıxıntılar var və bu çıxıntıların ucları da yüzlərlə mikroskopik tükcüyə bölünür. Hər bir tükcüyün qalınlığı millimetrin 5000-də 1-inə bərabərdir. Qekkonun ayağındakı milyonlarla mikroskopik tükcük toxunduğu səthdəki atomların cazibə qüvvəsindən istifadə edərək o səthə yapışqan kimi yapışır. Bu, kvant fizikasında "Van-Der-Vals qüvvəsi" adlandırılır. Ağlı və şüuru olmayan kərtənkələnin ancaq son əsrdə kəşf edilən atom və onun cazibə qüvvəsindən xəbərdar olması, bundan istifadə etmək üçün sistemlərə malik olması, əlbəttə, sonsuz elm sahibi Allahın yaratma sənətidir. Uca Allah bu həqiqəti bir ayədə belə xəbər verir:

**O, yaradan, yoxdan var edən, surət verən Allahdır. Ən gözəl adlar ancaq Ona məxsusdur. Göylərdə və yerdə nə varsa, Onu təqdis edib şəninə təriflər deyər. O, yenilməz qüvvət sahibi, hikmət sahibidir! (Həşr surəsi, 24)**

Qekkonların bu xüsusiyyətləri texnologiyada mühüm irəliləyişlərin əldə edilməsinə imkan vermişdir. Texnologiyadakı bu kəşflər aşağıdakılardır:

Ştutqart Maks-Plank Metal Tədqiqatları İnstitutunun meneceri Eduart Arzt qekkonun yapışma qabiliyyətindən ilham alaraq mikro quruluşa malik yapışqan səth istehsalı metodu kəşf edib. Bu metod Van-Der-Vals qüvvələrinə əsaslanır və mikrosahədə olduğu kimi, makrosahədə də problemlərin həll yolunu vəd edir. Məsələn, "geko-plaster" yapışqan qeyd kağızından 100 dəfə yaxşı yapışmasına baxmayaraq, heç bir iz qoymadan qopardılır. Kaliforniyalı tədqiqatçılar kərtənkələnin yapışqan barmaqlarının həm quru, həm də öz-özünü təmizləyən yeni sintetik yapışqanın icad edilməsinə kömək edəcəyini düşünürlər.

Qekkonlar ayaqları ilə sürtünmə qüvvəsindən 600 dəfə daha böyük yapışqan güc əmələ gətirirlər. Bu cür yapışma qabiliyyətinə malik qekkonabənzər ayaqlarla düzəldiləcək robotlardan divarda yeriyərək yanan binadakı insanları xilas etmək üçün istifadə oluna bilər. Daha kiçik cihazların istifadə edildiyi tibbi əməliyyatlarda və kompyuter mühəndisliyində isə quru yapışqan kimi böyük fayda verə bilər. Qekkonlar ayaqları ilə bir səthə toxunduqda avtomatik reaksiya verən yay kimi hərəkət edirlər. Bu da beyni olmayan robotlar üçün çox yaxşı metoddur. Qekkonun ayaqları heç vaxt xarab olmur, öz-özünü təmizləyir və havasız mühitdə, suyun altında da funksionaldır.

***- Bu metod nano-əməliyyatlarda sürüşkən orqanları birləşdirmək üçün faydalı ola bilər.***

***- Avtomobil şinlərinin yolu daha yaxşı tanımasına kömək edə bilər.***

***- Gəmilərin, körpülərin, buxtaların çatlarının təmirində, peyklərin müntəzəm yoxlanmasında istifadə edilə bilər.***

Qekkonla düzəldiləcək robotların yeri, şüşələri, tavanları, dik yerləri təmizləməsi mümkün ola bilər. Bundan əlavə, təkcə dik səthlərə dırmanmasına kömək etməyəcək, eyni zamanda, qarşısına çıxan maneələrdən də keçə biləcək.



# HƏR İNSAN VƏHYLƏ HƏRƏKƏT EDİR

**- İnsan vəhylə necə hərəkət edir?**
**- Peyğəmbərlərə gələn vəhy ilə insanlara gələn vəhy arasındakı fərq nədir?**
**- Hz. Mehdi (ə.s) vəhy alacaqmı?**

Allah hər insana gözəl davranmağı və danışmağı, sağlam fikirlə mühakimə yürütməyi, doğrunu və yanlışı bir-birindən ayırd etməyi ilham edir. Bu mənəvi xüsusiyyət vicdandır.

## Allahın hər insana vəhyi: vicdan

Vicdan bütün insanlarda ortaqdır. Yəni bir insanın vicdanına görə doğru olan şey eyni şərtlər daxilində başqa insanların vicdanlarına görə də doğrudur. Vicdanlar heç vaxt bir-birinə zidd olmaz. Bunun səbəbi vicdanın mənbəyidir. Vicdan Allahın ilhamıdır. İnsan vicdanını dinlədikdə Allahın vəhyi ilə hərəkət etmiş olur. Allah hər insana vicdanı vasitəsilə Öz rizasına uyğun ən doğru davranışları bildirir.

Vicdanın Allahın ilhamı olduğu Qurani-kərimin **"Şəms"** surəsində belə bildirilir:

**And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini ilham edənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapmışdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Yuxarıdakı ayələrdə Allah nəfsə günahları (günah etməyi, üsyan etməyi, fasiq olmağı, yalan danışmağı, Allaha itaətsizlik etməyi, haqdan üz çevirməyi, nizam-intizamı pozmağı, əxlaqi degenerasiyanı) və eyni zamanda bu günahlardan çəkinməyi ilham etdiyini bildirir. İnsanı pisliklərdən çəkindirən və



ona doğru yolu göstərən məhz vicdanıdır.

Vicdanın ən mühüm xüsusiyyətlərindən biri isə insanın öz-özünə doğru yolu tapmasına kömək etməsidir. Heç kim göstərməsə də, vicdan insana doğru yolu göstərir. Ancaq insan vicdanını dinləməli və dediklərini tamamilə yerinə yetirməlidir. Buna görə, vicdanın səsini dinləmək din əxlaqının əsas ünsürüdür.

Hər insan şüur sahibi olduğu andan etibarən uca Allahın ona ilham etdiklərindən, yəni vicdanının söylədiklərindən məsuldur. Ətrafındakı hadisələri dərk etməyə başlayan, mühakimə qabiliyyəti qazanan hər insan artıq vicdanının səsini eşidər. Nəfsi ilə vicdanını ayırd edəcək qabiliyyətə və vicdanına tabe olacaq iradəyə sahib olar. Artıq bundan sonra qarşılaşdığı hadisələr zamanı seçdiyi yola görə məhşər günündə sorğu-sual olunacaq, vicdanına tabe olarsa, Allahın əbədi cənnətinə layiq görüləcək, nəfsinə tabe olarsa, "qapıları kilidlənmiş" əbədi cəhənnəm əzabı ilə qarşılaşacaq.

## Peyğəmbərlərə gələn vəhyə görə bütün insanlar məsuldur

Rəbbimizin qullarına sonsuz lütfü kimi göndərdiyi peyğəmbərlər tarix boyu bütün xalqları Allahın varlığından, birliyindən, sonsuz güc və qüdrət sahibi olduğundan, axirət günündən və Rəbbimizin qullarından xəbərdar ediblər. Allah bu həqiqəti Quranda belə bildirir:

**Biz hər ümmətə: "Allaha ibadət edin, tağutdan çəkinin!" – deyə elçi göndərmişdik. Onlardan kimisini Allah hidayət yoluna yönəltmiş, kimisinə də azmaq nəsib etmişdir. Yer üzündə dolaşıb görün ki, (haqqı) yalan hesab edənlərin axırı necə oldu! (Nəhl surəsi, 36)**

Allahın xüsusi seçdiyi və üstün xüsusiyyətlər bəxş etdiyi mübarək insanlar olan elçilər həmişə güclü imanları, gözəl əxlaqları, üstün xarakterləri və nümunəvi davranışları ilə ətrafın diqqətini çəkmiş, yaşadıqları qafil və azğın icmadan ayrılmışlar. Onları digər insanlardan fərqləndirən ən mühüm xüsusiyyətlərdən biri də Allahdan vəhy almalarıdır. Allah "Nisa" surəsində belə buyurur:

**Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunisə, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu**

**verdik. (Nisa surəsi, 163)**

Allahın peyğəmbərləri vasitəsilə insanlara çatdırdığı vəhyinə görə bütün insanlar böyük məsuliyyət daşıyır. Çünki Allah ayələri ilə insanlara doğru yolu göstərmiş, ibadət formalarını öyrətmiş, gözəl əxlaqı tərif etmiş və Öz dinini tam bildirmişdir. Rəbbimiz saleh əməllərin və ibadətlərin nələr olduğunu peyğəmbərlərə vəhy vasitəsilə bildirdiyini "Ənbiya" surəsində belə xəbər verir:

**Biz Öz əmrimizlə onları doğru yolu göstərən rəhbərlər etdik. Onlara xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər. (Ənbiya surəsi, 73)**

## Hz. Mehdi (ə.s.) vəhy alar, ancaq xəbəri olmaz. Allah qəlbinə ilham edər

Axırzamanın mübarək şəxsi olan hz. Mehdi (ə.s) də vəhy alar, ancaq aldığı vəyh peyğəmbərlərə gələn vəhydən fərqlidir. Çünki peyğəmbərlər vəhy aldıqlarına **"Şübhəsiz ki, mən sizin üçün etibar olunası bir elçiyəm! (Şüəra surəsi, 107)"** ayəsində diqqət çəkildiyi kimi, açıq şəkildə təbliğ ediblər. Hz. Mehdi (ə.s) isə açıq-aşkar vəhy almadığı və möcüzə göstərmədiyi üçün fərqlidir. Bu, əlbəttə, hz. Mehdinin (ə.s) mənəvi məqamı baxımından uca Allahın çox böyük lütfüdür.

Hz. Mehdinin (ə.s) vəhy aldığından xəbəri olmaz. Lakin Allah bu dəyərli şəxsin qəlbinə doğrunu yanlışdan ayırd etməyi ilham edər. Hz. Mehdi (ə.s) bu vəhylə hərəkət etdiyini bilər, ancaq bunu özü düşünürmüş kimi hiss edər.

Peyğəmbərimiz (s.ə.v) hz. Mehdinin (ə.s) bu vəhylə səhv etməyəcəyini bildirir. Hz. Mehdi (ə.s) əhkamda (verdiyi hökmlərdə) məsumdur. Səhv etdikdə mütləq yenə doğruya yönələr. Çünki Allah hz. Mehdinin (ə.s) səhv etməsinə izn vermir. Bu baxımdan məsum imam xüsusiyyəti ancaq hz. Mehdiyə (ə.s) xasdır. Çünki Peyğəmbərimiz (s.ə.v) hz. Mehdinin (ə.s) doğulduğu andan etibarən bir mələyi olacağını, bu mələk vasitəsilə səhv etməsinə izn verilməyəcəyini bildirmiş və həmişə Allahın onu xüsusi qoruyacağına diqqət çəkmişdir.

*"(HZ. MEHDİ (Ə.S)) PEYĞƏMBƏRİMİZİN (S.Ə.V) YOLUNU GEDƏCƏK. GÖZÜNƏ GÖRÜNMƏDƏN ONA YARDIM EDƏN BİR MƏLƏK OLACAQ. BİTKİNİ CANLANDIRACAQ VƏ ZƏİFƏ KÖMƏK EDƏCƏK". (Şeyh Muhiddin Arabi, Fütuhatül Makiyye, Bölüm 366)*

**Cənab Adnan Oktar 24 yanvar, 2010-cu il tarixli Kanal 35, TV Kayseri, Kanal Avrupa kanallarında yayımlanan müsahibəsində hər insanın vəhylə hərəkət etdiyini, ancaq bundan xəbəri olmadığını belə açıqlamışdır:**

**ADNAN OKTAR:** *Hz. Mehdi (ə.s) vəhy alar, ancaq xəbəri olmaz. Yəni Allah qəlbinə ilham edər. İlham vəhydir. Qəlbinə ilham ediləcək, ancaq bundan xəbəri olmayacaq, inşaAllah. Lakin bunun vəhy olduğunu bilməyəcək, özü düşündüyünü zənn edəcək. Lakin, təbii ki, bu düşüncə ona Allah tərəfindən veriləcək. Hz. Mehdinin*

*(ə.s) əhkamda məsum olması da budur. Peyğəmbərimiz (s.ə.v) hz. Mehdinin (ə.s) doğulduğu andan etibarən bir mələyinin olduğunu bildirir. Onun vəhy almaması, möcüzə göstərməməsi mənəvi məqamı baxımından müsbətdir, çünki möcüzə göstərsə, vəhy alsa, bu onun üçün imtahanın savabını azaldar. Çünki möcüzə ağılın ixtiyarını əldən alar. Əksinə, hz. Mehdi çətinlik çəkəcək, təhqir olunacaq, həbs ediləcək, təzyiqlərə məruz qalacaq, insanlar və özünü müsəlman adlandıran bəzi şəxslər tərəfindən də təcrid ediləcək. Hətta mədinədəki, yəni İstanbuldakı mövhumatçı alimə qədər bir çox din adamının ona qarşı çıxıb düşmənçilik edəcəkləri hədisdə bildirilir. Bütün bunlara baxmayaraq, mübarizəsinə görə, Peyğəmbərimiz (s.ə.v): "Hz. Mehdi (ə.s) bəzi peyğəmbərlərdən daha üstündür",- deyir. Bu, möcüzə görmədiyinə görədir, çünki peyğəmbərlər möcüzə görür, Cəbrayılı (ə.s) öz gözləri ilə görüb eşidir, vəhy alırlar. Bu, möcüzədir. Ancaq hz. Mehdi (ə.s) tamamilə möcüzə görmədən və vəhy almadan, sadəcə Allahın kainatdakı möcüzələrini görərək hərəkət edəcəkdir. Ona görə, məqamı daha üstündür. Hətta Peyğəmbərimiz (s.ə.v): "Hz. Əbubəkr (r.ə.) və hz. Ömər (r.ə.) belə ondan üstün ola bilməzlər",- buyurur. Çünki bu iki səhabə çox mühüm şəxslərdir, ancaq hz. Mehdi (ə.s) onlardan üstündür. Hədisin ardında Peyğəmbərimiz (s.ə.v) deyir: "Hətta bir çox peyğəmbərdən daha üstündür". Səbəbi budur. Yəni Allah ona lütf edib, inşaAllah. Eyni zamanda vəzifəsini asanlaşdırıb. Çünki peyğəmbərliyin açıq-aşkar elan edilməsi çox çətin mühit əmələ gətirir, bu baxımdan Allah onun üçün asanlıq yaradıb, Mehdi olduğu gizlədilib. Hz. Mehdi (ə.s.) Mehdi olduğunu iddia etməyəcək. Ona görə də gizlənmiş olacaq və bu, daha rahat fəaliyyət göstərməsini təmin edəcək. Peyğəmbərliyin də bu çətinliyi var, çox qarşı çıxanlar olur. Ancaq mehdilik gizli olmasına baxmayaraq, yenə də hz. Mehdiyə (ə.s) insanlar təzyiq göstərəcəklər. İnsanların böyük əksəriyyəti hz. Mehdiyə (ə.s) qarşı çıxacaq. Hətta müsəlmanların da bir çoxu ona qarşı olacaq. Bütün bunlara baxmayaraq, elmi fəaliyyətlərlə İslam əxlaqını dünyaya hakim edəcək. İlk dəfə bütün dünyada bu qədər böyük hakimiyyət qurulacaq. Hz. Adəmdən (ə.s) etibarən nə hz. Süleymanın (ə.s), nə də hz. Zülqərneynin (ə.s) dövründə belə bir hadisə baş verməmişdir. İlk dəfə bu qədər böyük hakimiyyət qurulur, bu isə ilk və son olacaq. Ondan başqa hakimiyyət olmayacaq. Allah bir lütf olaraq hz. İsanı (ə.s) ona vəzir kimi göndərir. Bu da çox böyük hadisədir. Hz. İsa (ə.s) ülul-əzm peyğəmbərdir. Həm xristian aləminin, həm də müsəlmanların qəbul etdiyi peyğəmbər olan hz. İsa (ə.s) hz. Mehdinin (ə.s) vəziri olacaq və onun vasitəsilə, inşaAllah, birlikdə İslamı bütün dünyaya hakim edəcəklər.*



# MÖMİN İÇİNDƏN GƏLƏN HƏR HİSSƏ TƏSLİM OLMAZ

**Möminlər nə üçün içlərindən gələn hər hissə təslim olmazlar?**

**İnsan nəfsinin mənfi təlqinlərini və vicdanının səsini necə ayırd edə bilər?**

**Möminlər bu mənfi təlqinlərə və içlərindən gələn hər hissə təslim olmamaq üçün nə edərlər?**

Bəzi insanlar içlərindən hansı hiss gəlsə, heç düşünmədən ona təslim olurlar. Fikirlərindən nə keçsə, dərhal onu düşünmədən söyləyirlər. Davranışlarının və ya dedikləri sözlərin nəticəsini ölçüb-biçmirlər. Qəzəbləndikdə əsəblərini cilovlamırlar. Daxilən küskün olanda bunu üzə vururlar. Narahat olduqda qarşı tərəfə bunu dərhal hiss etdirirlər. İçlərindən ağlamaq hissi gələndə ağlayırlar. Kədərlənmək, ümidsizliyə qapılmaq və ya inciklik təlqinləri gəldikdə dərhal bu əhvala düşürlər. Ancaq möminlər belə vəziyyətlərdə tamamilə fərqli davranırlar.

## Möminlər nəfslərinin istəklərinə görə içlərindən gələn hər hissə təslim olmazlar

İman gətirən insan öz hisslərinə təslim olaraq hərəkət edən bəzi insanlardan çox fərqli davranır. Buna görə, heç vaxt içindən gələni etməz. Çünki içindən gələn şeylər, əsasən, nəfsinin istəkləridir. Mömin bunları əvvəlcə Quranla dəyərləndirər, əgər Quran əxlaqına uyğundursa, tətbiq edər. Çünki mömin özünü nəfsinin idarəsinə təslim etmiş insan deyil. Nəfsi onu deyil, o nəfsini idarə edir. Ona görə də iman gətirən insan

- İçindən qəzəb hissi gəldikdə qəzəblənməz.
- Qısqanclıq hissi gəldikdə qısqanmaz.
- İnciklik hissi gəldikdə küsməz.
- Təkəbbür hissi gəldikdə lovğalanmaz.

Əgər içindən bunlara bənzər nəfsə aid pis hisslər gəlsə, mömin mütləq Allaha sığınar, içindən gələn mənfi hisslərə qalib gələr və Quran əxlaqına uyğun davranar.

Bu, mömin əxlaqına xas mühüm üstünlükdür. Müsəlman Allaha qarşı hiss etdiyi dərin sevgi və qorxuya görə nəfsini bu cür idarə edir. Çünki ağıl və vicdana uyğun davranmadıqda nəfs insan üzərində, həqiqətən, təsir gücünə malik olur. Sonsuz qüdrət sahibi olan Allah dünya həyatındakı imtahanın tələbinə uyğun olaraq nəfsi bu cür yaratmışdır. Allahdan qorxmayan, axirətə inanmayan bir çox insanın nəfsi ilə mübarizə aparmağa, nəfsinin təlqinlərinə qalib gəlməyə gücü yoxdur. Bu cür insanlar nəfslərinin tam idarəsinə keçmiş və həyatlarını nəfslərinin müəyyən etməsinə izn vermişlər.

Möminlər isə hz. Yusifin (ə.s) Quranda bildirilən: “Mən nəfsimi təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs pis işlər görməyi əmr edər. Həqiqətən, Rəbbim bağışlayandır, rəhm edəndir! (Yusuf surəsi, 53)”- sözləri ilə dilə gətirdiyi həqiqəti tam dərk edirlər. Bir şeyin içlərindən gəlməsinin o hissə təslim olmaq üçün əsas olmadığını və Allahın onları ağılla davranmaqdan, vicdanlarına tabe olmaqdan, Quran əxlaqına uyğun yaşamaqdan məsul tutacağını bilirlər. Buna görə də nə qədər çətin olsa da, içlərindən gələn nəfsi istəklərə boyun əyməzlər.

## Bəzi insanların içlərindən gələn mənfi hisslərə qarşı mübarizə aparmağa gücünün çatmadığını iddia etməsi yanlışdır

Bəzi insanlar içlərindən gələn mənfi hisslərin ancaq bəzisinə gücləri çatdığına, bəzisinin qarşısında aciz olduqlarına inanırlar. Məsələn, belə bir insan nəfsi nəzakətsizliyi təlqin edirsə, buna qarşı çıxa biləcəyinə inanır. Laqeydlik, tənbəllik, eqoistlik kimi hisslərə tabe olmayacağına əmindir. Ancaq qəzəbini cilovlaya bilmədiyinə inanır. Kədərləndikdə, içindən ağlamaq hissi gəldikdə bunun qarşısını almaq üçün heç nə edə bilməyəcəyini düşünür. Bunun mənəvi deyil, fiziki olduğunu, bu istəklərinin orqanizminin reaksiyası olduğunu, ona görə də öhdəsindən gələ bilmədiyini düşünür. Bu təqdirdə, nəfsində müdaxilə edə bilmədiyi bir çox cəhət olduğunu zənn edir. “Nə edim, mən beləyəm, qəzəbimi cilovlaya bilmirəm”, “hər insanın bir qüsuru var, mənim də qüsurum budur, məni də belə qəbul edin” kimi sözlərlə bu düşüncələrini ətrafına da qəbul etdirməyə çalışır.
Əlbəttə, bu cür insanlar tamamilə səhv düşünürlər. Allah Quranda insanın nəfsinə pisliyi öyrətdiyini,





ancaq bu pisliklərə qalib gələcək gücü də verdiyini bildirmişdir:

**And olsun nəfsə və onu yaradana (ona biçim verənə); Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini ilham edənə ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapmışdır! Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğramışdır. (Şəms surəsi, 7-10)**

Ona görə də Quranda verilən bu məlumatın əksini iddia edən insan ancaq özünü aldadır. Həqiqətən, hər insan istədikdə Allahın iznilə nəfsindəki hər cür pisliyin, nöqsanın, qüsurun öhdəsindən gələ bilər. İnsan Allahdan qorxub-çəkinərsə, nəfsindən gələn ən güclü təlqinlərə qarşı mübarizə aparmaq üçün bir çıxış yolu tapar. Nəfsə qalib gəlmək üçün səy göstərmək əvəzinə dərhal nəfsə təslim olmaq, gücünün çatmadığını düşünərək bu qüsuru ilə yaşamağı qəbul etmək çox böyük acizlikdir. Allah dünya həyatında insana hər şeyin doğru yolunu göstərmişdir. Həll yolunu Quran əxlaqında axtaran hər insan Allahın iznilə bu doğru yolları asanlıqla tapar və heç çətinlik çəkmədən tətbiq edər.

**Nəfsini tərbiyə etməmiş insanların etdiyi xidmət çox vaxt Allah üçün deyil, nəfsləri üçündür.** (İmam Qəzali (r.ə))

**Gənc qardaşım! İmanın zəifləməyə başladıqda nəfsinlə və onun bataqlıq və kələ-kötür yolları ilə ciddi şəkildə məşğul ol! Bu yolda yeriyərkən artıq uşağın, ailən, qonşun, qohumun, həmyerlin və ölkən səni məşğul etməsin... Çünki daxili aləmin sarsıntı keçirir, nəfslə şəhvət iman ilə irfana qalib gəlmiş vəziyyətdədir. Əvvəlcə bunu düzəltməlisən...”** (Abdülkadir Geylani, Gönül İncileri İkazlar, Çeviren: Celal Yıldırım, Bahar Yayınları, səh. 9, Birinci Vaaz)

**Kamil insan nəfsini əzən insandır ki, Rəbbi onu qullarının dili ilə tərifləyir, ucaldır.** (Ebu'l Hasan Ali b. Vefa (r.h))

**İman gətirən insan Allah-Təalanın onu gördüyünü unutmur. Bu qul nəfsini sorğu-sual edir və axirət üçün azuqə hazırlayır. Hicrət qiyamətə qədər davam edən fərzdir. Hicrət cahillikdən elmə, Allahı unutmaqdan Onu xatırlamağa, günahdan itaətə və isrardan tövbəyə gedən yoldur.** (Sehl b. Abdullah et-Tüsteri (k.s.))

## İnsan həyatını nəfsinin təlqinlərinə görə yönləndirməməlidir

Bütün bu məlumatlara əsasən, bu həqiqəti çox yaxşı qavramaq lazımdır: hər insan həyatı boyu nəfsinin minlərlə təlqini ilə qarşılaşar. İnsan hər gün, hər saat həyatını nəfsinin istəklərinə görə yaşasa, çox təhlükəli



olar. İnsanın içindən gələn hər təlqində dərhal nəfsinin istəklərinə əməl etməsi onu dünya və axirətdə ziyana uğradan böyük yanlışdır.

Allah nəfsi insanın içindəki pisliklərlə mübarizə aparması üçün yaratmışdır. Buna görə, insan əsla "mənim xasiyyətim belədir", "mən beləyəm", "çox çalışdım, ancaq bacarmadım", "gücüm çatmır", "əlimdən gələni edirəm, ancaq nəfsimin bu xüsusiyyətinə qalib gələ bilmirəm" kimi çarəsiz (Allahı təhzih edirik) və Quranda bildirilən həqiqətlərə tamamilə zidd, din əxlaqına uyğun olmayan üslubları nə ağlından keçirməli, nə də dilə gətirməlidir. Əgər nəfsində hələ də qalib gələ bilmədiyi pislik varsa, mömin bunun həllinin Allahdan qorxub-çəkinməkdə və Qurana daha möhkəm sarılmaqda olduğunu bilməlidir. Səmimi şəkildə bu əxlaqa uyğun yaşadıqda Allah ona nəfsindəki pisliyə qalib gələcək gücü lütf edər. Allah Quranda bu barədə möminə belə bildirir:

**Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər... (Bəqərə surəsi, 286)**

**Biz hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyirik. (Ənam surəsi, 152)**

**... Kim Allahdan qorxarsa, (Allah) onun işini asanlaşdırar. (Talaq surəsi, 4)**

**Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr! Elə ki (işlərindən) azad oldun, qalx (dua et)! Və ancaq Rəbbinə üz tut! (İnşirah surəsi, 5-8)**

Hər insanın din əxlaqını tanımazdan əvvəl alışdığı həyat tərzi və şəxsiyyəti ola bilər. Ancaq din əxlaqına uyğun yaşamağa başladıqda Quran əxlaqına uyğun davranışlar Allahın razılığına uyğun olaraq davam etdirilməli, Quran əxlaqına uyğun olmayan xüsusiyyətlər isə müəyyən edilib tərk edilməlidir. Nəfs Allahın izni olmadıqca insanı daima pisliyə təşviq edir. Buna görə, insan ona tabe olmayaraq xoşbəxtliyə və rahatlığa qovuşa bilər. İnsan nəfsinə sahib çıxıb sanki qul kimi onun istəklərinə boyun əymək əvəzinə nəfsini quluna çevirməli və onu istədiyi kimi idarə etməlidir.

Quran əxlaqını yaşamaqda qətiyyətli olan insan Allahın əmrlərinə dəqiqliklə əməl edər. Allahın Quranda bildirdiyi ibadətləri yerinə yetirməklə bərabər hər zaman vicdanına tabe olar, səmimi şəkildə gözəl əxlaqı yaşayar. Əlbəttə, bu əxlaq möminin nəfsini tərbiyə etməsi ilə inkişaf edər və dərinləşər. Nəfsi tərbiyə etmək iman gətirənlərin həyatı boyu davam edən çox dəyərli ibadətdir. Rəbbimizin Quranda **"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq üçün öz canını fəda edər... (Bəqərə surəsi, 207)"** ayəsi ilə bildirdiyi möminlərdən olmaq üçün hər müsəlman səy göstərməlidir.

Yer kürəsinin daxili quruluşu və böyüklüyü xüsusi olaraq həyat üçün yaradılmışdır. Bu quruluşdakı təbəqələr sayəsində Yerin maqnit sahəsi əmələ gəlir və bu maqnit sahəsi həyatın qorunması üçün çox əhəmiyyətlidir.




# Yer kürəsinin böyüklüyü və daxili quruluşundakı İDEAL NİSBƏT

Canlılığın var olması və varlığını davam etdirməsi üçün Yerin böyüklüyü tam lazım olan ölçüdədir. Dünyamızı onun kütləsinin yalnız 8%-nə sahib olan Merkuri və ya Yer kürəsindən 18 dəfə böyük olan Yupiterlə müqayisə etsək, görərik ki, planetlər müxtəlif ölçüdədirlər. Müxtəlif ölçülərdə olan planetlərin içində Yer kürəsinin böyüklüyünün təsadüfən tam lazım olan ölçüdə meydana gələ bilməyəcəyi aydındır. Yer kürəsinin xüsusiyyətlərini araşdırdığımız zaman isə üzərində yaşadığımız göy cisminin tam lazım olan böyüklükdə olduğunu görərik. Amerikalı geoloqlar Press və Siever Yer kürəsi haqqında bu məlumatları verirlər:

"Yer kürəsi tam lazım olan böyüklükdədir. Bir az kiçik olsaydı, cəzbetmə qüvvəsi çox zəifləyər və atmosferi Yer kürəsinin ətrafında tuta bilməzdi. Daha böyük olsaydı, bu dəfə də cəzbetmə qüvvəsi çox artar və bəzi zəhərli qazları da tutaraq atmosferi məhv edərdi. Yer kürəsi ilə Günəşin arasındakı məsafə, fırlanma sürəti və ya forması qədər onun böyüklüyü də əhəmiyyətlidir". (F. Press, R. Siever, Earth, New York: W. H. Freeman, 1986, s. 4.)

## Yer kürəsinin daxili quruluşu həyat üçün xüsusi yaradılmışdır

Dünyamız iç-içə keçmiş bəzi kürələrdən meydana gəlmişdir. Fiziki və kimyəvi xüsusiyyətləri bir-birindən fərqli olan bu kürələrin mərkəzində nüvə, xaricində isə yer qabığı yerləşir. Nüvə ilə yer qabığı arasında isə mantiya təbəqəsi adlanan qat var.

## Xarici qat: Yer qabığı

Dünyanın xarici təbəqəsini meydana gətirən və qalınlığı 33-35 km olan yer qabığı və litosfer bir-birindən fərqli iki hissədən ibarətdir. Yer qabığının qalınlığı quruda təxminən 35-40 km, dənizdə isə 8-10 km-



dir. Yer qabığının sıxlığı və qalınlığı da öz növbəsində, iki müxtəlif təbəqədən ibarətdir. Bunlardan biri olan sial qatını meydana gətirən daşlar tamamilə bərkimişdir. Sıxlığı 2,7 qr/cm3-dir. Bu, yer qatlarındakı ən aşağı sıxlıqdır. Qatı meydana gətirən daşlar daha çox vulkanizasiyanın təsiri ilə meydana gəlmişdir. Silisium və alüminium çox olduğu üçün bu qat sial adlandırılmışdır. Sial təbəqəsinin qalınlığı quruda çox, dənizdə azdır. Qranit və qum daşı kimi yüngül daşlardan ibarətdir.

Sial qatının altında yerləşən sima qatı isə hələ qatılaşmamış, əsasən, bazalt növündən olan daşlardan ibarətdir. Bu qatın daxilindəki sıxlıq 3,3 qr/cm3-dir. Sima qatında qalınlıq elə bir dəyişikliyə məruz qalmır. Ancaq sial qatından fərqli olaraq, bu qatın qalınlığı quruda az, dənizdə isə çoxdur.

## Maye qat təbəqəsi: mantiya

Mantiya litosferlə nüvə arasındakı qatdır. 100-2890 km olan mantiyanın sıxlığı 3,3-5,5 q/cm3, temperaturu 1900-3700°C-dir. Mantiya Yerin ən böyük hissəsini meydana gətirir (80%). Bu qatda silisium, maqnezium, nikel və dəmir var. Mantiyanın üst təbəqəsi yüksək temperatur və təzyiqdən plastik xüsusiyyətə malikdir. Alt təbəqələri isə maye halındadır. Bu səbəbdən, mantiyada daim alçalan və yüksələn hərəkətlər görünür. Vulkanizasiya ilə yerin üzünə çıxan maddələr daha çox bu qatdan gəlir. Bazaltdan ibarət mantiya hərəkət halındadır. Məsələn, tektonik zəlzələlərin və vulkanizasiyanın meydana gəlməsi mantiyadakı bu hərəkətlərlə əlaqədardır.

## Yer kürəsinin daxili təbəqəsi: nüvə

Mantiyanın 2900 km dərinliyindən nüvəyə keçid başlayır. Nüvə 2 hissədən ibarətdir: biri 2.200 km qalınlığında olan maye-xarici nüvə, digəri də 1.250 km qalınlığındakı bərk-daxili nüvə. Temperaturu 3700°C, təzyiqi 125 GPa-dır.

Maqnit sahəsi Yer kürəsinin nüvəsinin quruluşundan irəli gəlir. Nüvə dəmir və nikel kimi maqnit xüsusiyyəti olan ağır elementləri özündə daşıyır. Nüvənin iki qatı (bərk və maye) bir-birinin ətrafında hərəkət edir. Bu hərəkət ağır metallar üzərində maqnit sahəsini meydana gətirir. Bu maqnit sahəsi



həyatın qorunması üçün çox əhəmiyyətlidir. Elm adamları bu mövzunu belə açıqlayırlar:

"Dünyanın nüvəsi isə çox böyük həssaslıqla tarazlanmış və radioaktiv yanacaqla qidalanan temperatur mühərrikidir... Əgər bu mühərrik bir az yavaş işləsəydi, qitələr indiki strukturlarına çata bilməzdilər... Dəmir heç vaxt əriməz və mərkəzdəki maye nüvəyə çatmazdı. Beləliklə, Yer kürəsinin maqnit sahəsi heç vaxt meydana gəlməzdi... Əgər Yer kürəsinin daha çox radioaktif yanacağı olsaydı və dolayısilə, daha sürətli temperatur mühərriki olsaydı, vulkanik buludlar Günəşi bağlayacaq qədər qalın, atmosfer həddindən artıq sıx olar, Yer səthi də hər gün vulkanik partlayış və zəlzələlərlə sarsılardı". (F. Press, R. Siever, Earth, New York: W. H. Freeman, 1986, s. 4)

Atmosferin xaricinə qədər uzanan bu sahə sayəsində Yer kürəsi kosmosdan gələn təhlükələrdən qorunur

Ulduzlardan qaynaqlanan öldürücü kosmik şüalar Yer kürəsinin ətrafındakı qoruyucu qalxanı keçə bilmirlər. Xüsusilə Yer kürəsindən on minlərlə kilometr uzaqda maqnit halqalar yaradan Van Allen qurşaqları dünyamızı bu öldürücü enerjidən qoruyur.

Maqnit sahəsi Yer kürəsini öldürücü kosmik şüalardan qoruyur

Hesablamalara görə, plazma buludlarının öldürücülüyü Xerosimaya atılan atom bombasından 100 milyard dəfə artıqdır. Eyni şəkildə, Yer kürəsi bəzən şiddətli kosmik şüaların da hədəfi olur. Ancaq dünyamızın maqnit sahəsi bu öldürücü şüaların yalnız 0.1%-ni keçirir, qalan şüalar isə atmosfer tərəfindən əmilir. Bu maqnit sahəsini yaratmaq üçün istifadə edilən elektrik enerjisi bir milyard amperlik cərəyandır ki, insanlığın bütün tarixi boyu istehsal etdiyi elektrik enerjisinin cəminə bərabərdir. Əgər Yer kürəsinin bu maqnit qalxanı olmasaydı, həyat tez-tez öldürücü şüalarla korlanar, bəlkə də heç var olmazdı.

Dünyanın maqnit sahəsi daha güclü olsaydı, canlılığı təhdid edən elektromaqnit fırtınalar meydana gələrdi

Bir neçə nümunədə gördüyümüz kimi, Yer kürəsinin nüvəsi tam lazım olan ölçüdə olduğu üçün dünya bu şəkildə qorunur. Bir ayədə bu vəziyyətə belə diqqət çəkilmişdir:



**Göyü mühafizə olunan bir tavan etdik. Onlar isə oradakı dəlillərimizdən üz çevirirlər. (Ənbiya surəsi, 32)**

Yer üzünün 7 qat yaradıldığının Quranda bildirilməsi bir Quran möcüzəsidir

Quranda Yer kürəsi ilə əlaqədar verilən məlumatlardan biri onun yeddi qatdan ibarət olmasıdır:

**Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır. Vəhy onların arasında ona görə nazil olur ki, Allahın hər şeyə qadir olduğunu və Allahın hər şeyi elmi ilə əhatə etdiyini biləsiniz. (Talaq surəsi, 12)**

Yuxarıdakı ayədə diqqət çəkilən bu məlumata elmi qaynaqlarda da yer verilir və Yer kürəsinin yeddi qatdan ibarət olduğu açıqlanır. Elm adamlarının sıraladığı qatlar belədir:

1. Litosfer (su) 2. Litosfer (quru) 3. Astenosfer 4. Üst mantiya 5. Alt mantiya 6. Xarici nüvə 7. Daxili nüvə

Ancaq XX əsrdəki texnologiya ilə təsbit edilə bilən Yerin qatlarının səma ilə olan bənzərliyinin Quranda bildirilməsi Quranın bir çox elmi möcüzəsindən biridir.

Yer kürəsinin nüvəsinin ağır elementlərinin növü, nisbəti və reaksiya sürətləri dünyanın ətrafındakı qoruyucu maqnit sahəsinin meydana gəlməsində əhəmiyyətli rol oynayır. "Van Allen qurşaqları" adlanan və Yer kürəsinin maqnit sahəsindən qaynaqlanan bu təbəqə planetimizə gələn zərərli şüalara qarşı qalxan funksiyasını yerinə yetirir. Günəşdən və digər ulduzlardan yayılan bu şüalar insanlar üçün öldürücü təsirə malikdir. Xüsusilə Günəşdə tez-tez meydana gələn enerji partlayışları Van Allen qurşaqları olmasa, Yer kürəsindəki bütün həyatı yox edə bilər.

Maqnit sahəsi olan və qayalıqlardan ibarət olan yeganə planet Merkuridir. Lakin bu maqnit sahəsinin gücü Yer kürəsindən 100 dəfə azdır. Van Allen qoruyucu təbəqəsi yalnız dünyamıza xasdır.

# Son sözü demək xəstəliyi

Ətrafınızdakı insanları bir neçə saatlıq müşahidə etsəniz, onların əksəriyyətinə hakim olan vacib bir xüsusiyyəti görə bilərsiniz:

## Son sözü demək xəstəliyi

- **Son sözü demək xəstəliyi niyə təhlükəlidir?**

- **Son sözü demək məntiqinə sahib olan insan hansı xüsusiyyətləri ilə tanına bilər?**

- **Möminlər Allahın izni ilə hansı gözəl əxlaq xüsusiyyətləri ilə bu xəstəlikdən qurtula bilərlər?**

İnsanlardakı son sözü demək xəstəliyini görmək üçün mütləq əhəmiyyətli mövzulardan danışmaq lazım deyil. Bəzən bir yeməyin tərifi, bəzən tamaşa edilən bir televizor proqramı, bəzən yaşanan gündəlik bir hadisə, bəzən də oxunan adi bir qəzet xəbəri insanlardakı bu xəstəliyi ortaya çıxara bilər.

Əlbəttə ki, adi gündəlik söhbətlərdə belə bu rəftarı göstərən insan daha əhəmiyyətli və həyati mövzularda son sözü özündən başqa kiminsə deməsinə izn verməz.

Bir çox insan özündəki bu vərdişi şəxsiyyətli olmaq, ağıllı hərəkət etmək, ya da şəxsiyyətini ortaya qoymaq kimi düşüncələrlə təyin edə bilər. Amma nə cür adlandırılırsa-adlandırılsın, son sözü demək vərdişi çox böyük çatışmazlıqdır. İnsan, həqiqətən, çox ağıllı ola bilər. Hamıdan daha təcrübəli, daha əsaslı düşünən biri ola bilər. Ancaq bununla belə, insanın yalnız öz ağlına güvənməsi, öz dediyində israr etməsi və heç kimin düşüncəsinə etibar etməməsi bir çox cəhətdən səhvdir.

## Son sözü demək xəstəliyinin əsasında təkəbbür durur

Bir insanın, nə olursa-olsun, son sözü söyləmədən rahat ola bilməməsi eqoizm, yəni təkəbbür hissi ilə sıx bağlıdır.

Nəfslərindəki hər kəsdən üstün olmaq istəyi onları bu cür rəftara sürükləyir. İstəyirlər ki, yalnız öz dedikləri olsun, hər bir problem



onların təklifinə görə həll edilsin, hər kəs bu insanın doğru və yanlışlarına tabe olsun, hamının ən çox hörmət etdiyi, etibar etdiyi şəxs olsunlar. Bunun əksini edən biri olduqda isə eqoizm hissinə qapılan şəxslər bu insanın rəftarından çox narahat olurlar. Özləri kimi son sözü demək xəstəliyinə tutulmuş başqa bir insanla qarşılaşdıqları zaman isə bu şəxsə ciddi şəkildə qarşı çıxır və qalib gəlmək üçün yarışırlar.

Bir mövzuda üstünlük qazanmaq, haqlı çıxmaq, öz fikirlərini qəbul etdirmək və son sözü demək üçün gözəl əxlaqa uyğun olmayan bir çox hərəkət edə bilirlər. Bəzən sərt üslublardan istifadə edərək, qarşısındakının sözünü kəsərək, incidici və iynələyici sözlər söyləyərək, gözəl söhbəti mübahisəyə çevirərək, necə olursa-olsun, bu pis vərdişi davam etdirirlər.

## Son sözü demək xəstəliyi insana müxtəlif zərərlər verir

Nitq qabiliyyəti Allahın insanlara verdiyi böyük nemətdir. İnsan hər nemət kimi, bu neməti də Allahın rizasına uyğun istifadə etməlidir. Hər insan axirət günündə davranışları ilə bərabər danışıqlarından da hesaba çəkiləcək və etdiklərinin əvəzini tamamilə alacaq.

Bu həqiqəti qavrayan möminlər həyatları boyu danışıqlarının Allahın razılığına uyğun olmasına diqqət yetirərlər. Ancaq Quran əxlaqından uzaq yaşayanlar möminlərin göstərdikləri bu əxlaqdan məhrumdurlar. Çox vaxt boş və mənasız söhbətlərə dalan bu insanlar danışmağı qürurlarının təmin vasitəsi kimi görürlər. Bunun ən diqqətə çarpan göstəricilərindən biri də son sözü demək xəstəliyidir. Bu cür insanlar:

- **Mübahisəçi və əsəbi rəftarları ilə özlərinə və ətraflarına zərər verirlər**

Özünü bütün insanlardan üstün görən, hər mövzunu ən yaxşı bildiyini iddia edən və buna görə də, daima son sözü özünün deməsini istəyən insanların ən diqqətə çarpan xüsusiyyətləri fikirlərini qarşı tərəfə qəbul etdirmək üçün mübahisə etmələridir. Buna ən bariz nümunə televizorda gördüyümüz bəzi xəbər proqramlarıdır. Yüksək səslə edilən mübahisələrdə kimin nə dediyinin dəqiq aydın olmadığı bu proqramlar ya iştirakçılardan birinin hirslənərək proqramı tərk etməsi, ya da izləyənlərin heç bir nəticə əldə edə bilməməsi ilə yekunlaşır. Xəbər proqramlarında olduğu kimi, gündəlik həyatda da bəzi insanlar qarşısındakına öz fikirini qəbul etdirmək və son sözü demək üçün mübahisə edir, qarşı tərəf qəbul etmədikdə hirslənirlər. Halbuki mübahisəçi üslub və əsəbi rəftar ilk növbədə insanın özünə zərər verir. Bu cür insanların əsəbi rəftarlarının meydana gətirdiyi gərginlik öz bədənlərində əks olunur. Əsəbi insanlarda ürək xəstəlikləri, nevroloji pozğunluq və yaddaş itkisi riskinin daha böyük olduğu tibbi cəhətdən sübut edilmişdir. Bədənlərinin rəngi solğun, ağ və ya sarımtıldır. Daim baş ağrısı, bel ağrısı kimi



narahatlıqları olur. Çünki qəzəbləri bədənlərini sıxır, bu sıxılma isə sinirlərinə təsir edir. Bu insanlar bəzən öz düşüncələrini qəbul etdirmək üçün kobud rəftara əl atır, qarşılarındakı insana xətər yetirir, hətta öldürə də bilirlər. Bu şəkildə, həm özlərinə, həm də qarşılarındakına böyük zərər vermiş olurlar.

**"Ali-İmran" surəsinin 134-cü ayəsində bildirilir ki, qəzəb Allahın bəyənmədiyi davranışdır.**

**• Təkəbbür göstərib lovğalanaraq şirk qoşanlar**

Son sözü demək xəstəliyinə tutulmuş insanların ən diqqətəçarpan xüsusiyyətlərindən biri də inkara uymalarıdır. Çünki bu insanlar öz doğrularını və prinsiplərini elə mənimsəyiblər ki, Allahın yoluna dəvət edilmək, iman gətirənlərin yolunu izləmək onlara ağır gəlir. Bu şəxslərin vəziyyətini Allah **"Buna qəti inandıqları halda, haqsızcasına və təşəxxüslə onları inkar etdilər… (Nəml surəsi, 14)"** ayəsi ilə bildirir. Rəbbimizin Quranda əmr etdiyi düz yol yerinə öz düşüncələrini ilahlaşdıranlar uca olan Allaha şirk qoşduqlarını və bu fikirləri ilə özlərini cəhənnəmə sürüklədiklərini belə dərk etmirlər. Allah onların vəziyyətini belə xəbər verir:

**Ona: "Allahdan qorx!"– deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona cəhənnəm kifayət edər. Ora nə pis yataqdır! (Bəqərə surəsi, 206)**

## Yanlış qərarlar verərək işləri daha da çətinləşdirərlər

Bu şəxslərin başqa bir xüsusiyyəti isə qarşı tərəfin özündən daha ağıllı ola biləcəyini, daha məqsədəuyğun qərarlar verə biləcəyini qəbul etməmələri və buna görə, asan həll edilə bilən işlərin daha da çətinləşməsinə səbəb olmalarıdır. Çünki bu insanlar yaxşı olsa da, başqa fikirlərə bağlıdırlar. Ən kiçik bir tövsiyəyə, öyüdə belə dözümləri yoxdur. Öz ağıllarını bəyəndikləri üçün haqq olan hər cür çağırışa qulaqları tıxalı, gözləri isə bağlıdır. Halbuki insanın həmişə doğrunu görə bilməsi mümkün deyil. Üstəlik imani dərinliyə sahib deyilsə, verdiyi qərarlar və düşüncələr, şübhəsiz ki, hikmətsiz olar. Daha tez və praktik həll ediləcək bir iş bu səbəbdən uzanar və çıxılmaz bir hala gələr. Bu isə həm insanın özünə, həm də ətrafındakı insanlara böyük çətinlik yaradar.

## Təvazökar olmaq insanı son sözü demək xəstəliyindən qoruyar

İnsan özünün haqlı çıxmasındansa, əvvəlcə, yanlarındakı müsəlman qardaşlarına sevgi ilə, hörmətlə, təvazökarlıqla, xoş münasibətlə yaxınlaşmalı, doğrunu bilsə belə,



mövzunu mütləq onların könüllərini alaraq, mehribanlıqla, onların razı qalacaqları şəkildə həll etməlidir. İnsanın doğru olan bir şeyi tətbiq etməsinin bir sıra gözəl yolları var. İnsanın gözəl əxlaq xüsusiyyətlərinə əhəmiyyət vermədən, yalnız doğru bildiyini söyləyib keçməsi isə Quran əxlaqına uyğun deyil.

Bundan əlavə, insanın hər zaman, hər mövzuda mütləq ən doğru olanı bilməsi çox çətindir. Hər insanın ətrafındakı insanlardan öyrənəcəyi, istifadə edəcəyi, fikir mübadiləsi aparacağı, nümunə götürəcəyi bir çox mövzu var. Bəzən bir nəfərin heç düşünə bilmədiyi bir məsələ heç gözlənilməyən bir nəfərin ağlına gələ bilər. Allah hər kəsə bir mövzunun fərqli cəhətlərini göstərib hər birinə fərqli üsullarla düşünmələrini ilham edə bilər.

Buna görə də, insanın özündən başqa heç kimi söz sahibi qəbul etməməsi, özündən başqasının sözünü dinləməməsi və mövzuya nöqtə qoyanın həmişə yalnız özünün olmasını istəməsi məqbul əxlaq deyil.

Allah Quranda elmini dilədiyi şəxsə verə biləcəyini və hər biləndən üstün bir bilən olduğunu bildirmişdir:

**... Biz istədiyimiz kimsəni dərəcələrlə yüksəldərik. Hər biləndən üstün bir bilən də vardır! (Yusuf surəsi, 76)**

Bir müsəlman dünyanın ən ağıllı insanı olsa belə, yenə də mömin qardaşlarına qarşı təvazökar olmalıdır. Quran əxlaqına uyğun olan davranış budur. Mömin ən yaxşı bildiyi bir mövzuda belə bu əxlaqın tələbi olaraq son sözü başqalarının öhdəsinə buraxmalı, hər kəsin fikrinə hörmət etməli, nəzakətlə və könül alaraq hərəkət etməlidir.

## Hər şey uca olan Allahın ilhamı ilə həyata keçir

**Ey iman gətirənlər! Allaha və Elçisinə itaət edin, həm də özünüzdən olan rəhbərlərə. Əgər bir şey haqqında mübahisə etsəniz, Allaha və axirət gününə inanırsınızsa, Allaha və Elçisinə müraciət edin. Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır. (Nisa surəsi, 59)**

Yuxarıdakı ayədə bildirildiyi kimi, uca olan Allah möminlərə öz ağıllarına güvənərək hərəkət etməmələrini və son sözü özlərinin deməmələrini, əksinə, elçinin və özlərindən olan rəhbərlərin düşüncələri yönündə hərəkət etmələrini, anlaşılmazlığa düşdükləri mövzularda isə məsələnin xeyirli şəkildə həll edilməsi üçün elçiyə müraciət etmələrini əmr edir. Əslində, bu ayədə Rəbbimiz Allah çox açıq olan həqiqətə diqqət çəkir. Bu, hər şeyin Rəbbimizin idarəsi altında olduğu həqiqətidir. Çünki anlaşılmazlığa düşülən mövzu da, ortaya çıxan fikir də, əmr də, hamısı Allahın ilhamı ilə reallaşdığından hər şey uca olan Allaha aiddir








# Canlılardakı qüsursuz simmetriya

**Həqiqətən, göylərdə və yerdə möminlər üçün dəlillər vardır. Sizin yaradılışınızda və (Allahın yer üzünə) yaydığı canlılarda qəti iman gətirmiş insanlar üçün neçə-neçə dəlillər vardır. (Casiyə surəsi, 3-4)**

Əlinizə bir cüt balıqqulağı götürün və simmetrik şəkildə qarşı-qarşıya qoyun. Xətlərin düzülüşündə, böyükdən kiçiyə doğru sıralanmasında qüsursuz bir nizam və simmetriya görəcəksiniz. Təbiətdəki hansı canlı araşdırılırsa araşdırılsın, hər dəfə fövqəltəbii nizam, qüsursuz simmetriya və bənzərsiz rəng müxtəlifliyi görünəcək.

Güzgüdə üzünüzə baxın, qüsursuz simmetriya görəcəksiniz. Əlinizə bir jurnal götürüb vərəqləyin. Vərəqlədiyiniz səhifələrdə qarşınıza çıxan insanlar, quşlar, çiçəklər və kəpənəklər də eyni simmetriyaya malikdir.

Kainatdakı hər şeyin öz-özünə və təsadüfən ortaya çıxdığını iddia edən təkamül nəzəriyyəsinin müdafiəçiləri təbiətdəki rəng müxtəlifliyi, nizam və simmetriya qarşısında heç nə deyə bilmirlər. Bu cür qüsursuz bir nizamın özbaşına və təsadüfən ortaya çıxmayacağı aydındır. Təkamülçülərin qarşıya qoyduqları heç bir iddia ilə təbiətdəki canlıların rənglərinin, naxışlarının, simmetriyanın meydana gəlməsini izah etmək mümkün deyil. Bu, hər bir ağıllı insanın dərhal görəcəyi qədər açıqdır. Belə ki, təkamül nəzəriyyəsinin banisi olmasına baxmayaraq, Çarlz Darvin də bu həqiqəti etiraf etmək məcburiyyətində qalmışdır:

"Parlaq rənglilik, erkək balıqların kürt yatması, parlaq dişi kəpənəklər – bu gözəlliyin təbii seçmə ilə reallaşdığını düşünə bilmirəm".

Əlbəttə ki, ətrafımızda gördüyümüz saysız-hesabsız gözəlliyin, əlvan kəpənəklərin, güllərin, bənövşələrin, çiyələklərin, albalıların, göz oxşayan rəngləri ilə tutuquşuların, tovuzquşlarının, leopardların, qısaca desək, bütün ehtişamı ilə yer üzünün təsadüfən meydana gəldiyini heç bir ağıllı və məntiqli insan iddia edə bilməz.

Canlılar bu xüsusiyyətlərə sahib olaraq Allah tərəfindən yaradılmışlar. Allahın elmi hər yeri əhatə etmişdir. Ondan başqa ilah yoxdur.

## Kəpənəklərdəki simmetriya

Yan tərəfdəki şəkildə kəpənəklərin qanadlarını ilk dəfə görürmüş kimi araşdırın. Qüsursuz estetika və simmetriya, göz oxşayan rənglər və naxışlar qarşısında, şübhəsiz ki, heyran olacaqsınız.

İndi bir parçanı düşünün. Bu, kəpənək naxışlarından ilhamlanıb toxunmuş, çox estetik

və keyfiyyətli bir parçadır. Belə bir parçanı mağaza vitrinlərində gördüyünüz zaman nə düşünürsünüz? Çox güman ki, bu parçanın naxışlarını çəkən, çəkərkən də kəpənək qanadlarındakı naxışları nümunə götürən bir sənətkarın varlığı ağlınıza gəlir və onun sənətini təqdir edirsiniz. Elə isə bu həqiqəti təqdir etməlisiniz: heyranlıq duyduğunuz sənət kəpənəkləri nümunə götürərək parçanı bəzəyənə deyil, kəpənək qanadlarındakı naxışları və rəngləri nümunəsiz olaraq yaradan Allaha aiddir. Kəpənəklərin rəngli və fərqli naxışlara sahib olan qanadları Allahın rəng sənətinin ehtişamlı təcəllisindən biridir. Belə ki, bir parça naxışı özbaşına, təsadüfən ortaya çıxmadığı kimi, qanadlardakı rəng və naxış simmetriyası da qətiyyən təsadüfən meydana gələ bilməz.





Şəkildə gördüyünüz kəpənəklərin yeganə heyrətamiz xüsusiyyətləri sahib olduqları möhtəşəm qanadlar deyil. Kəpənəklərin bədən dizaynı da qüsursuzdur. Kəpənəklər çiçəklərin nektarı ilə qidalanırlar. Kəpənəklərin bir çoxunda dərində olan nektarı almaq üçün xortumcuq (proboscis) adlandırılan bir orqan var. Proboscis çiçəklərdəki nektar kimi maye qidaları əmmək, ya da su içmək üçün istifadə edilən uzun dildir. Kəpənəklər uzun dillərini istifadə etmədikləri zaman içəriyə doğru sarıyırlar. Bu dil uzanmış halda kəpənəyin boyundan 3 dəfə uzun olur.

Kəpənəklərin də digər həşəratlarda olduğu kimi, skeletləri var. Bu xarici skelet yumşaq toxumaya sahib olan sərt təbəqələrdən meydana gəlir və zirehli paltara bənzəyir. Bu təbəqə xitin maddəsindən ibarətdir. Bu təbəqənin meydana gəlməsi çox maraqlıdır.

Məlumdur ki, kəpənək tırtılları metamorfoz prosesi keçirirlər. Tırtıl əvvəlcə pup olur, sonra kəpənəyə çevrilir. Bu dəyişmə ərzində qanadlarda, bığcıqlarda, ayaqlarda və digər orqanlarda kiçik dəyişikliklər meydana gəlir. Uçuş əzələləri, qanadlar kimi müxtəlif mərkəzlərdəki hüceyrələrdə dəyişikliyin hər mərhələsində özlərini yenidən nizamlayır. Bundan başqa, bədəndəki hər sistem də (həzm sistemi, ifrazat sistemi və tənəffüs sistemi) dəyişir.

Kəpənəklərin sahib olduqları dizayn müxtəlifliyi sonsuz güc sahibi olan Allaha aiddir. Allah hər canlıya ehtiyacı olan xüsusiyyətləri verəndir.

**Allah, Ondan başqa ilah yoxdur. Diridir, Qaimdir. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, (məxluqatın) gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**



# PEYĞƏMBƏRİMİZİN (S.Ə.V) ŞƏHİD EDİLMƏMƏSİ ALLAHIN BÖYÜK MÖCÜZƏSİDİR

Peyğəmbərimizin (s.ə.v) haqqa və doğruya dəvəti haqsızlıq və zülmdən mənfəət əldə edən, mövqelərini itirməkdən qorxan bəzilərinin Peyğəmbərimizə (s.ə.v) və onunla birlikdə olan möminlərə müxtəlif tələlər qurmasına səbəb olmuşdur. Çünki Peyğəmbərimizin (s.ə.v) açıqladığı həqiqətlərlə əllərində olan dünyəvi mənfəətlərin böyük əksəriyyəti bir anda dəyərini itirmişdir. Təkəbbürlü olduqlarına görə, o vaxta qədər sitayiş etdikləri bütlərə bağlılıqda israr etmiş, batil inanclarından əl çəkmək istəməmişlər. Əksinə, Peyğəmbərimizi (s.ə.v) ya din əxlaqından uzaqlaşdırmaq, ya da şəhid etmək üçün birlikdə plan qurmuşlar. Halbuki, iman gətirməyənlər Peyğəmbərimizi (s.ə.v) uca Allahın qoruduğunu bilmirdilər.

Peyğəmbərimiz (s.ə.v) Allahın razılığını hər şeydən üstün tutan, Allahın rəhmətini və Cənnətini ümid edən, çox güclü imana malik müsəlmandır. Peyğəmbərimizi (s.ə.v) mübarizəsindən ayırmaq üçün çoxlu tələlər quran müşriklərin başçıları bu məqsədlərinə nail olmadıqda Peyğəmbərimizi (s.ə.v) sürgün etmək, həbs etmək və nəhayət şəhid etmək üçün xain planlar qurmağa başlamışdılar. İslam mənbələrində bu tarixi fakt belə verilir:

İbn İshaqın rəvayətinə görə, Qureyş qəbiləsi birlikdə Rəsulullah (s.ə.v) haqqında məsləhətləşib bir-birinə belə dedilər: **“Bu şəxsin vəziyyətinin hansı səviyyəyə çatdığını görürsünüz”. Bunu müzakirə etməyə başladılar. Aralarından biri: “Onu həbs edək, kimsə ilə görüşməsinə imkan verməyib ölənə qədər oradan çıxarmayaq! Həyatda qalması üçün yemək verək!..”- dedi. Ancaq bu təklif etirazlara səbəb oldu. Belə bir hərəkət qarışıqlığa səbəb ola bilərdi.**



**Onlardan biri: "Onu həbs etməyək, Məkkədən sürgün edək..."- desə də, bu da uyğun hesab edilmədi. Çünki: "Muhəmməd (s.ə.v) ərəblərin hər hansı qəbiləsinə gedər, gözəl sözləri ilə onları özünə bağlayar, arxasınca aparar və bizdən intiqam alar..."- dedilər. Bu zaman Əbu Cəhl belə dedi: "Muhəmmədi (s.ə.v) öldürməkdən başqa çarə yoxdur." (Siret Ansiklopedisi, 3-cü cild, səh. 104)**

## Allah inkarçıların tələlərini pozulmuş şəkildə yaradır

Hədislərdə Peyğəmbərimiz hz. Muhəmmədin (s.ə.v) ən böyük düşmənlərindən biri kimi tanınan Əbu Cəhlin Allahın elçisini şəhid etmək üçün daima fürsət güddüyü rəvayət edilir. İmam Buxari bu barədə İbn Abbasdan belə rəvayət etmişdir:

**Əbu Cəhl: "Əgər Muhəmmədi (s.ə.v) Kəbədə namaz qılarkən görsəm, boynunu əzəcəm!"- dedi. Allah Rəsulu (s.ə.v) belə buyurdu: "Əgər bunu etsəydi, mələklər gəlib hər kəsin gözü önündə onu tutacaqdılar". (İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (s.a.v.) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 317)**

**İbn İshaq, Beyhəki və Əbu Nuaym da İbn Abbasdan belə rəvayət ediblər: "... Rəsulullah (s.ə.v) səcdəyə gedəndə Əbu Cəhl böyük bir daş alıb ona tərəf getdi. Daşı atmaq istədikdə qorxudan rəngi qaçmış, əli daşa yapışmış şəkildə geri qayıtdı. Qorxusundan əlindəki daşı başqa tərəfə atdı. Qureyşlillər bunu gördükdə belə dedilər: "Nə olub, danış görək!" Belə cavab verdi: "Ona yaxınlaşdıqda böyük dəvə gördüm. Həyatımda başı və boynu o qədər böyük dəvə görməmişdim. Əgər daşı atsaydım, dəvə məni azı dişləri ilə parça-parça edərdi". Allah Rəsulu (s.ə.v) belə buyurdu: "Onun gördüyü Cəbrail (ə.s) idi. Mənə yaxınlaşsaydı, Cəbrail (ə.s) onu götürüb atacaqdı". (İmam Suyuti, Olağanüstü Yönleriyle Peygamberimiz (s.a.v.) el-Hasaisü'l-Kübra, Çeviri: Naim Erdoğan İz Yayıncılık, İstanbul, 2003, s. 317)**

İman gətirməyənlərin və müşriklərin qurduğu bu planlar bir Quran ayəsində belə xəbər verilmişdir:

**Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) çıxardıb qovmaq**



**üçün sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır! (Ənfal surəsi, 30)**

Ayədə buyurulduğu kimi, Rəbbimiz tədbir tökənlərin ən xeyirlisidir və onların bütün tələlərindən Peyğəmbərimizi (s.ə.v) qorumuşdur. Allahın **"... onların hiyləsi sizə heç bir zərər yetirməz. Şübhəsiz ki, Allah onların nə etdiklərini biləndir. (Ali-İmran surəsi, 120)"** ayəsinin hökmünə uyğun olaraq möcüzəvi şəkildə Peyğəmbərimizə heç bir zərər verə bilməyiblər.

Bütün gücün sahibi olan Allah Quranda **"... Göylərin və yerin orduları Allahındır. Allah Biləndir, Hikmət sahibidir. (Fəth surəsi, 4)"** ayəsi ilə xəbər verdiyi kimi, yer üzündəki bütün insanları da, orduları da qüdrəti ilə ehtiva edəndir. İman gətirməyənlər Allahın sonsuz gücünü təqdir edə bilmədikləri üçün Peyğəmbərimizə (s.ə.v) əllərini uzatmağa cəhd etmişdilər. Əvəzində Allah iman gətirməyənlərin Peyğəmbərimizə (s.ə.v) qurduğu tələləri pozmaq üçün Quranda **"Onlar hiylə qurdular, Allah da hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır. (Ali-İmran surəsi, 54)"** ayəsi ilə xəbər verildiyi kimi, ən qüsursuz hiyləni qurmuşdur. İman gətirməyənlər yaxşılığına və gözəl əxlaqına şəxsən şahid olduqları Allahın elçisi hz. Muhəmmədə (s.ə.v) qarşı gizli planlar qurarkən Allahın onları eşitdiyindən və gördüyündən xəbərsiz idilər. Beləliklə, münafiqlər və öndə gedən inkarçılar, əslində, özlərinin tələyə düşəcəklərini anlamayıblar:

**Onlar hiylə qurdular. Onların hiyləsi Allah dərgahında məlumdur. Onların hiyləsi ilə dağlar yerindən oynayan deyildir! (İbrahim surəsi, 46)**



## Peyğəmbərimiz (s.ə.v) uca Allahın qoruduğu mübarək şəxsdir

Müşriklərin və kafirlərin Peyğəmbərimizi (s.ə.v) şəhid etmək məqsədi ilə xain planlarını həyata keçirmək üçün maddi və mənəvi imkanlarının olmasına baxmayaraq, əsla buna nail ola bilməmişlər. Çünki Peyğəmbərimiz (s.ə.v) Allahın mühafizəsi ilə hərəkət edən mübarək şəxsdir. Hədislərdə Peyğəmbərimizi (s.ə.v) şəhid etmək üçün bütün qəbilələrdən gənc, güclü, silahlı insanların tapıldığı xəbər verilir. Bununla yanaşı, Peyğəmbərimizi (s.ə.v) qılıncla şəhid etməyə gələn çox sayda insan var. Hədislərdə bu insanların birlikdə, eyni anda hz. Muhəmmədə (s.ə.v) hücum edərək onu şəhid etməyi planlaşdırdığı bildirilir. Buna baxmayaraq, Peyğəmbərimizin (s.ə.v) şəhid edilməməsi, Allahın kafirlərin və müşriklərin tələsini hər dəfə pozması Peyğəmbərimizin (s.ə.v) başına gələn çox böyük möcüzələrdəndir. Peyğəmbərimizin (s.ə.v) üstünlüyünü anlamayan kafirlər, əslində, hər şeyin tək hakimi olan Allahın gücünü təqdir edə bilmirlər. Allahın mühafizəsi altında olan Peyğəmbərimizi (s.ə.v) məğlub edə biləcəklərini düşünmələri, əlbəttə, onların qəflətdə olduğunu göstərir. Çünki onlar sonu əvvəlcədən müəyyən olan, özlərinin məğlubiyyəti ilə nəticələnəcək mübarizəyə qoşulublar. Allah bir ayədə belə buyurur:

Allah: **"And olsun ki, Mən və elçilərim qalib gələcəyik!" – deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir! (Mücadilə surəsi, 21)**

Allah başqa bir ayədə Peyğəmbərimizə (s.ə.v) kimsənin zərər verə bilməyəcəyini, Allahın, Cəbrailin, mələklərin və saleh möminlərin onun dostu, köməkçisi, dəstəkçisi olduğunu belə xəbər verir:

**Əgər ikiniz də (Allaha tövbə etsəniz çox yaxşı olar). Çünki qəlbləriniz (günaha) meyil etdi. Əgər ona qarşı bir-birinizə kömək etsəniz, onun mövlası Allah, yardım göstərənləri isə Cəbrail, əməlisaleh möminlər və bundan sonra da mələklərdir. (Təhrim surəsi, 4)**





# CİNLƏR VƏ YADPLANETLİLƏRİN BİLİNMƏYƏN SİRLƏRİ

Cinlər haqqında əsrlərlə bir çox iddia irəli sürülmüşdür. Ancaq hər sahədə olduğu kimi, cinlər haqqında da doğru məlumat alacağımız mənbə müqəddəs kitabımız Qurani-kərimdir.
Quranda cinlərin yaradılışı, insanlarla münasibətləri, həyat tərzi haqqında bir çox məlumat verilmişdir.
Quranda cinlərin oddan yaradıldığı bildirilir. Mövzu ilə əlaqədar ayələr belədir:

**Cannı (cini) da tüstüsüz oddan O xəlq etdi. (Rəhman surəsi, 15)**

**Cannı daha öncə qızmar oddan xəlq etmişdik. (Hicr surəsi, 27)**

Quran ayələrinə nəzər saldıqda cinlərin də eynilə insanlar kimi həyatı olduğu məlum olur. Ayələrdən cinlərin də gəlib-getmiş ümmətlərindən bəhs edilir. Onların da nəsilləri, əcdadları var **("Əraf" surəsi, 38; "Kəhf" surəsi, 50).** Ancaq cinlər insanlardan fərqli məkan ölçüsündə yaşayır, insanları görür, söhbətlərini dinləyirlər.

Allah cinlərin yaradılış məqsədini **"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım! (Zəriyət surəsi, 56)"** ayəsi ilə bildirmişdir. Onlar da elçilər və elçilərə nazil edilən kitablar vasitəsilə xəbərdar edilib qorxudulur, dünya həyatındakı əməlləri ilə sınanır, ibadət və itaət edir, nəticədə Allahdan qarşılıq alırlar. Allah Quranda belə bildirir:

**Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə sizə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi? Onlar deyəcəklər: "Biz öz əleyhimizə şahidik!" Dünya həyatı onları aldatdı və onlar kafir olduqları barədə öz əleyhlərinə şəhadət verdilər. (Ənam surəsi, 130)**
Ayədə də bildirildiyi kimi, cinlərlə insanların imtahanları bir-birinə çox bənzəyir. Onların da bəziləri dünya həyatının müvəqqəti bər-bəzəyinə aldanır, xəbərdar edildikləri halda, doğru yoldan uzaqlaşırlar. Ayələrdən cinlərin peyğəmbərlərin

təbliğini dinlədikləri, Quran oxunarkən eşidib öyrəndiklərini öz tayfalarına danışdıqları məlum olur. Allah **“Əhqaf”** surəsində cinlərin Hz. Muhəmmədin (s.ə.v) təbliğini dinlədiklərini belə bildirir:

**Onu da xatırla ki, bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə hazır olduqda: “Qulaq asın!” – dedilər və (Quran oxunub) qurtardıqdan sonra qorxudanlar sifətilə öz qövmlərinin yanına qayıtdılar. Onlar dedilər: “Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiq edən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik! (Əhqaf surəsi, 29-30)**

Allah bir çox Quran ayəsində cinlərə və insanlara birlikdə müraciət edir, müxtəlif öyüd-nəsihətlər verir və onları cəhənnəm əzabı ilə qorxudur. “Əraf” surəsinin 38-ci ayəsində Allah: “Sizdən əvvəl gəlib-getmiş cin və insan tayfaları ilə birlikdə Cəhənnəmə girin!..” - buyurur. Hz. Muhəmmədə (s.ə.v) hidayət rəhbəri kimi nazil edilən Quranı təkzib edən cin və insanların vəziyyəti isə “İsra” surəsində belə bildirilir:

**De: “Əgər insanlar və cinlər bir yerə yığışıb bu Qurana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər”. (İsra surəsi, 88)**

Allahın cin və insanlara birlikdə müraciət etdiyi ayələrdən bəziləri belədir:

**Belələri özlərindən əvvəl gəlib getmiş və insanlardan ibarət ümmətlərlə birlikdə haqlarında əzab sözünün gerçəkləşdiyi kimsələrdir. Onlar, doğrudan da, ziyana uğrayanlardır! (Əhqaf surəsi, 18)**

**Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məHz onlardır! (Əraf surəsi, 179)**

## İman gətirən cinlər

Ayələrdə cinlərdən bir qisminin Allaha iman gətirib doğru yola tabe olduqlarından, bir qisminin də iman gətirmədiyindən bəhs edilir. Müsəlman cinlər Quran oxunarkən onu dinləyirlər:

**De: “Mənə vəhy olundu ki, bir dəstə cin dedi: “Biz çox heyrətamiz bir Quran eşitdik. O,**





**doğru yola yönəldir. Biz ona iman gətirdik və biz bir daha heç kəsi Rəbbimizə şərik qoşmayacağıq. Həqiqətən, Rəbbimizin calalı çox ucadır. O, Özünə nə bir zövcə götürmüşdür, nə də bir uşaq! (Cinn surəsi, 1-3)**

Cinlərin bəziləri Allahı təqdis edib şanını ucaldan, Ona heç kimi şərik qoşmayan müsəlman varlıqlardır. Qurana heyrandırlar, Allahın əmr və tövsiyələrini yerinə yetirirlər. Onlar öz aralarında iman gətirməyən cinlərin olduğunu bilir və bunu belə ifadə edirlər:

**Doğrusu, bizim səfehlərimiz Allah barəsində tamamilə yalan söyləyirmiş. Biz elə güman edirdik ki, insanlar da, cinlər də Allaha iftira atmazlar. (Cinn surəsi, 4-5)**

Cinlər öz aralarında müxtəlif qruplardan təşkil olunublar. Bəziləri səmimi müsəlman, bəziləri müşrik, bəziləri Allaha iftira atanlardır. **"Cinn"** surəsinin ardında cinlərdən iman gətirən cinlər haqqında bu ümumi məlumatları verirlər:

**Şübhəsiz ki, aramızda əməlisaleh olanlar da var, olmayanlar da. Biz müxtəlif firqələrə ayrılmışıq. Biz anladıq ki, yerdə də olsaq, (göyə də) qaçsaq, Allahdan (Allahın əzabından) canımızı qurtara bilmərik. Doğrusu, biz hidayət yolunu göstərəni (Quranı) dinlədiyimiz zaman ona iman gətirdik… (Cinn surəsi, 11-13)**

Cinlər də eynilə insanlar kimi Allahın kitabından məsuldurlar. Onları da bütün əməllərinə görə Allah sorğu-sual edəcək və heç bir haqsızlığa məruz qalmadan əməllərinin əvəzini alacaqlar. İman gətirən cinləri Allah gözəl mükafatla müjdəmişdir:

**... Kim Rəbbinə iman gətirsə, nə (yaxşı əməllərinin mükafatını) əskilməsindən, nə də haqsızlığa məruz qalmaqdan qorxar. Şübhəsiz ki, aramızda müsəlmanlar da var, (haqq yoldan) çıxanlar da. Müsəlman olanlar haqq yolu axtarıb tapanlardır. (Cinn surəsi, 13-14)**

Allaha iman gətirməyib zülm edənlərin sonunu Allah ayələrdə belə bildirir:

**(Haqq yoldan) çıxanlar isə Cəhənnəm üçün odun olacaqlar. (Cinn surəsi, 15)**

**... Mən Cəhənnəmi bütün (kafir) cinlər və insanlarla dolduracağam!.. (Hud surəsi, 119)**

## Hz. Süleymana xidmət edən cinlər

Ayələrdən Allahın iznilə cinlərlə insanların görüşməsi, hətta cinlərin insanların əmrinə tabe olduqları məlum olur. Allah cinləri Hz. Süleymanın əmrinə tabe etmiş, Hz. Süleyman onlardan müxtəlif işlərdə istifadə etmişdir:

**... O, yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab içində qalmazdılar. (Səba surəsi, 14)**

Quranda cinlərin gələcəyə dair xəbərləri bilmədiyi açıqlanmışdır. Buna görə, cinlərin Allahın izni olmadan insanlara qeybdən



xəbər verməsi mümkün deyil. Belə ki, **"Səba" surəsinin 14-cü ayəsində** xəbər verildiyi kimi, Hz. Süleymanın ölümündən sonradan xəbərdar olmaları buna dəlildir. Habelə, **"Nəml" surəsinin 65-ci ayəsində** bildirildiyi kimi: "Allahdan başqa göylərdə və yerdə olan heç kəs qeybi bilməz!.."

Bundan əlavə, Quranda cinlərdən İfrit Hz. Süleymana o hələ yerindən qalxmadan Səba məlikəsinin taxtını gətirə biləcəyini söyləmiş və: **"Mən bu işi görməyə çox qüvvətliyəm, etibarlıyam! (Nəml surəsi, 39)"** - deyə bildirmişdir. Bu, onun bir yerdən başqa yerə böyük sürətlə hərəkət etdiyinə, bir maddəni başqa yerə apara bildiyinə işarə edə bilər (ən doğrusunu Allah bilir).

## Cinləri Allaha şərik qoşanlar

Bəzi insanlar cinlərin özlərinə aid gücü olduğuna inanırlar. Halbuki, bu, çox böyük səhvdir. Çünki cinləri yaradan Allahdır və onların özlərinə aid heç bir gücü yoxdur. Allah istəməsə, onlar hər hansı insana zərər və ya fayda verə bilməzlər. Ancaq buna baxmayaraq, insanların bir qismi cinlərə pənah aparırlar:

**Cinləri (Allah) yaratdığı halda, onları Allaha şərik qoşdular, bilmədən Onun üçün oğullar və qızlar uydurub düzəltdilər. Allah isə onların Ona aid etdikləri sifətlərdən uzaqdır (pakdır) və ucadır. (Ənam surəsi, 100)**

Allah Quranda insanların cinlərlə əlaqə quraraq azdıqlarını belə bildirir:

**Həqiqətən, insanlardan bəziləri cinlərin bəzilərinə sığınırdılar. (Bu isə) onların azğınlığını artırırdı. (Cinn surəsi, 6)**

Bir ayədə mələklərin də bəzi insanların cinlərə ibadət etdiklərini bildirdikləri belə xəbər verilir:

**(Mələklər) deyirlər: "Sən paksan, müqəddəssən! Onlar deyil, Sənsən bizim Hamimiz! Xeyr, onlar cinlərə ibadət edirdilər. Əksəriyyəti də məHz onlara iman gətirmişdi". (Səba surəsi, 41)**

İnsanların cinləri Allaha şirk qoşmalarının və onlardan yardım gözləmələrinin ən mühüm səbəblərindən biri, yuxarıda da bildirdiyimiz kimi, onların qeybi bildiklərini düşünmələridir. Halbuki, bu, səhvdir. Çünki Allah Quranda cinlərin qeybi bilmədiklərini bildirir **(Səba surəsi, 14).** Ayələrdə cinlərin insanlar üçün yolgöstərici olmadığı, hətta insanları doğru yoldan azdırmaq üçün onlara cəlbedici sözlər pıçıldadığı bildirilir. Ancaq unutmaq olmaz ki, Allah istəməsə, cinlərin insanlar üzərində təsiri olmaz. Onları Allah yaratmışdır və onlar da kainatdakı bütün canlılar kimi, Allahın əmri ilə hərəkət edirlər:

**Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar aldatmaq məqsədilə bir-birinə təmtəraqlı sözlər təlqin edərlər. Əgər Rəbbin**



**istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə tərk et! (Ənam surəsi, 112)**

Həm insanları doğru yoldan azdıran cinlər, həm də cinlərdən Allaha şərik qoşanları Allah sonsuz cəhənnəm əzabı ilə cəzalandıracaq. Dünya həyatında cinlərin təmtəraqlı sözlərinə aldananlar axirətdə çox böyük səhv etdiklərini anlayacaqlar. Çünki o gün bütün şirk qoşduqları şeylər onlardan uzaqlaşacaq, Allahın hüzurunda tək olduqlarını dərk edəcəklər. Cəhənnəm əzabı ilə cəzalandırılacaqlarını anladıqda isə belə yalvaracaqlar:

**Kafir olanlar dedilər: "Ey Rəbbimiz! Cinlərdən və insanlardan bizi azdıranları bizə göstər ki, onları ayaqlarımızın altına salaq, yerlə yeksan olsunlar!" (Fussilət surəsi, 29)**



Başqa bir ayədə onların odda əbədi qalacağını Rəbbimiz belə bildirir:

**Onların hamısını toplayacağı gün (deyəcəkdir): "Ey cin tayfası! Artıq siz insanlardan bir çoxunu özünüzə tabe etdiniz". Onların insanlardan olan dostları isə deyəcəklər: "Ey Rəbbimiz! Biz bir-birimizdən faydalandıq və bizim üçün müəyyən etdiyin əcəlimizə yetişdik". (Allah) deyəcək: "Sizin qalacağınız yer Oddur. Orada əbədi qalacaqsınız. Allahın istədikləri isə istisnadır". Həqiqətən, Rəbbin Müdrikdir, Biləndir. (Ənam surəsi, 128)**

## Cənab Adnan Oktarın cinlər haqqında verdiyi məlumatlar

### Cinlərin görünüşü necədir?

*"Cinlər, adətən, insanları narahat etmək istəmirlər. Görünüşləri belədir: cinlərin ayaq ucları konus kimi olur, yəni ayaq ucları itidir. Sırf bu xüsusiyyət bir insana narahat olması üçün kifayət edər. Bir qismi uzun boylu olur. Bir qismi çox qısa boylu olur. Onların ənənəvi geyimlərindən biri papaqdır, qırmızı papaq qoyurlar, uzun, ucu şiş qırmızı papaqları olur, dünyanın hər yerində onları görənlər belə görür, yəni bu onların klassik görünüşləridir. Amma istəyəndə bir heyvan görünüşünə də girə bilirlər. Məsələn, əqrəb, pişik, ilan şəklinə də girə bilirlər. Yəni cinlər çox qabiliyyətlidirlər. Cin əşya şəklinə də girə bilər. Amma insanları qorxutmalarını Allah qadağan etmişdir. Yəni insanlara yanaşa bilmirlər, o şəkildə görünə bilməzlər. Üzləri də o qədər düzgün olmur. Lakin istəyəndə çox gözəl insan şəklinə girə*



*bilərlər. Məsələn, çox gözəl bir qadın görünüşünə, gözəl bir insan görünüşünə girə bilərlər. Yəni o qabiliyyətləri də var, amma normal halları məqbul deyil. Onun üçün də insanlarla o cür görüşmək istəməzlər. Bəzən suda görünmə hadisələri olur, bu da insanları qorxudur. Yəni suda görünə bilərlər. Görmələrini tövsiyə etmirəm. Lakin çox əhəmiyyətli mövzularda məlumat almaq üçün ola bilər, yəni çox həyati mövzularda, dəhşətli bir mövzudursa, yəni müsəlmanlar, həqiqətən, çətin vəziyyətdədirsə, məlumat almaq olar."* (Cənab Adnan Oktarın 31 oktyabr 2009-cu il tarixli Samsun Aks TV və TV Kayseri müsahibəsindən)

*Unutmaq olmaz ki, cinlər eynilə insanlar kimi Allaha qulluq etmək üçün Allahın yaratdığı varlıqlardır. Özlərinə aid heç bir gücləri yoxdur, Allahın izni olmadan heç kimə zərər verə bilməyəcəkləri kimi, fayda da verə bilməzlər. Onlar da bütün insanlar kimi dünya həyatında imtahan olunurlar və əməlləri ilə axirətdə qarşılıq görəcəklər. Cinləri fərqli bir aləmdə yaradan aləmlərin, göylərin, yerin və bu ikisi arasındakıların Rəbbi, aləmlərdən münəzzəh olan uca Allahdır.*

## Cinlər işıq sürəti ilə hərəkət etdikləri üçün onların zamanı ilə bizim zamanımız eyni deyil

*"Cinlər çox yaşayırlar. Məsələn, 1300 il, 1400 il yaşayırlar. Yəni işıq sürəti ilə hərəkət etdikləri üçün onların zamanı ilə bizim zamanımız eyni deyil. Normal halda, onlar bizim kimi yaşayır, amma işıq sürəti ilə hərəkət etdirlər". (Cənab Adnan Oktarın 31 oktyabr, 2009-cu il tarixli Samsun Aks TV və TV Kayseri müsahibəsindən)*

## Cinlər hansı dildə danışırlar?

*"Onların öz dilləri var. Əcaib bir dildir. Başa düşmək mümkün deyil. Yadplanetli dili kimi. Özlərinə xas xüsusi dilləri var. Amma hər cür dili də anlayırlar. Yəni belə düşünə bilərik. O ölkədə yaşayanlar, o ölkənin dilini öyrənə bilərlər. Məsələn, Fransadakı bir cin bir anda Türkiyəyə gələ bilər. Yarım saniyədə gəlir. Bu səbəbdən, bu qədər dil bilirlər. Çünki bilmədikləri bir şey yoxdur".* (Cənab Adnan Oktarın 25 may, 2010-cu il tarixli HarunYahya TV müsahibəsindən)

## Cinlərlə əlaqə qurmaq mümkündür, amma ruhlarla əlaqə qurmaq mümkün deyil

**ADNAN OKTAR:** *İnsanlar bəzən cinləri ruh zənn edirlər. Deyirlər ki, ruh gəldi. Ruh heç bir şəkildə gəlməz. Yəni gedən ruh bir daha gəlməz. Hz. İsa əleyhissalam gələcək, amma o axirətə getməmişdir. Başqa bir zaman ölçüsündədir. Axirətə gedəndən sonra gəlməz, inşaAllah. Yəni Allah ruhaniyyətini göndərə bilər. Bəzən bəzi vəlilərin ruhaniyyətini göndərər. Kəramət olaraq gələ bilərlər ruhaniyyətləri. Amma cismən gəlməzlər. Hz. İsa əleyhissalam cismən gəlir. Çünki cisim olaraq alınmışdır, cismən gələcəkdir. Lakin cinlər elə deyil.* (Cənab Adnan Oktarın 19 fevral, 2010-cu il tarixli Kahramanmaraş Aksu TV müsahibəsindən)

## Cinlərlə əlaqədar hürufü-müqəttada dərin sirlər var

Qeyd: Hürufü-müqəttə – Qurani-Kərimin bəzi surələrinin əvvəlində gələn ayələrdir. Əlif,



Lam, Mim, Ya, Sin kimi

**ADNAN OKTAR:** *Hürufü-müqəttanın cinlərlə də əlaqəsi var. Yəni cin çağırmaqda, cinlərlə əlaqədə Hürufu Müqəttanın dərin sirləri var. Yəni Hürufu-Müqətta cinlərin anladığı bir xitabdır. Bəli, onlarla əlaqədə, ha, mim, ta, sin, mim və digər hürufü-müqəttanın çox dərin sirləri var, inşaAllah. Cinlərin də çox təsirləndiyi bir üsuldur, inşaAllah. (Cənab Adnan Oktarın 16 mart 2010-cu il tarixli Harun Yəhya TV müsahibəsindən)*

## Cinlər insanlara müsəllət olmazlar

**APARICI:** *İnsanların cinlərdən təsirləndiyi və bu tip insanların olduğu cəmiyyətdə yaşayırıq, cinli insanların olduğu cəmiyyətdə yaşayırıq. İnsanlara zərər vermədiklərini söyləyirsiniz, amma insanlar bunun tam əksini söyləyirlər.*

**ADNAN OKTAR:** *Yox, elə bir şey olmaz. Yəni müsəllət oldu, belə oldu, elə oldu deyə izah edirlər. Belə bir şey yoxdur. Yəni qarabasma dedikləri hadisələrdə ya təzyiqləri yüksəlir, ya da narahatlıqları olur. Həkimimiz daha yaxşı bilər. Bunlar orqanik, tibbi narahatlıqlardır. Yəni belə şeylərdə özlərini zərərçəkmiş kimi göstərmələri həm komik olur, həm də xəcalətverici bir şeydir. Allaha dua etsinlər, Ayətül-kürsi oxusunlar, cinlərin o tərz bir xüsusiyyəti yoxdur.* (Cənab Adnan Oktarın 31 oktyabr, 2009-cu il tarixli Samsun Aks TV və TV Kayseri müsahibəsindən)

## Cinlər hər evdə olur

*"Normal evlərdə yaşayırlar. Ailəvi, hamısı bir yerdə, demək olar ki, hər evdə var. Amma onların heç kimə zərəri olmaz. Yəni insanların qorxmasına ehtiyac yoxdur". (Cənab Adnan Oktarın 27 mart 2010-cu il tarixli Qaziantep Olay TV müsahibəsindən)*

## UNO-lar cinlərin nümayişləridir

*"Uçan dairə kimi görünənlər də, əslində, cinlərin nümayişidir. İşıq halında meydana gəlmələr, sonra metal görünüşünə çevrilmə, sonra birdən hissələrə ayrılıb yox olma və müxtəlif qoxular. Bunlar cinlərin klassik xüsusiyyətidir, anidən yox olma. Belə zaman-zaman insanlarla zarafatları olur". (Cənab Adnan Oktarın 5 may 2010-cu il tarixli Samsun Aks TV və TV Kayseri müsahibəsindən)*

*"Uçan naməlum obyektlər (UNO) cinlərin nümayişidir. Cinlər zaman-zaman metal görünüşü, insan görünüşü, pişik görünüşü, əqrəb görünüşü, quş görünüşü alarlar. Havada uçan şəkildə bir görünüş olur. Sonra o görünüş birdən itər, ani partlama ilə. Qoxuya çevrilə bilirlər. Məsələn, cinlər fərqli bir qoxu meydana gətirə bilərlər. Cinlərin klassik xüsusiyyətləridir. Yəni UNO deyə bir şey yoxdur. Cinlərin nümayişləri var".* (Cənab Adnan Oktarın 29 aprel 2010-cu il tarixli Harun



*Yəhya TV müsahibəsindən)*

## Bəzi masonlar dinsiz cinlərlə əlaqədədir

**ADNAN OKTAR:** *Əslində, bəzi masonlar cin çağırırlar. Çağırdıqları cinlər dinsiz cinlərdir. Şeytan deyilən cinlər, ateist cinlərdir. Məsələn, Bafomet... Daha dəyişik şəkildə təzahür edir. Yəni bu, masonların bir şəklidir. Bunu xatırladan tərzdə görünür. Onlar da yığıncaqda onun söylədiklərinə görə hərəkət edirlər. Yəni qeyd edirlər, nə söyləyirsə, nə izah edirsə, qeyd edirlər. Ayədə deyir, "Qabıq kimi üzərlərini örtdük", - deyir Allah. Bəzi masonlar şeytanlardan çox qorxurlar. Yəni, haşa: "Allahdan qorxan kimi, hətta daha çox qorxarlar", - deyir Allah ayədə. Yəni çox qorxurlar. Nə deyirsə, yerinə yetirirlər. Məsələn, müharibə edin desə, dərhal edirlər. Təbii, yəni hadisə çıxmasını istədiyində, qan tökülməsini istədiyində dərhal yerinə yetirirlər. Yəni Amerika, İngiltərə və İrlandiyadakı masonik quruluşlar bu tərzdədir. Cinlər olmazsa, ateist masonluğun fəaliyyəti olmaz. Cin şeytanlar olmasa, fəaliyyəti olmaz. (Cənab Adnan Oktarın 20 noyabr 2009-cu il tarixli Dem TV və Tempo TV müsahibəsindən)*

*Dünya kəşfiyyat təşkilatları da cinlərdən faydalanır, amma Hz. Mehdi (ə.s) dövründə cinlərin hamısı Hz. Mehdinin (ə.s) əmrində olacaq.*

*Allah belə bildirir, şeytandan Allaha sığınaram: "Rəbbinin izni ilə cinlərin bir qismi onun qabağında işləyirdi". O istiqamətdə qabiliyyətləri var. Əslində, dünya kəşfiyyatında, Rusiya kəşfiyyatında da cinlərdən istifadə edilir. Kəşfiyyatda istifadə edilir. Amma Hz. Mehdi (ə.s). Hz. Süleyman (ə.s) kimi olacaq, tam mənada cinlərə malik olacaq. CİA-nın cinləri də təsirsiz qalacaq o zaman, FBR-in cini də qalmaz. Rusiyanın istifadə etdiyi cin də qalmaz. Çünki bütün güc, qüvvə Allahın əlindədir. Allah müsəlmanların əmrinə verən kimi, cinlər də müsəlmanların əmrinə keçər.* (Cənab Adnan Oktarın 5 may, 2010-cu il tarixli Samsun Aks TV və TV Kayseri müsahibəsindən)

## Cinləri yaradan Allahdır

Unutmaq olmaz ki, cinlər də eynilə insanlar kimi Allaha qulluq etmək üçün Allahın yaratdığı varlıqlardır. Özlərinə aid heç bir gücləri yoxdur, Allahın izni olmadan heç kimə zərər və ya fayda verə bilməzlər. Onlar da bütün insanlar kimi dünya həyatında imtahan olunurlar və axirətdə əməllərinin qarşılığını alacaqlar. Aləmlərin, göylərin, yerin və bu ikisi arasındakıların Rəbbi, aləmlərə möhtac olmayan uca Allah cinləri başqa bir aləmdə yaratmışdır.

# HAMIDA QAN EYNİDİR?




Tarixdə ilk dəfə qan köçürülən xəstəyə bir heyvanın qanı verilmişdi. Xəstə qısa müddət sonra öldü və səbəbini heç kim anlamadı. Müxtəlif heyvanların qanları da işə yaramadıqda, insandan insana qan köçürməyi düşündülər. Qana ehtiyac olduqda qanının bol olduğunu düşündükləri və kortəbii seçilən bir neçə insandan qan köçürdülər. Ancaq bu sınaqların da çoxu uğursuzluqla nəticələndi. Qanköçürmə ilə məşğul olan həkimlər bu həyati əhəmiyyətə malik mayeni iki xüsusiyyətinə görə təhlil edib öyrənə bilmirdilər: qanın bədəndən kənarda laxtalanması və qan verilən insanın ölmə ehtimalı. Deməli, qanda həkimlərin bilmədiyi fərqli maddələr var idi. Biokimya adlı elm sahəsinin təşəkkülünə qədər bu fərqli maddələrin nə olduğu məlum deyildi.

XX əsrin əvvəllərində məlum oldu ki, qan adi qırmızı maye deyil. Hər insanın qanında onu digər insanlardan fərqləndirən müxtəlif faktorlar var. Ona görə, qanköçürmənin baş tutması üçün hər iki şəxsdə bu faktorlar uyğun olmalıdır. Qan qrupu insana məxsus xüsusi faktorların müəyyən edilməsidir. Qan qrupunu müəyyən edən 300-dən çox faktor var. Bu faktorların hər biri sizi digər insanlardan fərqləndirir.

Qanı tərkibindəki müxtəlif faktorlarla birlikdə hələ keçən əsrdə kəşf etmək mümkün olmuşdur. Halbuki qan ilk insan yaradıldığı andan bu günə qədər damarlarda hərəkət edir, funksiyasını yerinə yetirir. Bu, şübhəsiz ki, hər şeydə böyüklüyünü, yenilməz gücünü göstərən Allahın üstün yaratma sənətidir.

Qan qrupunu müəyyən edən xüsusiyyətlər eritrositlərdə (qırmızı qan hüceyrələri) yerləşir. Eritrositlərin qılafında 200 müxtəlif molekul arasında qana I, II və III qrup xüsusiyyətini verən xüsusi molekullar var. Eritrostilər ya II qrup, ya da III qrup molekullarını, nadir hallarda hər ikisini (IVqrup) birdən daşıyır və ya heç birini daşımır (I qrup).

Eritrositlərində II qrup molekullar olan insanların qanında III qrup molekullarına qarşı antikorlar olur. Bu, III qrup molekullarına qarşı müharibə deməkdir. Buna görə də II qan qrupuna mənsub insana III qrupa aid qan köçürdükdə immun sistemi bir neçə saniyə ərzində hərəkətə keçir və bu yad maddəni məhv etməyə çalışır. Nəticəsi isə çox ciddidir. Qan hüceyrələri partlayır, qan laxtalanır, böyrəklər və ağciyərlər funksiyasını yerinə yetirə bilmir. Təcili müdaxilə edilmədikdə ölüm labüd olur.

Qanlarında hər iki molekulu daşımayan insanlar, yəni I qan qrupuna mənsub insanlarda hər iki molekula qarşı antikor var. Onlar ancaq



bu iki molekula malik olmayan, yəni özləri kimi I qrupa mənsub insandan qan ala bilərlər. Qanlarında hər iki molekul olan IV qrupa mənsub insanlarda isə bu molekulların heç birinə qarşı antikor yoxdur. Ona görə, II və III qan qrupuna mənsub insanlardan da qan ala bilərlər.

Eritrositlərin tərkibində olan yuxarıdakı molekullar qədər əhəmiyyətə malik başqa molekul isə rezus faktorudur. Əgər bir insanın eritrositində bu molekul varsa, qan qrupu Rh müsbət (+), olmadıqda isə qan qrupu Rh mənfi (-) olur. Rezus faktorunun əhəmiyyəti hamiləlik zamanı qan uyğunsuzluğunda üzə çıxır. Rezus faktoru olmayan hamilə qadında doğuşdan qısa müddət sonra rezus faktoru olan körpəyə qarşı antikor əmələ gəlir. Bu antikorlar birinci uşağa zərər vermir. Ancaq rezus faktoruna malik ikinci uşaq anada artıq hazır olan antikorların hücumuna məruz qalır. Antikorlar körpənin orqanizmini hədəf alır, onun təzə eritrositlərini məhv edirlər. Körpədə qan azlığı və ürək xəstəlikləri üzə çıxır. Uşağın sağ doğulması çətindir, ancaq doğulsa da, orqanizmində eritrositlərin parçalanması nəticəsində bilirubin adlı zəhərli maddə əmələ gəlir. Bu maddə, əsasən, beyinə zərər verir və meydana gələn neyroloji problemlər hətta ölümlə nəticələnir.

Qan hələ keçən əsrdə tədqiq edilmişdir. Halbuki qan ilk insan yaradıldığı andan etibarən damarlarda hərəkət edir, funksiyalarını yerinə yetirir, müxtəlif maddələri, faktorları, molekulları tərkibində daşıyır. İnsanın bu möcüzəni tanıdığı halda, yenə də bu qədər aciz olması onun Allaha təslimiyyətini və heyranlığını daha da artırmalıdır.

Allah qüvvət və qüdrət sahibidir, hər şeyə qadirdir, Müqtədirdir. Təsvir edən, hər şeyə şəkil və surət verəndir, Müsəvvirdir. Hər şeyə nəzarət edir və qoruyur, Mühəymindir. Allah hər şeydə və hər hadisədə böyüklüyünü göstərəndir, Mütəkəbbirdir. Allahı haqqı ilə təqdir etməli, yaratdığı şeylərdə Rəbbimizin bu üstün isimlərini görüb anlamalı və Ona üz tutmalıyıq. Allaha üz tutan, şübhəsiz, dünyada və axirətdə qazanc əldə edəcəkdir. Allah bir ayədə belə bildirir:

**O, Özündən başqa heç bir məbud olmayan, Məlik, Quddüs, Səlam, Mumin, Mühəymin, Əziz, Cabbar, Mütəkəbbir Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. (Həşr surəsi, 23)**



# İnsana acizliyini xatırladan mikroskopik varlıqlar: VİRUSLAR

### Viruslar hüceyrənin ən təhlükəli düşmənidir

Hüceyrə ilə virus arasındakı müharibə insan həyatı üçün böyük əhəmiyyət kəsb edir. Viruslar bəzən soyuqdəymə, qrip kimi xəstəliklərin səbəbi olur, bəzən də AİDS, tif kimi öldürücü xəstəliklərə səbəb olur.

Virusların hüceyrəyə hücumunun öldürücü olması və inkişaf etmiş hücum texnikası baxımından heyrətamizdir. Viruslar hüceyrəni, onun öz silahı və imkanları ilə vururlar. Nüsxələrini yaratmaq üçün onların bu ağlasığmaz hücumu, əslində, intihar hücumudur. Viruslar nəsillərini davam etdirmək üçün həm özlərini, həm də hüceyrəni fəda edirlər. Hüceyrələr həyatlarını davam etdirmək üçün zülal istehsal etmək məcburiyyətindədirlər. Viruslar isə zülal istehsalının qarşısını alaraq, hüceyrəni zülalla birlikdə virus istehsal edən fabrikə çevirirlər.

Virusun bu işi görməsi üçün mükəmməl məlumata, şüur və gücə ehtiyacı var. Yalnız elektron mikroskopu altında görünə bilən virusun bu mükəmməl quruluşunun fərqində belə olmadığı ortadadır. Bu quruluş necə meydana gəlmişdir? Gözü, beyni olmadığı halda, virus nə vaxt və necə hərəkət edəcəyini haradan bilir?

Şübhəsiz ki, onu da, onun varlığını davam etdirməsi üçün hüceyrəni və DNT-ni də yaradan uca Allahdır. Allah yaratdığı kompleks varlıqlarla insanlara bənzərsiz sənətini və sərhədsiz qüdrətini göstərir.
Allah bir ayədə belə buyurur:

**Doğrudan da, gecə ilə gündüzün bir-birini əvəz etməsində, Allahın göylərdə və yerdə yaratdıqlarında (Allahdan) qorxan adamlar üçün dəlillər vardır. (Yunus surəsi, 6)**

Viruslar cansız varlıqlardır, amma hüceyrə ilə təmas etdikləri andan etibarən canlı xüsusiyyəti göstərməyə başlayırlar.

Virus təbiətdəki maraqlı orqanik strukturlardan biridir. Canlı bədənə sahib deyil. Zülalın bir qabığından və qabığın içində özünə aid məlumatları ehtiva edən genetik şifrələrdən (DNT və ya RNT) ibarətdir. Tək başına həyat əlaməti göstərən hər hansı bir



funksiyası və ya orqanı yoxdur. Bu səbəblə, təbiətdə milyonlarla il dəyişmədən qala bilir. Ancaq bir orqanizmin içinə girdiyində canlanır və aktivləşir. Bir hüceyrə ilə təmas etdiyi andan etibarən canlı xüsusiyyəti göstərməyə başlayır, təcavüzk ar və ağıllı bir canlı olur.

Virus hüceyrələrdən birinə girmədən əvvəl ayaqları ilə hüceyrənin özünə uyğun olub-olmadığını təyin edir. Özünə uyğun olduğunu müəyyən edəndə DNT-sini hüceyrənin içinə boşaldır.

Hüceyrə ovsunlanmış kimi, ölənə qədər virusun DNT-sini çoxaltmağa davam edir. Hüceyrənin içindəki mexanizmlər virusun oyununa aldanırlar. Hüceyrə yeni DNT-nin yad olduğunu anlaya bilmir və onu nüvənin içinə daşıyır. Nüvəyə çatan virusun DNT-si buradakı DNT-yə qarışır. Bu məqamdan sonra da, hüceyrə zülal istehsal etdiyini zənn edib yeni virusun DNT-sini çoxaltmağa başlayır. Virusun DNT-si hüceyrənin DNT-sinə o qədər uyğun olur ki, hüceyrə fərqinə varmadan virus istehsalını davam etdirir.

Hüceyrənin bu vəziyyətin fərqinə varması olduqca çətindir: bunu ayırd edə bilməsi iyirmi cildlik ensiklopediyanın hər hansı bir səhifəsinə yerləşdirilmiş yarım sətirlik cümləni axtarıb tapmağa bənzəyir. Virus bu “ağıllı” üsulu sayəsində hüceyrənin mexanizminə qarışır və sanki hüceyrəyə aid bir hissəyə çevrilir.

Normal halda, hüceyrə özünə lazım olan və DNT-də şifrələri xüsusi kilidlərlə işarələnmiş zülallardan başqa heç bir zülalın (digər hüceyrələrlə əlaqədar zülalların belə) şifrəsini oxumur. Ancaq hüceyrə sanki ovsunlanmış kimi virus DNT-sinin şifrələrini oxuyub bu virusu istehsal etməyə başlayır. Virusun bunu necə bacardığını elm adamları hələ də müəyyən edə bilmirlər.

Bu hadisə hüceyrə üçün qaçılmaz fəlakətə çevrilir. Ölməkdə olan hüceyrə nüvədəki səhv kodlaşdırılmış proqramı istehsal etmək üçün bütün enerjisindən istifadə edir. Nəticədə ölür və parçalanır. Parçalanma ilə birlikdə çoxalmış viruslar o biri hüceyrələrə sıçrayır və özlərinə yeni qurbanlar tapırlar.

Əgər bədənin müdafiə mexanizmi olmasa, virus normal insanı bir neçə günə öldürə bilər. Bədənin müdafiə mexanizmi virusun bədənə girdiyini qısa müddətdə müəyyən edir və dərhal hücuma başlayır. Bunun sayəsində, adi bir soyuqdəymə virusu ilə asanlıqla ölə bilən insan həyatını davam etdirə bilir.

## Allah insana gözlə görülməyəcək qədər kiçik varlıqla acizliyini göstərir

Virus müvəffəqiyyətlə hərəkət etmək üçün hüceyrəyə tam uyğun olmalıdır. Ortada bir həqiqət var: Allah virusları xəstəliyə səbəb olmaq üçün xüsusi olaraq yaratmışdır. İnsan bu cür çətinliklər sayəsində Allaha möhtac və aciz varlıq olduğunu daha yaxşı dərk edə bilir.

Allah virusları bəzən “ölüm səbəbi” kimi də istifadə edir. Milyonlarla insan sahib olduqları mallarından, yoldaşlarından, uşaqlarından və həyatlarından heç vaxt görə bilmədikləri viruslar səbəbindən ayrılmışdır. Bu gün müasir tibb xəstəliklərin bir çoxuna çarə taparkən, AİDS və ya ebola kimi yeni virusların qarşısında çarəsizdir.

Bütün bunlar üzərində düşünən insan Allaha qarşı acizliyinin fərqinə varacaq və bağışlanma diləyərək Rəbbimizə yönələcək. Allah Ona yönələrək tövbə edənləri bağışlayacağını bir ayəsində belə xəbər verir:

**Rəbbiniz ürəklərinizdə olanları çox yaxşı bilir. Əgər əməlisaleh olsanız, (bilin ki,) həqiqətən də, O, tövbə edənləri bağışlayandır (İsra surəsi, 25)**

# Axırzamanın mübarək şəxslərindən Hz. İsa (ə.s) mükəmməl fiziki xüsusiyyətlərinə görə dərhal tanınacaq



Hz. İsanın (ə.s) axırzamanda yer üzünə yenidən göndəriləcəyi, İslamı seçərək Hz. Mehdi (ə.s) ilə birlikdə İslam əxlaqının bütün dünyaya hakim olmasına kömək edəcəyi Quran ayələrində və Peyğəmbərimizin (s.ə.v) hədislərində müjdələnmişdir. Yaşadığımız axırzamanın ən mühüm məsələlərindən biri Hz. İsanın (ə.s) hansı xüsusiyyətləri ilə tanınmasıdır. Möminlər Hz. İsanı (ə.s) imanının dərinliyi və nuru ilə dərhal tanıyacaq. Ancaq Allah bu mübarək peyğəmbəri tanıtmaq üçün ona çox mükəmməl, cazibədar fiziki görünüş bəxş etmişdir. Hz. İsanın (ə.s) Peyğəmbərimizin (s.ə.v) hədislərində tərif etdiyi fiziki xüsusiyyətləri bu gözəl peyğəmbərin möminlər tərəfindən tanınmasını daha da asanlaşdıran böyük sevinc mənbəyidir.

Peyğəmbərimiz (s.ə.v) hədislərində Hz. İsanın (ə.s) fiziki xüsusiyyətlərini necə tərif etmişdir?

Qiyamətdən əvvəlki son dövr olan axırzaman Peyğəmbərimizin (s.ə.v) hədislərində müjdələndiyi kimi, Hz. İsanın (ə.s) nüzul və Hz. Mehdinin (ə.s) zühur edəcəyi çox mübarək dövrdür. Bu mübarək dövrün dəyərli şəxslərindən olan Hz. İsa (ə.s) təqribən 2000 il əvvəl yaşamış, Allahın dünyada və axirətdə üstün etdiyi bir elçisidir. Hz. İsanın (ə.s) doğulması, həyatı və Allah qatına qaldırılması möcüzəvi şəkildə baş vermiş, bu mübarək insanın həyatı Quranda ətraflı şəkildə xəbər verilmişdir. Hz. İsanı (ə.s) digər peyğəmbərlərdən fərqləndirən ən əsas xüsusiyyət onun hələ də vəfat etməməsi, Allah qatına yüksəldilməsi və yer üzünə yenidən geri göndəriləcəyidir. Onun bu xüsusi vəziyyətinə dair Quranda mühüm işarələr var. **(Nisa surəsi, 156-159; Ali-İmran surəsi, 55; Maidə surəsi, 117; Zuxruf surəsi, 57-61; Ali-İmran surəsi, 45-48; Maidə surəsi,**



**110; Ali-İmran surəsi, 59; Məryəm surəsi, 33)**. Bu ayələrin birində: **"Şübhəsiz ki, o, qiyamət saatı üçün bir əlamətdir. Ona şəkk etməyin və Mənə tabe olun. Bu, doğru yoldur! (Zuxruf surəsi, 61)"** -buyurulur. Bu ayə Hz. İsanın (ə.s) axırzamanda yer üzünə qayıdacağına açıq-aşkar işarə edir.

Hz. İsanın (ə.s) gəlişi Quranın bir çox ayəsində bildirilməklə yanaşı, Peyğəmbərimizin (s.ə.v) hədislərində də müjdələnmişdir. Bu hədislərdən biri belədir:

**"Vallah, mütləq və mütləq Məryəm oğlu İsa yer üzünə enəcək, həm də ədalətli hakim, hökmdar kimi enəcək..."** (Ebu Hureyre r.a. / Buhari, Büyu 102, Mezalim 31, Enbiya 49; Müslim, İman 242 (155); Ebu Davud, Melahim 14 (4324); Tirmizi, Fiten 54 (2234)

Ancaq Hz. İsanı (ə.s) hər kəs tanımaya bilər Hz. İsa (ə.s) üstün iman gücü, dəccalın hipnozunu pozması, Allahın izni ilə ölünü diriltməsi, kor insanın gözlərini açması kimi böyük möcüzələr göstərməsi və dünyada heç bir qohumu, tanışı, ailəsi olmadığına görə, möminlər tərəfindən dərhal tanınacaq. Hz. İsa (ə.s) ancaq imanın nuru, həmçinin kənardan baxdıqda aydın bilinən fiziki xüsusiyyətlərinə görə tanınacaq.

## Hz. İsa (ə.s) simasının çox gözəl və nurlu olması ilə tanınacaq

Elçilərin üstünlüyü istər bilik, istərsə də fiziki xüsusiyyətləri ilə Quranda belə bildirilir:

**"...Dedi: "Allah sizdən ötrü onu seçmiş, elm və bədəncə ona üstünlük vermişdir. Allah Öz mülkünü istədiyinə verər. Allah (Öz lütfü və kərəmi ilə) Genişdir, Biləndir!" (Bəqərə surəsi, 247)**



Bilik, ağıl, əxlaq, fiziki cəhətdən üstün edilmiş bir insan kimi Hz. İsanın (ə.s) üzündə peyğəmbərlərə xas ifadə olacaq. Güclü Allah qorxusunun və dərin imanının nuru üzünə yansıyacaq. Peyğəmbərlərə xas nurlu ifadə üzündə o qədər aydın olacaq ki, onu görənlər digər insanlarla müqayisədə çox üstün insanla qarşılaşdıqlarını anlayacaqlar.

### Gözlərində dərinlik var və kəskin baxışlıdır

Rəvayətlərdə Hz. İsanın (ə.s) üzü haqqında ən nəzərəçarpan xüsusiyyət onun kəskin baxışlı (Ahmed b. Hanbel, I, 374; Ebû Ya'lâ V, 108) olmasıdır. Yaşıla çalan boz gözləri var. Baxışlarındakı dərinlik və kəskinlik dəccalın nəfəsini kəsəcək qədər təsirlidir.

### Parlaq üz rəngi və düzgün üz cizgiləri var

**Üzü bir az çilli, sanki hamamdan yeni çıxmış kimi al çöhrəlidir. Üzü həm ciddi, həm canlıdır. Ağzı, burnu qüsursuzdur, alnı düz və təmizdir, sıx saqqallıdır, kiçik və gözəl burunludur, gözləri alov kimi parlaqdır. Üzü qırmızıya çalan bəyaz rənglidir** (Taberânî, Kebîr XXIV, 433). Peyğəmbərimiz (s.ə.v) bir hədisində Hz. İsanın (ə.s) bədən rəngini belə tərif etmişdir:

**"Gecə meracda Musaya (ə.s) qovuşdum. (Peyğəmbər (s.ə.v) onu təsvir edərək:) Bir də gördüm ki, o, Şənüə qəbiləsinin kişiləri kimi qarabuğdayı, uzun boylu, dolu bədənli, düz saçlı şəxsdir. İsaya (ə.s) da qovuşdum. (Peyğəmbərimiz (s.ə.v) onu da təsvir edərək:) İsa orta boylu, sanki hamamdan çıxmış kimi al çöhrəli idi".** (Sahih-i Müslim, 2/1053)

### Saçlarının rəngi, forması və görünüşü diqqət çəkir

**Qızılıya çalan şabalıdı saçları var, saqqalı da eyni rəngdədir. Saçları daranmış və sanki saçından su damırmış kimi nəm görünür** (Taberânî, Kebîr XI, 73); **baxımlı, bir az dalğalıdır, yəni nə düz, nə də qıvrımdır** (İbnü'l-Esîr II, 203). **Saçları qulaq mərcəyini örtür, yanlardan çiyinlərinə çatmır, ənsəsindən iki kürəyinin arasına qədər çatır** (Buhârî, "Enbiyâ" 48; Müslim, "îmân" 274). Saçlarının qulaqlarına qədər olan hissəsi düz, aşağı hissəsi dalğalıdır. Hz. İsanın (ə.s) saçının nəm görünməsi onun təmizlik, parlaqlıq və gözəlliyini daha çox diqqəti cəlb edir. Hədislərdə Hz. İsanın (ə.s) yaraşıqlı olduğu belə vurğulanmışdır:

**O qədər təmizdir ki, nəm olmadığı halda, saçından sanki su damır.** (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, s.499)) (Ebu Davud, Melahim, 4324)



"**Mən bu gecə yuxuda özümü Kəbədə gördüm. Birdən qarabuğdayı bir şəxs gördüm. O, insanlardan ən gözəli idi, saçı iki çiyninin arasına düşmüşdü, (yeni) daranmış və təmizlənmiş kimi saçından su damırdı. İki əlini iki nəfərin çiyninə qoyaraq Kəbəni təvaf edirdi. (Oradakılardan): "Bu kimdir?"- deyə soruşdum. Onlar: "Bu Məryəmin oğlu Məsih İsadır"**,- dedilər". (Sahih-i Buhari, 9/177)

Hədislər və hədislərdən rəvayətlər Hz. İsanın (ə.s) yaradılış etibarilə yaraşıqlı olduğunu bildirir və Allahın Hz. İsa (ə.s) üzərində təcəlli edən qüsursuz sənətini vurğulayır.

## Hz. İsa (ə.s) heybətli görünüşü və düzgün bədən quruluşu ilə insanların diqqətini çəkəcək

## Boyu Peyğəmbərimizə (s.ə.v) bənzəyir

Hz. İsanın (ə.s) boyu haqqındakı **"uzunla qısa arasında", "nə uzun, nə qısa", "uzun deyil, uzuna yaxın orta boylu"** kimi ifadələr (İbnü'l-Esîr, Nihâye II, 190; Nevevî, Şerhu Müslim II, 224.) Hz. İsanın (ə.s) uzuna yaxın orta boylu olacağını göstərir. Peyğəmbərimizin (s.ə.v) boyu da bənzər ifadələrlə təsvir edildiyinə görə, Hz. İsanın (ə.s) bu cəhətdən Peyğəmbərimizə (s.ə.v) bənzədiyi məlum olur:

**Uzuna yaxın orta boyludur, rəngi qırmızı ilə bəyaza çalır, əynində boyanmış iki paltar var. O qədər təmizdir ki, nəm olmadığı halda, saçından sanki su damır.** (Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, s.499) (Ebu Davud, Melahim, 4324).

## Hz. İsanın (ə.s) atletik və xoş görünüşlü bədən quruluşu olacaq

Hz. İsa (ə.s) enlikürək, incəbelli, çox çevik, güclü və atletik quruluşlu olacaq.

Ayaqları və əlləri təmiz və parlaqdır. Nəcib, uzun barmaqları və mükəmməl quruluşlu əlləri var. Bu gözəl və imanın verdiyi heybətdən qaynaqlanan görünüşünə görə, insanlar ona baxmaqdan doymayacaq, nəzərlərini ondan çəkmək istəməyəcək. Peyğəmbərimiz (s.ə.v) Hz. İsanın (ə.s) heyranedici xarici görünüşünü və güclü heybətini belə təsvir etmişdir:

**"O, qızılı, qıvrım saçlı və enlikürəkdir. O, səlibi (xaçı) sındıracaq, cizyə üsulunu ləğv edəcək, İslamdan başqa heç bir dini qəbul etməyəcək... Allahdan başqa heç kimə və heç nəyə ibadət etməyəcək. Hz. Muhəmmədin (s.ə.v) yoluna uyğun hökm verəcək, özü peyğəmbər olduğu halda, Peyğəmbərə (s.ə.v) tabe olacaq və Muhəmmədin (s.ə.v) ümmətindən olacaq, Peyğəmbərin (s.ə.v) ümməti və səhabəsi olacaq. Çünki o, onu Merac gecəsində görüb. Ona görə, səhabələrin ən fəzilətlisidir".** (İmam Suyuti, Kıyamet Alametleri, Ölüm ve Diriliş, səh. 182)

## Hz. İsanın (ə.s) fiziki xüsusiyyətlərini bilməyin əhəmiyyəti

Peyğəmbərimizin (s.ə.v) hədisləri işığında fiziki xüsusiyyətləri haqqında hərtərəfli məlumat aldığımız Hz. İsanın (ə.s) yer üzünə yenidən qayıtması çox gözlənilir. Yaşadığımız dövrdə 2000 il sonra gələcəyi gözlənilən Hz. İsa (ə.s), Peyğəmbərimizin (s.ə.v) müjdələdiyi kimi, nüzul edəcək. Bu həqiqətin fərqinə varan və Hz. İsa (ə.s) yer üzünə yenidən qayıtdıqda onu görmək və tanımaq şərəfinə nail olmaq istəyən bütün müsəlmanlar bu nurlu, mübarək peyğəmbəri doğru tanımaq üçün bütün bu səbəblərə sarılmalıdırlar. Çünki bu məlumatların yaxşı araşdırılıb təhlil edilməsi Allahın izni ilə Hz. İsanın tanınmasında mühüm yol göstərici olacaq.

## Hz. İsanın (ə.s) bioloji ölümü hələ reallaşmamışdır

**"Maidə" surəsinin 117-ci ayəsindəki "Sən məni vəfat etdirdikdən (təvəffəytəni) sonra onlara nəzarətçi Özün oldun"** cümləsindəki "vəfat etdirmək" sözü bəzi şəxslərin iddia etdiyi kimi, bioloji ölüm deyil. Vəfat etdirmək həmişə insanın bioloji ölümü mənasında işlədilmir. Məsələn, bu ayədə "vəfat etdirmək" kimi tərcümə edilən sözlə **"Ənam" surəsinin 60-cı ayəsində** işlədilən söz eynidir. Ancaq "vəfat" sözünün ərəb dilindəki qarşılığının Azərbaycan dilindəki "ölüm" mənasından başqa mənaları da var.

**Sizi gecələr vəfat etdirən (təvəffəqum), gündüz isə nə etdiyinizi bilən Odur. Sonra O, sizi gündüz oyandırır ki, müəyyən olunmuş vaxt gəlib yetişsin... (Ənam surəsi, 60)**

Bu ayədən də məlum olduğu kimi,

Allah yatan insanın da canını alır, ancaq bu insan bildiyimiz mənada ölmür. "Təvəffa" sözünün yuxu mənasında işlədildiyini deyənlər (təfsirçilərin əksəriyyəti bu fikirdədir) ayəni "səni yatırdacağam" şəklində təfsir edirlər. Nəticə etibarilə, Hz. İsa (ə.s) yuxudakına bənzər vəziyyətdə Allah qatına yüksəldilmiş, sadəcə, bu məkan ölçüsündən ayrılmışdır (doğrusunu Allah bilir).

## Hz. İsa (ə.s) gəldikdə 33 yaşında olacaq və bu dünyada vəfat edəcək

ADNAN OKTAR: ***O gözəl peyğəmbər gəldikdə 33 yaşında olacaq. Hətta saçı təmizliyinə görə nəm görünəcək. Hz. İsa (ə.s) çox alicənab, çox ağıllı, gözəl insandır. Onun peyğəmbər olduğu baxan kimi məlum olur. Bir çox möcüzə göstərəcək. İnsanlar bunu görüb onu dərhal tanıyacaqlar. Dünyada ömrünü tamamlayıb vəfat edəcək, inşaAllah. (Çay TV, 23 İyul 2008)***

## Hz. İsa (ə.s) 2000 il əvvəl çıxdığı zaman və məkan ölçüsünə yenidən daxil olacaq

ADNAN OKTAR: ***Hz. İsa (ə.s) 2000 il əvvəl zaman və məkan ölçüsündən ayrılmışdır. 2000 il sonra, yəni indi zaman və məkan ölçüsünə yenidən daxil olacaq. Eyni paltarında və ayaqqabılarında olacaq. Barmaq arasından keçən kəmərli, altı düz ayaqqabısı var. Əynində düz paltarı, düz əbası var, o paltarlarda yenidən gələcək və onu bir yerdə tapacaqlar, inşaAllah. (Denge TV, 9 Dekabr 2009)***

## Hz. İsa (ə.s) nüzul etdikdə onu heç kim tanımayacaq

Hz. İsa (ə.s) yenidən yer üzünə qayıtdıqda ətrafında onu tanıyan heç kim olmayacaq. Onun fiziki xüsusiyyətlərini, üzünü və ya səs tonunu tanıyan bircə nəfər belə olmayacaq. Dünyada heç kim: "Mən onu əvvəlcədən tanıyıram, bir zaman görmüşdüm, onun ailəsi və yaxınları filankəsdir", - deməyəcək. Çünki onu tanıyan bütün insanlar təqribən 2000 il bundan əvvəl ölmüşdür. Anası Hz. Məryəm, Hz. Zəkəriyya (ə.s), dövrün yəhudi rəhbərləri və şəxsən Hz. İsanın (ə.s) təbliğ etdiyi insanlar vəfat etmişlər. Ona görə, ikinci dəfə yer üzünə gəldikdə onun doğulmasına, uşaqlığına, gəncliyinə və yetkinlik yaşlarına şahid olmuş heç kim olmayacaq və onun haqqında heç kim heç nə bilməyəcək. Yaşadığımız dövrdə Hz. İsa (ə.s) imanın nuru və Peyğəmbərimizin (s.ə.v) hədisləri vasitəsilə tanınacaq.

**"Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük", - dediklərinə görə (lənətə düçar edildilər). Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlara ancaq (İsanın) bənzəri göstərildi. Bu haqda ixtilafda olanlar onun barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu öldürməmişdilər. (Nisa surəsi, 157)**

# ALLAH RİZASI ÜÇÜN *SALEH* ƏMƏLLƏR ETMƏK

### Saleh əməl nədir?

### Əməlləri necə sırf Allah üçün etmək olar?

İnsanın iman gətirməklə yanaşı, imanına uyğun saleh əməllər etməsi onu doğru yola aparar və axirətdə ona böyük nemətlər qazandırar. Çünki saleh əməl insanın ancaq Allahın rizasını üstün tutduğunun, səmimi iman gətirdiyinin göstəricisidir. Allah Quranda belə buyurur:

**İnsanlar yalnız: "İman gətirdik!" – deməlerilə onlardan əl çəkilib imtahan olunmayacaqlarınımı sanırlar? Biz onlardan əvvəlkiləri də imtahana çəkmişdik. Şübhəsiz ki, Allah düz danışanları da, yalançıları da çox gözəl tanıyar! (Ənkəbut surəsi, 2-3)**

### Səmimi insan ancaq Allahın rizasını üstün tutar

Saleh əməl insanın Allahın rizasını qazanmaq üçün dünya həyatında etdiyi cəhddir. İslamı təbliğ etmək, Quran əxlaqının hakim olması üçün çalışmaq, Quranı yaxşı anlamaq üçün səy göstərmək, müsəlmanların hər cür sosial və şəxsi problemlərini həll etmək, 5 vaxt namaz, oruc, zəkat, həcc ibadətləri kimi yerinə yetirilməli saleh əməllərdir. Hər saleh davranış müsəlmanların səbrini, sədaqətini, bir sözlə, imandakı qətiyyətlərini üzə çıxarır. Ancaq bir cəhətə diqqət yetirmək lazımdır: bir əməli saleh edən təkcə nəticəsi deyil, eyni zamanda həmin əməlin ardındakı niyyətdir.

Ona görə, Allah rizası üçün yaşayan möminə gördüyü hər hansı saleh işin nəticə verib-verməməsi vacib deyil. Məsələn, bir insan Allah rizası üçün bir işdə uzun müddət səy göstərə bilər, ancaq gözlədiyi nəticəni almaz. Burada həmin işin Allah rizası üçün görülməsi əsasdır. Ayədəki **"...Bəzən xoşlamadığınız bir şey sizin üçün xeyirli, bəzən də xoşladığınız bir şey sizin üçün zərərli ola bilər. Allah bilir, siz bilməzsiniz. (Bəqərə surəsi, 216)"** hökmünə uyğun olaraq nəticənin, həqiqətən, xeyirli olub-olmadığını ancaq Allah bilir.

Saleh əmələ mane olan ən böyük təhlükələrdən biri insanın nəfsinə tabe olub başqalarına göstəriş üçün iş görməsidir, Bir insanın rəftarında və davranışlarında kiçik bir səmimiyyətsizlik varsa, onun bütün əməyi və cəhdi boşa çıxa bilər. Allah bir işin mütləq səmimi niyyətlə görülməsini, ancaq Onun rizasının üstün tutulmasını istəyir. İnsanın niyyətinə



başqalarına göstəriş kimi ixlas və səmimilikdən uzaq düşüncələr qarışdıqda, o insan özünü gözəl iş gördüyünü zənn etsə də, dünya həyatındakı bütün cəhdləri boşa çıxa bilər. Ayədə belə buyurulur:

**O kəslər ki, onların dünyadakı zəhməti boşa getmişdir. Halbuki, onlar yaxşı işlər gördüklərini zənn edirdilər. (Kəhf surəsi, 10**4)

Bir insan yaxşı niyyətlə başladığı işə 1% başqalarının razılığını, nəfsi istəyini qarışdırarsa, Allah bunu ondan qəbul etməyə bilər (doğrusunu Allah bilir). Çünki bir əməlin saleh olması ancaq Allahın rizası üçün edilməsinə bağlıdır. Əgər insan bu məqsəddən uzaqlaşarsa, başqa insanların razılığını qazanmağa çalışarsa, bunun Qurandakı tərifi şirkdir və şirk böyük günahdır. Allah qullarının ixlaslı olmasını istəyir. İxlasın yeganə sirri ancaq Allahın razılığı üçün cəhd etməkdir. İxlas insanın qəlbini ancaq Allaha bağlaması, etdiyi əməllərin qarşılığını Ondan başqa heç kimdən gözləməməsi və əməllərini şərtli etməməsidir. Bir işin şərt qoyulmadan edilməsi ixlasın ən böyük dəlillərindən biridir. Bir insan etdiyi hər işin qarşılığını dünya həyatında dərhal almaya bilər. Bu, Allahın onu imtahan etməsinə görədir. İnsan səmimiliyinə və ixlasına görə imtahana olunur. Əgər bu şəxs Allaha bağlılığında, əməllərində heç bir qarşılıq gözləmədən, ancaq Onun rizasını qazanmaq məqsədini güdürsə, böyük xeyir əldə edə bilər. Əgər səbir etməz, etdiyi işin qarşılığını dərhal almadığını düşünərək ixlasını zədələyərsə, bütün əməllərini şərtli etdiyi məlum olur. Əlbəttə, bu, qeyri-səmimi davranışdır.

## Mömin əsl yurdu olan axirəti unutmadan ancaq Allahın rızasına uyğun yaşayar



Mömin təməli sağlam, sonunda mütləq qazanc olan həyat yaşayar. Xalis niyyətlə saleh əməllər edər. Bütün işlərində Allahın rizasını üstün tutaraq xeyir gördüyü hər saleh davranışı yerinə yetirər.

Hər insan etdiklərini ixlasla edərsə, əməllərinin dəyərini qat-qat artıra bilər. İki insan düşünək. Birisi Allah yolunda xərcləmək məqsədilə bütün imkanlarını səfərbər edir, digərinin isə maddi imkanı ancaq ehtiyac içində gördüyü insana bir çörək verməyə çatır. Ancaq bunu Allahın onu bağışlamasına, günahlardan təmizləməsinə vasitə hesab edərək, qarşılığını Allahın qat-qat artırmasını diləyərək axirəti üçün verdiyinə görə, Allah bu insanın verdiyi bircə çörəkdən onun üçün qat-qat artırılmış əcir, ixlasının əvəzində ona axirətdə gözəl məkan bəxş edə bilər. Çünki Allah yolunda xərclənən malın



miqdarı deyil, Allah rizası üçün saleh əməl etmək əsasdır. Bu, Allahın ədalətidir. Həm imkanları çox olan insanın, həm də kiçik yardım edə bilən insanın Allah yolunda xərclədiyi malın qarşılığını Allah bərabər səviyyədə verəcək. Hətta insanın ixlasına bağlı olaraq mükafatını qat-qat artıra bilər. Bunun səbəbi onların qəlbindəki ixlasdır. Allah bir ayədə görülən işin deyil, təqvanın Ona çatacağını bildirmişdir:

**Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan yalnız sizin təqvanızdır. Allah sizi doğru yola yönəltdiyi üçün Onu uca tutasınız deyə, bunları sizə belə ram etdi. Ehsan edənlərə müjdə ver! (Həcc surəsi, 37)**

Hər əməlin səmimi niyyətlə, ixlasla edilməsi vacibdir. İnsan Allaha qulluğunu, sədaqətini, Allaha olan vəfasını, bağlılığını gördüyü əməlləri səmimi niyyətlə edərək ifadə etməlidir. Peyğəmbərimiz (s.ə.v) bir hədisində: **"Əməllərinizi ancaq Allah üçün edin. Çünki Allah-təala Öz yolunda ixlasla edilən əməli qəbul edər.** (Ramüz el hadis, Hz. Dahhak ibni kays r.a s.20)" - deyə buyurmuşdur.

"Saleh" sözü gözəl, doğru, xeyirli deməkdir. "Əməl" sözünün Azərbaycan dilindəki ən yaxın qarşılığı "iş"dir. Beləliklə, saleh əməl yaxşı, xeyirli mənalarını verir ki, bu da Quranda Allahın rizasına və buyurduğu əxlaqa uyğun hər cür hərəkət və əməli ifadə edir. İnsanın Allah üçün saleh əməllər etməsi onun Allaha olan yaxınlığını və axirətdəki dərəcəsini artırır. İnsanın imanı bu əməllə birlikdə möhkəmlənir. Allah bir ayədə belə buyurur:

**... Gözəl söz Ona tərəf yüksələr və gözəl sözü də yaxşı əməl ucaldar... (Fatir surəsi, 10)**

Ölüm haqqında düşünmək və bu həqiqəti dərk etmək insanı hər an ixlaslı, vicdanlı davranmağa yönəldir. Doğru düşünən insan hər an hər yerdə ölümlə qarşılaşa biləcəyini, həyatının hər an sona çatma ehtimalı olduğunu bilər. Bir an sonra özünü Rəbbimizin hüzurunda, haqq-hesab vermək üçün görəcəyini, hər an Cənnət və ya Cəhənnəmə daxil edilmə ehtimalı ilə qarşılaşacağını bilərək açıq şüurla hərəkət edər. Bu da onu həyatının hər anında ixlaslı davranmağa, ağlından, vicdanından və imkanlarından sonuna qədər istifadə etməyə yönəldir.



# ORQANİZMİ TƏMİZLƏYƏN LİZOSOM FERMENTLƏRİ

Gün ərzində orqanizmimizdə fərqinə varmadığımız bir çox proses baş verir. Bu prosesləri hüceyrələrimiz həyata keçirir. 100 trilyona yaxın hüceyrəmizin içində vəzifələrini çox yaxşı bilən bir çox orqanoid var. Bəzisi enerji, bəzisi zülal istehsal edir, bəzisi nəqliyyat vasitəsi vəzifəsini yerinə yetirir, bəzisi də anbar funksiyasını daşıyır.

Hüceyrənin içindəki bu orqanoidlərdən biri də lizosomdur. Lizosomu hüceyrənin həzm cihazı adlandıra bilərik. Bu orqanoidin ifraz etdiyi fermentlər orqanizmdə bir çox "parçalama" prosesini həyata keçirir. Lizosom fermentləri işə yaramayan hüceyrələri məhv edir, parçalayır və ya bir orqanoidin ətrafını əhatə edən qılafı deşir, habelə orqanizmdə daima böyüyən bəzi hüceyrələri parçalayır. Lizosom fermentlərinin bu parçalama prosesi orqanizm üçün çox əhəmiyyət daşıyır.

Hamilə qadınlarda körpənin inkişafı ilə əlaqədar ana bətni çox böyüyür. Bu körpənin sağlam doğulması üçün mühüm prosesdir. Ancaq körpə doğulduqdan sonra artıq bu qədər böyük bətnə ehtiyac olmur. Bu təqdirdə həddindən artıq genişlənmiş bu orqan yenidən əvvəlki vəziyyətinə qaytarılmalıdır. Bu prosesi lizosom fermentləri həyata keçirir. Doğuş sona çatdıqdan sonra müəyyən hüceyrələrin lizosomları sanki bunu xəbər alıb nə etməli olduqlarını bilirmiş kimi dərhal lazımi fermentləri ifraz etməyə başlayırlar. Bu fermentlər isə hamiləlikdən sonrakı 10 gün ərzində sürətlə ana bətnini 40% kiçildirlər. Beləliklə, ana bətni əvvəlki ölçüsünə düşür. Lizosomlar spermanın baş hissəsində də yerləşirlər. Sperma yumurta hüceyrəyə çatdıqda onu əhatə edən qılafı deşmək üçün içindəki lizosom fermentlərindən istifadə edir. Parçalayıcı təsirə malik bu fermentlər yumurtanı qoruyan qılafı deşərək spermanın yumurta hüceyrəni mayalandırmasını təmin edirlər.

Bu misallardan da göründüyü kimi, orqanizmimizdəki hər mexanizm bir-birini tamamlayacaq şəkildə işləyir. Hamiləlik zamanı ana bətninin böyüməsini təmin edən sistemlə birlikdə onu əvvəlki vəziyyətinə qaytaran sistem də var. Eyni şəkildə, möhkəm qılafla qorunan yumurta hüceyrəni deşən ferment də spermanın içinə xüsusi yerləşdirilmişdir.

Darvinistlər bir-birilə uyğunluq içində olan bu mükəmməl sistemin bəzi təsadüflər nəticəsində əmələ gəldiyini və qüsursuz fəaliyyətə başladığını iddia edərək ağıldan və məntiqdən uzaqlaşıblar. Mükəmməl funksiyaya malik olan bu mexanizmlərin bütün orqanizmdəki sistemlərlə uyğun işləməsi Allahın yaratma sənətindəki qüsursuzluğu göstərir. "Həşr" surəsinin bir ayəsində belə buyurulur:

**O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə tәriflər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 24)**



# ALLAHIN MÜXTƏLİFLİK SƏNƏTİNİN ƏN GÖZƏL NÜMUNƏLƏRİNDƏN:



# QUŞLAR

Allah yaratdığı bütün canlılara bir-birindən fərqli xüsusiyyətlər bəxş etmişdir. Quşlar buna gözəl nümunədir. Quşlar ölçüləri, uçuş xüsusiyyətləri, çəkiləri, yuva qurmaları, köç etmələri və qidalanmalarına görə maraqlı xüsusiyyətlərə malikdirlər. Minlərlə quş növündən, sadəcə, bir neçəsinin bəzi maraqlı xüsusiyyətlərini təhlil etmək belə Allahın sonsuz gücünü görmək üçün kifayət edər. Kainatdakı gücün tək sahibi olan Allah bir ayədə bütün varlıqların sahibinin Özü olduğunu belə bildirir:

**Göylərdə və yerdə nə varsa Onundur. Hamısı Ona boyun əyər! (Rum surəsi, 26)**

## Çəkiləri və ölçüləri ilə diqqət çəkən quşlar

### Ən kiçik quşlar

Kubada yaşayan erkək qızlarquşunun çəkisi 1.5 q, boyları 7 sm-dir. Dimdiyi və quyruğu boyunun yarısı qədərdir.

- Cənub-şərqi Asiyada yaşayan qara ayaqlı kiçik qırğı və Borneonun şimal-qərbində yaşayan ağ ayaqlı kiçik qırğının uzunluğu 15 sm-dir və təqribən 35.5 q çəkisi var.

### Ən ağır uçan quşlar

- Şimal-şərqi və cənub-şərqi Afrika ilə Avropa və Asiyada yaşayan tori quşlarının iki növünun (kori toy və burstad) təqribən 1.2-1.5 m boyu var. 2.30-2.75 m qanad açıqlığına malikdir. Bu böyük quşların əsas xüsusiyyəti 20 kq-a çatan çəkiləridir. Çünki bu xüsusiyyətlərinə görə, onlar ən ağır uçan quş hesab edilirlər.
- Bir kərkəs növü olan Vultur gryphus 11-15 kq çəkiyə malikdir. Bu quşların qanad açıqlığı 2.70-3.20 m-dir.
- Pipikli qutanlar təxminən 10.7 kq çəkilərinə görə, üçüncü yeri tuturlar.

Allah bədənlərinin bütün xüsusiyyətlərini uçuş üçün xüsusi yaratdığı quşların təmiz çəkilərini azaltmış və beləliklə, ümumi çəkiləri də azalmışdır. Sümüklərinin içini boş yaratmış, bədənlərinə hava kisələri yerləşdirmişdir. Bir çox sistemləri bədəndə artıq suyun saxlanılmasının və beləliklə, çəkilərinin artmasının qarşısını alır. Tüklər də həcmlərinə baxmayaraq, çox yüngüldürlər.

### Ən böyük quş

Bədəninin ölçüsünə görə ən böyük quş 2.7 m-dən artıq boyu olan Afrika dəvəquşusudur. Bu quşların 156 kq çəkiləri var, uçmayan quşlar arasında ən ağır quşlardır.

### Ən geniş qanad açıqlığı olan quş

Səyyah albatros (diomedea exulans) quşu ən geniş qanad açıqlığına malik quşdur. Bu böyük quşların qanadlarının genişliyi bir ucundan o bir ucuna 3.6 m-dir.

## Sürəti ilə diqqət çəkən quşlar

### Ən sürətli üzən quş

Antarktida adalarında yaşayan qento pinqvini saatda 40 km sürətlə üzür. 300 dəfə suya baş vurur və çox vaxt yarım dəqiqəyə qədər suyun altında qalır. İmperator pinqvini isə su altında ən uzun müddət (18 dəqiqə) qalan quşdur.



### Qurudakı ən sürətli quş

Böyüklüyünə baymayaraq, dəvəquşu lazım gəldikdə 45 km-ə çatan sürətlə qaçır.

### Ən sürətli uçan quş

Pereqrin qırğısı saatda 124 km sürətlə uçur. Ovunun üstünə şığıyarkən bu sürət saatda 168 km-ə çatır.

### Ən yavaş uçan quş

Amerika və Avrasiya ağacdələni cütləşmək üçün erkəyi cəlb edən zaman saatda 5 m sürətlə uçur.
Allah quşların sürətini həyat tərzlərinə görə tam uyğun mexanizm və sistemlə yaratmışdır. Əks təqdirdə, bu canlılar yaşaya bilməz. Allah hər şeyi məhz lazım olduğu kimi, yerli-yerində və mükəmməl şəkildə yaratmışdır. Uca Rəbbimiz bir ayədə belə buyurur:

**... Bu, hər şeyi yerli-yerində edən Allahın işidir... (Nəml surəsi, 88)**

### Dimdikləri ilə diqqət çəkən quşlar

Allah quşların dimdiklərini də qidalanmaq, təmizlənmək, cisimlərdən bacarıqla istifadə etmək, ovlarını tutmaq, qida axtarmaq, erkəklərini cəlb etmək və balalarını yedirmək üçün istifadə edəcəkləri çox mühüm üzv kimi yaratmışdır.

- Avstraliya qutanı (pelicanus conspicillatus) 50 sm-lik dimdiyinə görə, ən uzun dimdiyi olan quşdur.
- Yeni Zellandiyada yaşayan quş növü olan kivi dimdiyinin ucunda burun dəlikləri olan yeganə quşdur. Digər quşlar görmə və eşitmə hissləri ilə ov ovlayır, kivi dimdiyinin üstündəki dəliklərdən gecə ovunu tapmaq üçün istifadə edir. Uzun dimdiyini torpağın içinə salır və torpağı qoxulamağa başlayır. Bu yolla əsas qidası olan yer soxulcanlarını tapır.
- Tukanların ən diqqətçəkən xüsusiyyətləri, şübhəsiz ki, rəngarəng dimdikləridir. Tropik meşələrdə yaşayan tukanların müxtəlif təsirlər nəticəsində dəlik-deşik olmuş dimdikləri meyvələri asanlıqla yemək üçün möhkəm yaradılmışdır. Bu qədər böyük və möhkəm dimdiyin ağır olduğu düşünülə bilər. Ancaq uzunluğu 20 sm-ə çatan dimdiyi təşkil edən keratinin elastikliyi nəticəsində hərəkət qabiliyyəti çox olan bu dimdik çox yüngüldür.

### Görmə xüsusiyyətləri ilə diqqət çəkən quşlar

Quşlar insanlardan daha sürətli görmə qabiliyyətinə malikdir və daha geniş bucaq





altında daha dəqiq görürlər. Bir quş insanın hissə-hissə görərək qavradığı bir çox görüntünü bir baxışda bütöv görür. Buna görə, quşlar quruda yaşayan heyvanlara nisbətən daha mürəkkəb görmə sisteminə malikdirlər. Allah hər quş növünə yaşadığı şəraitə və qidalanma ehtiyacına görə ən uyğun gözü bəxş etmişdir.

Gözlərin hər quş növünə görə fərqlilik təşkil edən xüsusiyyətləri Rəbbimizin müəyyən etdiyi qanunlarla işləyir. Allah heç bir nümunə olmadan gözləri və onların hər xüsusiyyətini yaratmışdır. Rəbbimizin hər şeyi yaradan olduğu bir ayədə belə xəbər verilir:

**Allah hər canlını sudan yaratmışdır. Onların bəzisi qarnı üstə sürünür, bəzisi iki, bəzisi isə dörd ayaq üstündə gəzir. Allah istədiyini yaradır. Həqiqətən, Allah hər şeyə qadirdir! (Nur surəsi, 45)**

### Ən böyük gözlər

Dəvəquşunun gözləri dünyadakı bütün canlıların gözündən böyükdür. Hər iki gözün diametri 5 sm-dir.

### Ən böyük görmə sahəsi

Meşə cüllütünün gözləri o qədər geridə yerləşir ki, 360°-lik görmə bucağına malikdir. Bu sayədə quş ətrafını və hətta başının üzərini görə bilir.

### Ən iti görmə

- Pereqrin qırğısı bir göyərçini 8 km-lik məsafədən görə bilir.
- Tetraçalan qırğı havada süzərkən 800-1000 m yüksəklikdən dovşan balalarını görəcək qədər iti görmə qabiliyyətinə malikdir.
- Sümsük quşları da (morrus bassanus) 30 m hündürlükdə qanadlarını çırparaq və ya süzərək balıqları iti gözləri ilə görür və ox kimi dik şəkildə suya baş vururlar.

Quşların və bütün digər canlıların davranışlarında müşahidə olunan ağıl, bilik və bacarığın mənbəyinin yeganə açıqlaması var: bütün bu xüsusiyyətlər heyvanlara Allah tərəfindən ilham edilir. Allah bu canlıları yaratmış, onlara qorunmaq, ov tapmaq, qidalanmaq, çoxalmaq yollarını ayrı-ayrı ilham etmişdir. Onlara yuvalarını tikdirən, qüsursuz planlar qurduran, onları qoruyan və sığınacaq verən sonsuz mərhəmət və şəfqət sahibi olan Allahdır. Təkamülçülərin iddia etdiyi kimi, nə "ana təbiət", nə də təsadüflər bu canlıları kompleks yuvalar inşa etmək üçün proqramlaşdıra bilməz. Bütün canlılar üstün yaradan olan Rəbbimizin ilhamı ilə heyrətamiz davranışlar nümayiş etdirirlər.

### Uçuş xüsusiyyətləri ilə diqqət çəkən quşlar

Yerin cazibə qüvvəsinin təsiri ilə bütün cisimlər havaya atıldıqda sürətlə və ya yavaş şəkildə yerə düşür. Yer üzündəki canlı-cansız hər şey bu qüvvənin təsirinə məruz qalır. Ancaq quşlar Allahın möcüzəsi olaraq bu qüvvəyə qarşı müqavimət göstərir və havada alçalıb-yüksələrək uçur, manevrlər





edir, bəzən heç qanad çalmadan süzürlər. Quşların skeletləri, ağciyərləri, tüklərinin düzülüşü, qanad formaları kimi bütün incəlikləri uçmalarını təmin edən xüsusi quruluşda və nizamla yaradılmışdır. Uçma prosesindən və aerodinamika qanunlarından xəbəri olmayan quş balası da doğulduğu andan uçma qabiliyyətinə malikdir.

### Ən çox uçan quş

Su qaranquşu (sterna fuscata) yuvasını böyümədən tərk edir, 3-10 il boyu havada yaşayır və müəyyən vaxtlarda suya enir. Böyüdükdə ancaq çoxalmaq üçün quruya enir.

### Ən uzun məsafə uçan quşlar

Quşlar tez-tez okeanları, sığınacaq yeri olmayan çölləri, dağları və buz kütlələrini keçmək üçün fasiləsiz uçmalı olurlar.

Ən uzunmüddətli iki istiqamətli köç məsafəsi (40200 km) qət edən quş şimal susüpürənidir (sterna paradisaea).

Dəniz qaranquşu Finlandiyadan başladığı səfərində 26140 km məsafə qət edir.

Qızılı rəngli kürən cüllüt və cod tüklü cüllüt kimi köçəri quşlar Havay adalarına, Yeni Zellandiyanın ucqarlarına fasiləsiz uçurlar. Müntəzəm davam edən bu uçuşlarda 4000-7500 km məsafə qət edirlər və bu səyahət 80-100 saat davam edir.

Sərçəkimilər fəsiləsinə aid quşlar da Meksika körfəzi, Saxara səhrası və ya Atlantik, Sakit okeanları kimi sığınacaq olmayan yerləri təqribən 30 saat ərzində 1000 km-dən artıq fasiləsiz uçaraq keçirlər. Qırmızıboğaz kalibri quşu 5 q-dan az çəkisi olmasına baxmayaraq, Meksika körfəzini fasiləsiz uça bilir.

Himalay bölgəsinə və Sibirdən Hindistandakı qışlaqlara köç edən zolaqlıbaş qazlar dünyanın ən hündür dağlarını uçub keçirlər. Bu quşlar təqribən 9500 m hündürlükdən uçurlar.





## Ən hündürdən uçan quş

Ruppell kərkəsləri 11275 m hündürlüyə qalxa bilirlər.

## Ən çox qanad çalan quş

Cənubi Amerikada yaşayan qızlarquş növü olan buynuzlu sungem saniyədə 90 dəfə qanad çalır.

## Geriyə uçan yeganə quş

Qızlarquşları geriyə uçma çempionlarıdır və bu cür uçan yeganə quş növüdürlər.

## Ən sürətli qanad çalan quş

Ən yüksək sabit sürət 170 km/saat sürətlə uçan tikanquyruqlu uzunqanad quşuna aiddir.

## Yuvaları ilə diqqət çəkən quşlar

Elminin bütün dəlilləri kainatı bürüyən Rəbbimiz quşları yuva qurmaqda ən usta canlılardan biri kimi yaratmışdır. Hər quş növünün özünəməxsus yuva qurma metodları var və heç bir səhvə yol vermədən bu qüsursuz yuvalarını inşa edirlər.

## Ən böyük yuva

Avstraliyada yaşayan malli toyuğunun yuvasının uzunluğu 4.5 m, eni 10 m-dir. Bu yuvanın çəkisinin 330 ton olduğu təxmin edilir.

## Ən kiçik yuva

Vervian qızlarquşu qoz qabığının yarısı boyda yuva qurur.

## Ovlama taktikaları ilə diqqət çəkən quşlar

Qırğıların yaxın qohumu olan müşgül quşlarının çox fərqli ovlama taktikaları var. Ov axtararkən sanki havada asılı qalır. Quyruğunu yayaraq açır və beləliklə, quyruğunun havanı saxlama qabiliyyətini bir az da artırır. Bundan əlavə, qanadlarının ucundakı tükləri də qaldıraraq hava axınlarının müvazinətini pozmasının qarşısını alır. Qanadlarının ucundakı tükləri bir-birindən ayırır, beləcə, qanadın yuxarı səthində əmələ gələn hava boşluqlarını paylamaq üçün yuxarıya doğru qalxan kiçik, sürətli hava axınları əmələ gəlir. Müşgül quşu havanın irəliyə itələyən xüsusiyyətindən istifadə edərək küləyin sürəti ilə irəliləyir və ovunu tutmaq üçün enəcəyi ərazinin üstündə havada asılı durur.

Sukəsənlər (qaranquşa bənzəyən quş) də qeyri-adi taktika ilə ovlarını tuturlar. Sukəsənlərin alt çənəsi üst çənəsindən iki dəfə uzundur. Suya çox yaxın uçaraq uzun alt çənəsini suya salır, dimdiyinin ucuna bir cisim toxunduqda dərhal üst çənəsini bağlayaraq ovunu tutur. Bəzən suda bərk cisimlər də olur. Sukəsən dimdiyini bu bərk cisimlər ağzında olduqda birdən bağladıqda əmələ gələn şok ona zərər vermir. Çünki sukəsənin başında və boynunda şoku udan güclü əzələlər var. Sukəsənlər ovlarını axtararkən ilkin mərhələdə nadir hallarda tapırlar. İkinci dəfə quş yenidən havaya qalxır və bir az əvvəl gördüyü ova doğru yenidən uçur. Suyun səthində hələ də su qovuqcuqları qalır və bu qovuqcuqlar, adətən, suyun üstünü araşdırmaq istəyən balıqları cəlb edir. Sukəsənlər məhz bu ikinci həmlədə ovlarını tuta bilirlər.



## Ən dözümlü quşlar

## Toqquşma qüvvəsinə ən çox tab gətirən quş

Bir ağacdələn dimdiyi ilə ağacı dələrkən sürəti saatda təxminən 40 km-ə çatır. Bu qeyri-adi sürətdir və əslində, ağacdələnə zərər verməlidir. Ancaq quşun dimdiyində xüsusi kilid sistemi var və bu sistem nəticəsində quşa ziyan dəymir. Bundan əlavə, ağacdələnin dimdiyinin aşağı hissəsindəki əzələlər də şoku udan xüsusiyyətə malikdir. Beləcə, ağacı dələrkən əmələ gələn şokun təsiri azaldılır. Əgər bu xüsusi sistem olmasaydı, sürətin təsirindən ağacdələnin dimdiyi iki yerə bölünərdi. Bundan əlavə, ağacdələnin ağaca dimdiyini vurduqda əks-təsir qüvvəsi birbaşa beyninə işləsəydi, quş huşunu itirərdi. Ancaq bu hal baş vermir. Çünki Allah ağacdələni məhz lazımi xüsusiyyətdə yaratmışdır.

## Ən çox yemək yeyən quş

Qızlarquşu hər gün çəkilərinin yarısı qədər yem (kiçik həşəratlar və nektar) yeyir.

## Ən uzunmüddətli ac qalan quş

Erkək imperator pinqvini aylar boyu qidalanmadan Antarktik okeanının buzlaqlarında yaşayır. Bu müddət 134 gün davam edir. Qaranquşlar isə həyatlarının çox hissəsini havada keçirirlər. Yuva qurduqda belə vaxtlarının yarısını uçaraq keçirirlər. Havada yatırlar. Uçmağı öyrəndikləri andan etibarən yuva qurana qədər heç vaxt quruya enmirlər. Bu müddət 21 ay davam edir.

## Ən böyük yük daşıma qabiliyyəti

Keçəl kərkəs (haliaeetus leucocephalus) təqribən 6.8 kq yük qaldıra bilir.

## Ən uzunömürlü quş

Royal albatros (diomedea epomophora) 58 il yaşayır.

## Allah sonsuz elm sahibidir

Quşların xüsusiyyətləri və yaşadıqları mühit hər biri üçün həyati əhəmiyyətə malikdir. Quşlar haqqında məlumatların hamısı Allahın fərqlilik sənətinin nümunələrindəndir. Quşlara bütün xüsusiyyətləri ilham edən, onları müxtəlif xüsusiyyətdə yaradan sonsuz elm sahibi uca Rəbbimizdir. Quranda quşlara diqqət çəkilən bir ayədə belə bildirilir:

**Məgər göylərdə və yerdə olanların, qanadlarını açıb qatar-qatar uçan quşların Allahı təqdis edib şəninə təriflər dediklərini görmürsənmi?! Onların hər biri öz duasını, şükür-sənasını bilir. Allah onların nə etdiklərini biləndir! (Nur surəsi, 41)**

Rəbbimizin bütün varlıqların yaradılışında nümayiş etdirdiyi üstün ağıl Onun sonsuz gücünün və elminin təcəlli etdiyi, möminlərin imanlarının artmasına səbəb olan yaradılış dəlilidir.

# Mömin ibarəli danışmağı, zarafatla söz atmağı gözəl və nəcib ruhuna yaraşdırmaz...

Müsəlmanların gözəl xüsusiyyətlərindən biri də səmimiyyətləridir. Bir söz söyləyəcəkləri zaman bunu sözün ən gözəli ilə, amma açıq şəkildə söyləyərlər. Dolayı üsulları, kinayəli danışıq üslubunu, cahiliyyə cəmiyyətlərində "söz atmaq" kimi ifadə edilən üsullardan heç vaxt istifadə etməzlər. Zarafatlarından qarşılarındakı insanlara söz atmaq üçün istifadə etməzlər. Davranış və hərəkətləri ilə ətrafındakılara nə isə izah etməyə çalışmazlar. Əgər söyləmək istədikləri bir şey varsa, bunu səmimi bir üslubla, təhqir etməyəcək sözlərlə, ən aydın şəkildə qarşılarındakı insana açıqlayarlar.

Məqsədləri hirsləndiklərini bildirmək, qarşı tərəfi gözdən salmaq, etdiyi səhvə görə o insana unuda bilməyəcəyi dərs verməyə çalışmaq, onun rəftarına uyğun cavab vermək deyil. Əksinə, yalnız Allah rizası üçün qarşı tərəfə fayda verməyə çalışmaqdır. Bu niyyətləri rəftarlarına əks olunduğu üçün qarşılarındakı insan da onların səmimi sözlərini və ya tənqidlərini nəzərə alar və davranışındakı nöqsanları qavrayıb düzəldə bilər.

Möminlərin bu xüsusiyyəti, eyni zamanda, onların əxlaqındakı yüksək keyfiyyətin və dərinliyin də əhəmiyyətli bir göstəricisidir. Bəsit üslublardan istifadə etməyən, insanlarla bəsit mövzular üzərində mübahisə etməyən, söz güləşdirməyən, qaş-göz işarələri, üz ifadələri və ya mimikalarla ətrafdakı insanlarla mesajlaşmayan yüksək şəxsiyyətə sahibdirlər. Əksi isə insanların ruhundakı bəsitliyi, adiliyi, səthiliyi göstərən bir əlamətdir. Mömin gözəl ruhunu belə bəsit rəftarlarla kirləndirməz.

Ancaq cahiliyyə cəmiyyətlərində bu xarakterdəki insanlar kifayət qədər çoxdur. Hətta bir çox insan ətrafındakı insanlarla başqa cür ünsiyyət qurmağı ağlına belə gətirməz. Günün böyük hissəsini insanlarla bu tərzdə eyham və gizli mesajlar verərək keçirər. Səmimiyyətə, açıq şəkildə fikrini bildirəcəyi danışıqlara heç vaxt ehtiyac duymaz. Çünki bunun nəticəsində qarşı tərəfə fayda vermək kimi bir məqsədi yoxdur. Məqsəd yalnız qəzəbini büruzə vermək, rahatlaşmaq, qarşı tərəfi hirsləndirmək, təhqir etmək və çəkişməkdir. Belə insanlar bu dialoq şəklini səmimiyyətdən daha üstün görürlər.

Möminin vicdanı isə belə bir həyat tərzini qəbul edə bilməz. Ətrafındakı insanlarla bu şəkildə dialoq quraraq yaşamağı heç vaxt məqbul görməz. Ruhu belə bir üslubda heç vaxt rahatlıq tapa bilməz. Cəmiyyətdə məşhur olan bu üslubla qarşılaşdığı zaman möminin xoş rəftarı heç vaxt dəyişməz. Ruhundakı yüksək keyfiyyətdən, səmimiyyətdən, dürüstlükdən heç vaxt imtina etməz. Bəsitliyə heç vaxt meyil etməz. Bu cür insanlara sözün ən gözəli, ən gözəl rəftarlar, ən açıq və səmimi sözlərlə cavab verər.

## Quranda möminlərin bu əxlaqı belə xəbər verilmişdir:

**Onlar yalandan şahidlik etməz, lağlağı məclisinə rast gəldikdə (oradan) ləyaqətlə ötüb keçərlər. (Furqan surəsi, 72)**

**Ər-Rəhmanın qulları o kəslərdir ki, onlar yer üzündə təvazökarlıqla gəzər, cahillər onlara (xoşagəlməz) bir söz dedikdə: "Salam!"- deyərlər. (Furqan surəsi, 63)**

**Allahın necə məsəl çəkdiyini görmürsənmi? Gözəl söz (la ilahə illəllah) kökü (yerdə) möhkəm olan, budaqları isə göyə yüksələn gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə öz bəhrəsini hər zaman verir. Allah insanlar üçün misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar. Pis söz isə yerdən qoparılmış və artıq kökü üstə dura bilməyən pis bir ağaca bənzəyir. (İbrahim surəsi, 24-26)**